qurşovlamaq qurşatmaq. quşatmaq. çəmbərəmək. çəmbərə almaq. bürümək.

qurşovlan maq: quşatılmaq. çəmbərə alınmaq.

qurşovlanmaq qurşatılmaq. quşatılmaq. yaraqlanmaq. bürünmək.

qurşun ***1***. ox. ***1***. qırquşun. qurquşun. qurqaşım. ***1***. **qursun**. **qurçun**. **qur** + **şun (< qur**: yük. ağır**). {** söz anlamları bulardır: yüklü. ağır. külçə. qunt. qunt. kündə. güllə. oqqalı. qapdal. battal**}.**

- qurşun sökəcək: tüfək tapancadan qurşunu çıxarmaq üçün burğu. xoruz ayağı.

- qurşun tökmək: pis gözləri **(**görüşləri**)** qoğmaq istəyi ilə, əridilmiş qurşunu, xəstənin üstündə su dolu qaba tökmək.

- qurşun sirkəs: həmzi əsas deyilən şimik maddə.

- şeytan qulağına qurşun: pis qulaq eşitməsin.

- qurşun duzu: bir şimik suyu.

- qurşun yakı: bir çeşit qurşunlu mərhəm.

- qurşun kimi: çox ağır.

- şeytan qulağına qurşun: göz dəğməsin. şeytan eşitməsin.

qurşunçu **- qurşunçu qarı**: qurşun tökmək işini aparan.

qurşunı qurşun, kül boyalı.

qurşunsuz quru. **- quru** yaraq.

qurt ***1***. bori. böri. **-** ulduz qurdu: kirmi şəbtab. işnar. **- yəşil qurd**: **göy böri**. ***1***. qaşqır. qaçqır. **- qurd ağzı**: qutuların ağzında, birbirinə keçən doğramaları.

- qurd boğan: bir göy adı.

- qurdun kürək gəmikləri: sirəy qalaq.

- qurdun kürək gəmikləri: sirəy qalaq.

qurt ***1***. qurcuq. soğurcan. ***1***. **qırt**. fırt. **-** bir **fırt**. **- fırt diyə**: çapıcaq. qırpadaq. həmən. **- fırt fırt**: **qırt qırt**: **qurt qurt**: ha birə. durmadan. ***1***.**gürt**. sağlam. qıyınqır. qınqır. əslək. əsləh. ***1***.**qurd**. əbə. aba. uşaq oyunlarında, oyunun yükünü daşıyan cocuq. **- dəniz qurdu**: usda bilgili dənizçi. **- ipək qurdu**: yarğa. **- qarın qurdu**: kədu tuxum. **- qurdun tökdü**: ağsın, zəhərərin, qaşınmasın, ətacılığın dışarmaq, açmaq. ***1***.**qurd**. qırqaş. ***1***.böcək. **- qabıq böcəyi**: **qabıq qurdu**: ağacın qabığın yeyib, qurumasına yol açan qurdcuq.

- əsgi qurd: çox bilmiş.

- qurtdan azma it: qarışıq qanlı, soylu, qırma it. **- bağırsağ solucanı**, **soğulcanı**, **qurdu**: askarit. kədu qurdu.

- ipək qurdu: gecə. böcəyi.

- gizlinpac oyununda, qurdun, əbənin durduğu yer: qala. gizildək.

- qaraqurt: ***1***. köklərə düşən qurd çeşiti. ***1***. **qaraqurc**. kiçik, yassı dadlı. pastil.

- sığırların soluq borularında yerləşən qıl qurdu: iplicik.

qırqaç. qaşqır. qaçqır. canavar.

- ac kişini **qurd yeməz**.

- ac, **qurda oxşar**, çılpaq, cinə.

- ağacların üstündə görülən böcək, qurd quş yumurtası: qarqa duzu.

- içinə qurd düşmək: qorxmaq. qorxunmaq. quşqulanmaq. qanqaçmaq. qanqıçmaq. qansıtmaq. qançıtmaq. yansıtmaq. yançıtmaq. işgillənmək.

- içini qurd yemək: çox tasalanmaq.

- qurd qulağı tay sapı olan qılıc çeşiti: qaraqolaq.

qurt **qurd**. ***1***. **(< qurmaq**: tavlamaq. tovllamaq. qızqınlatmaq**)**. qurulumuş: qızqın. tavlı. tovlu. yırtıcı. ***1***. **(**çoxun ayağsız böcəğə deyilir**)** sürünərək qımıldayan kiçik böcək. ***1***. yemiş

qurdu. böcək. ***1***. çallı. yallı. canavar. asav heyvan. ***1***. yer qurdu. ***1***. böri. mücək. ***1***. qurtun. dartan. dartın. kirm. **- qurda** vermək. qurda qaptırmaq. qurtuqlamaq. **- qurt qulaq**: fil qulaq. ***1***. quru. ***1***. solucan soyundan olan heyvanlar. ***1***. yırtıcı heyvanlardan olan qurt, böri.

- içində qurdu yox: istəyi, diləyi ciciyi olmayan.qoşub çalışmayan.

- qurd eşən: **qurdaşan** çoxun atlarda olan sərpmə qan çibanı.

- qurd vurma: taxdanın kəpək qoyub yaşıllanmağı, göyərmağı.

- qurd yeniyi: ***1***. qurd düşən taxdada oluşan qurd yuvası. ***1***. kəsir. qusur.

- qurd yeməz: qanalpa ağacı.

- qurd ağzı: qutuya sandığa vurulan, qurd ağzına oxşar özəl biçimdə yonulmuş həlqərəcə.

- qurt ayağı: kibrit otu.

- əsgi qurt: kurnaz, aldanmaz kişi.

- qurt bağrı: ağ çiçək açar kiçik ağac.

- qurt boğan: bitgi adı.

- qurt dırnağı: qurt pəncəsi: qan otu çeşiti.

- qurt qapanı: ***1***. qurdu tutmaq üçün üstü çala çırıpı ilə qapalı

çuxur. ***1***. küşti oyunlarından biri.

- qurt qulağı: bitgi adı.

- bozqurd: butda.

- çillə qurt. ipək böcəği.

- dişi qurt: bitda. bitday.

- qurt bışlaq: lor peniri.

- qurt yılan: evdə yaşayan, insanlara alışqın bir yılan.

- tək başına gəzən qurt: **qazaq yanlı**.

- yıltravuq qurt: od böcəği.

- çapaq qurt: yer solucanı.

- çillə qurt: ipək böcəği.

- qan içgən qurt: sülük. zəli.

- qarın qurt: şərit.

- qurt bavur: kələbək denilən qoyun xəsdəliği.

- qurt qaytab: qətifə.

- qurtlar azığı bolmaq: ölmək.

- mılı qurt: təsbeh böcəği.

1. quluçqa. kürt. küh. örəqulaq. dikqulaq. qızılqöz.

- kurt yatmaq: küh yatmaq. quluçqaya yatmaq.

- kurt çıxarmaq: quluçqaya yatıb civciv çıxarmaq.

qurta ***1***. qırıq. qıssa. ***1***. qırta. qıran. qırıcı. ayı. ***1***. qısa. ***1***. ayı.

qurta **qurda. qurca**. ***1***. azdırma. qarışdırma. əlləmə. təhrik. ***1***. qaşıma. təxriş.

qurtaq ***1***. qurulu. ayarlı. ***1***. qutat. qutaq. qaraçuxa. xoşbəx.

qurtaq **qurdağ**. diş qurdalayan. kürdan.

qurtaqo **qurdaqo**. qurmaq. ələ gətirmək.

qurtala **qurdala.** ruban.

qurtalamaq **qurdalamaq**. **qurcalamaq**. **(tıntıqlamaq)**. ***1***. qopurmaq. yerindən qaldırmaq. qurcalamaq. ***1***. qaşımaq. təxriş edmək. ***1***. qarışdırmaq. əlləmək. ***1***. təhrik edmək. azdırmaq. ***1***. qurcalamaq. sonğramaq. imalə olmaq. nərsənin qəbulunda çətinlik göstərmək. sözü ikircimləmək. ***1***. ölçüdən artıq bir işlə uğraşmaq, incədən incəyə gedmək, çevirib devirmək. tıncıqdırmaq. sıncıqlamaq nərsənin sınıqın, kəsiyin, əksiyin göstərmək işi. incə eliyib sıx toxumaq. ***1***. dalbızlamaq. daldızlamaq. dimdikləmək. dallayıb incədən incəyə dənəmək. uşuqlı, quşqulu olmaq. çürükçülük edmək. daldan dala gəzmək. pürçükləmək. bəğənməmək. ***1***. bir şəyə qurd salıb çürütmək. küfləmək. pəlləmək. **-** onun işi **qurdamaqdan (** kallamaqdan**)** başqa, bir nərsə dəğir. **-** qurmağın yoxdu, **qurdamaq (**kallamaq**)** nədir. **-** ər arvadın işin **kallama**. ***1***.

qamamaq. kəməmək. qammaq. sındırmaq. pozmaq. talamaq. dağıtmaq. qırmaq. parçalamaq. xırdalamaq. əğmək. altamaq. çözmək. dizə çökürmək. təslim edmək. ***1***. qarbalamaq. dürçələmək. gəzəkmək. barmaqla axdarmaq. kovlamaq. qazmaq. gorlamaq. ***1***. qurcalamaq. səfehləmək. düz sağman yöndəmli iş görməmək. ***1***. miciləmək: iştahsız yemək. nəm nüm edmək. çəm çüm edmək. çöpləmək. ***1***. şikayətlənmək. dinc olmayıb, rahatsız olmaq. soncuqlamaq. topallayaraq yerimək. ***1***. tənləmək. təntəmək. dənləmək. tənqləmək. tandazlamaq. tintiqləmək. qurcalamaq. səfehləmək. düz sağman yöndəmli iş görməmək. ***1***. **(< kov)**. kovlamaq: qazmaq. gorlamaq. kurdalamaq **<** qoldalamaq. **(< qol**: **əl**: barmaq**)**. kollamaq. kullamaq. barmaqlamaq. əlləmək. barmaqlamaq **(**qol: barmaq. kollamaq. kor. kur **)**.

- qurdalayıb tapınmaq: gəzinib aramaq. dönüşdürmək.

qurtalamaq **qurdalamaq**. qurcalamaq. qasqalamaq. qısqalamaq. dürtmək. dürtükləmək.

- hər nəyi söz eləmək, **qurdalamaq**: duvarda çatlaq axdarmaq bacadan çatlaq axdarmaq: qurdalamaq. xaşxaş deşələmək, mətələmək, bitələmək.

qurtalanmaq **qurdalanmaq**. **qurcalanmaq**. dürtülmək. dürtüklənmək.

qurtalaştırmaq **qurdalaşdırmaq**. qurcaşdırmaq. dürtüştürmək.

qurtalatmaq **qurdalatmaq**. qurcalamaq. deşmək. eşmək.

qurtalayan **qurdalayan.** saylaqan. incədən incəyə arıyan. seçən. **- saylaqan** qız. daza gedər.

qurtalmaq qutanma. qutanmaq. bəzqənmək. bəzənmək. xoşbəxt olmaq. fərəhlənmək.

qurtamaq **- özgə ələ keçmişi qurtamaq**: dada çatmaq geri almaq. istirdad edmək.

qurtamaq **qurdamaq**. **qırd**amaq. **qıdır**maq. aramaq. gəzmək. dolanmaq.

qurtan **qurdan**.**qurhan**. qapata. qamata. qapata. bölük.

qurtan **qurdan.** qordan. qorucu.

qurtanmaq **(t < > l) qurtlanmaq**. **(qurt** + **lan**: bir nədən, nərsədən olmaq**)**. ***1***. bittən qaşınmaq. ***1***. qoyunlarda bit aramaq. ***1***. **(**qoyundan**)** qurd, kənə aramaq. ***1***. qaşınmaq. ***1***. **qurtlanmaq**. **(qurt + lan + maq)**.

qurtanmaq sonlanmaq. bitinmək. başa vurulmaq.

qurtar **- utanmağı at**, **üz**, **qurut**, **<u>qurtar</u>**.

qurtaracaq **- yaxcı işləridə**, **yaxcı görməsən**, **<u>pis</u>** **<u>qurtaracaq</u>**.

qurtaramaq **- bir cür özün qurtaramamaq**: baş alamamaq.

qurtaramamaq **- dilindən qurtaramamaq**: sürəkli sataşmalarına, ilişdirilərinə, tənqidlərinə konu olmaq.

qurtaramayan **qutaramayan**. qaldıramayan. götürəməyən. nəcat verəməyən.

qurtaran ***1***. qurtarıcı. ***1***. qısa kəsən. qıtan. qıran. bitirən. **-** sıtma **qıran**. ***1***. götürən. **- can qurtaran**: dənizdə boğulmaqdan qutaran. qəriqi nəcat.

qurtaran ayağan.

qurtaran **qutaran**. əriştirən. qaldıran. götürən. qoparan. sökən. çıxaran. çıxarıcı. çözücü. çözən. nəcat verən. açan.

- canqurtaran: ambulans.

- can qurtaran: **canqutaran**: can açı. nəcat verən. **- ölü üstünə otaçı**, **ola bilməz can açı**: ölüyə həkim gedsin, can çıxmışa netsin **(**nə edsin**)**.

qurtarı **qutarı**. son. bitiş. bitiri. əncam.

qurtarıcı qayurtar. yardımsevər.

qurtarılmaz bataq. batmalı. umsuz. umutsuz. yox olmalı. yoxluğa uğayan. uğursuz.

qurtarın! **qutarın!**. kömək!. yetişin!. imdad. mədəd.

qurtarış **qutarış**. toxunaq. başa vuruş. bitiriş. sonlanış.

qurtarış qutqarış. götgəriş.

qurtarmaq ***1***.qapurmaq. götürmək. ***1***.gücdən düşürmək. bitirmək. sonlandırmaq. başa vurmaq. tükətmək. tamamlamaq. bitirmək. sonğlamaq. sonlamaq. təhləmək. **- keçirib qurtarmaq**: keçiştirmək. savmaq. atlatmaq.

qurtarmaq **qutqarmaq**. ***1***. götgərmək. qıtqarmaq **(**qırtmaq**)** çözmək. qutlu edmək. qutkazmaq. sıçratmaq. irgətmək. qutquzuşmaq. ***1***. qurtqarmaq. ötürmək. xilas olmaq.

qurtaş **(qor** + **daş)**. əsgi qaraçayda gözdən **(**nəzərdən**)** qoruması üçün evin avlusuna qoyulan göyə boyanmış böyük daş.

qurtaş **qurtat**. bitiş. sonuş. əncam.

qurtaş **qurdaş**. ***1***. **(**kurdeşni**)** qurdçax. dəri xəstəliyi. qabar qabar çalan xəstəlik. dəlik deşik. **- qurdaşa** düşmək: qurddalanmaq xəstəliyi. ***1***. qardaş. ***1***. əmoğlu. ***1***. xaloğlu. ***1***. yaşıt. yaşdaş. qərinələr. əmsal. əkran. ***1***. **qardaş**. bənzər. yaxın. oxşaş.

qurtaşan **qurdaşan**. qurd eşən: çoxun atlarda olan sərpmə qan çibanı.

qurtaşmaq **qurdaşmaq**. ***1***. təngişmək. darılmaq. yaxınlaşmaq. birikmək. ***1***. sıraya girmək. dizilmək. birlikdə oturmaq.

birikmək. **-** bəyinən **qurdaşan**, bəyliyinə güvənən. **-** tülkü **qurdaaşı** tülkü olar. ***1***. sıralanmaq. məclis qurmaq.

qurtat **qurtaş**. bitiş. sonuş. əncam.

qurtatmaq bitirmək. sonutmaq. əncam çəkmək.

qurtboğan iti ağılı ot. boğanotu. qaplanboğan. itboğan.

qurtboqan **qurdboğan**. boğanotu. qaplanboğan.

qurtcağız qurdcıq. kiçik qurd.

qurtcıq **qurdcıq**. qurtcağız. murcək. burcək. böcək. möcək. bücək. mücək. kiçik qurd.

qurtcuq **qurdcuq**.böcəcik. **- ağacın qabığın yeyib, qurumasına yol açan qurdcuq**: qabıq böcəyi. qabıq qurdu.

qurtçu qurtçuq. gənç qurt.

qurteşən **qurdeşən**. **qordeşən**. **qardal**. **qordal**. ***1***. qaşınan sərpmə kəsəli. ***1***. alerji.

qurtı qurtqa. qarı. kəmpir. kaftar.

qurtqa ***1***. əlsiz. bacarıqsız. bacarmaz. bacarıqsız. ***1***. qocaqarı. **- qurtqa** büzik bilməs, yerim dar dər. ***1***. cadı. yaşlı qadın. ***1***. qarı. qurtı. kəmpir. kaftar. ***1***. sınqarlı. sınaqlı. təcrübəli. güngörmüş.

- qart qurtqa: cadı. büyücü qadın. baxıcı yaşlı qadın.

- qart qurtqa: cadı. büyücü qadın. baxıcı yaşlı qadın.

qurtqarmaq qurtarmaq. ötürmək. xilas olmaq.

qurtqəbəq **qurtgəbək**. *ad*. **qurtqa**: yaşlı kadın + **bek**: beğ. bəy.

qurtquş **qurdquş**. qaşqarat. böcək. həşərə.

- kiçik qurdquş: qıcır. böcək.

qurtlamaq qurt çıxarmaq.

qurtlanmaq **qurçalmaq**: ***1***. qurçalmaq. qaşınmaq. ***1***. böyümək. ağranmaq. yekəlmək. uluqmaq. ***1***. canına qurt düşmüş kimi qaşınmaq, dincsiz olmaq. talaşlanmaq.

qurtlanmaq qurt yemək.

qurtlaşışmaq **qurdlaşışmaq**. qurcaşışmaq. dürtüşmək.

qurtlayış **qurdlayış**. qurcayış. dürtüş.

qurtlıca palamut otu: sarımsaq otu. həşişeyi buqələmun. çeşitlərindən: saçaqlıqurtlıca, ağ qurtlıca.

qurtlu ***1***. çüyrən. çürük. kövrük. qurçuq yemiş. inciqli. puslaq. pusqal. paslaq. pasqal. ***1***. quşqulu. qorlı. qurlı. gurlı. cüvəli. qışıqlı. qızıqlı. qıdıqlı. qıtıqlı. qıcıqlı. işgilli. tədirgin. birəli. tuluqlu. dalqalı. dağqılı. çalxalı. yalxalı. yılxalı. qatılı. qatqılı. qarqıl. qarıq. qaralı. qatışıq. qarımıq. küpəli. qılplı. qulplu. pülçüklü. kölgəli. sarsılı. yalpalı. bulalı. bulanı. toxalı. gərgili. şübhəli. şəggili.

məşkuk. müşəvvəş.

- dili qurtlu: dediqoducu.

qurtmu ufaq təfək iş.

qurtta qırta. qırışıq. solqun.

qurttaq qırttaq. kiçik. mini mini. kiçik parça.

qurttaqlamaq ***1***. qıttaqlamaq. qırttaqlamaq. parçalamaq. ufalamaq. ***1***. qurda vermək. qurda qaptırmaq.

qurttalama **qurddalama**. əlləşik. əl sürmə. barmaqlama.

qurttalamaq qıdıqlamaq. aramaq. araştırmaq. quşqulatmaq. qıcıqlamaq. şəgg şübhəyə salmaq. kimsədə bir duyular oyatmaq.

qurttalamaq **qurddalamaq**. ***1***. əl vurmaq. barmaqlamaq. ***1***. **qurcalamaq**. deşələmək. deşəmək. deşmək. eşələmək. eşəmək. eşmək. ***1***. araştırmaq. incələmək.

- nərsənin içinə, **dərininə girib araştırmaq**, **qurtdalamaq**, **incələmək**: içinə dalmaq. dalqınmaq. içkənmək. işgənmək. içgininmək. işgininmək.

qurttalamaq **qurtdalamaq.** dürtmək. barmaqlamaq. təhrik edmək.

qurttalanmaq aranmaq. sürünmək.

qurttalanmaq **qurddalanmaq**. **qurcalanmaq**. deşələnmək. deşənmək. deşinmək. eşələnmək. eşənmək. eşinmək. eşinib deşinmək. çöplənmək.

qurttalatmaq **qurddalatmaq**. qurcalatmaq. deşələtmək. deşətmək. deşitmək. eşələtmək. eşətmək. eşitmək.

qurtu **qurdu**. ***1***. mürəkkəb. qurqu. ***1***. tə'sis. qurqu. ***1***. tavlı. tovlu. qızqın.

qurtuq **qurduq**. ***1***. qurum. heybət. heykəl. yapıt. qapıt. bağaq. bükək. toxut. öğək. örək. hörək. durbağ. durşut. biçit. çıqqın **(< ciq)**. yükür. kürdə. gördə. kürüt. dayqın. əzəmət. şovkət. ***1***. **gurultuq**. **gurultucu**. **gurlayan**. **gürtüq**. **gürültüq**. **gürültücü**. **gürləyən**. iğrən. iğrək. iğrəqən. inğirək. inğirən. inğirəgən. inrək. inrən. inrəgən. anğıraq. anğıran. yanğıraq. yanğıran. yanğırqan. böğrək. böğrən. böğürən. böğürgən. bağıraq. bağıran. bağırqan. bağırtqan. çağırqan. çağırtqan. çığırqan. çığırtqan. yayquracı. yayqaracı. nə'rəçi. nə'rə çəkən. ərbədəkeş.

qurtuq **qurduq.- ovçuların, içinə girib, <u>pusu qurduqları</u> ağaclıq yer**: pusqu. kafa **<** qapa.

qurtuqlu **qurduqlu**. **qudruqlu**. qurumlu. qabtaylı. qaqaylı. qapdallı. qapıtlı. heybətli. heykəlli. ataigid. aznavur. bağaqlı.

bağtaylı. biçitli. biçitik. böğə. buğa. bükəkli. cığasın. çıqqınlı **(< ciq)**. dayqanlı. dayqınlı. durbağlı. durşutuq. durşutlu. gördəli. hörəkli. kürdəli. kürdək. kürküt. kürütlü. toxduruq. toxuşlu. toxutuq. yapıtlı. yaptallı. yüklü. yükürük. yükürt. şovkətli. əzəmətli.

qurtuqoc **qurduqoc**. ağac yada başqa bir bitginin qırıldıkdan sonra təkrar qaynayıb böyüdüğü yeri.

qurtul **< *1***. qırtıl **<** qıt. ***1***. qurul **<** qur. **(**qurmaq. görmək**)** edilqənlik ol. ***1***. xiraç. vergi. cizyə.

qurtulamaq **- sıxıtıdan qurtulamamaq**: belini doğrultamamaq. durumunu düzəltəməmək.

qurtulamamaq **- incəlikdən**, **arıqlığdan qurtulamamaq**: ət tutmamaq.

qurtulqu ***1***. vergi. xiraç ***1***. qurtuluş. istiqlal.

qurtulma ***1***. səlamət. qurtuluş. ***1***. varəstəlik. varıstalıq. varışma. çatışma. azadəlik.

qurtulma **qutulma. *1*. qutluş. qutuluş. qurtac. qurtuluş**. iyiləc. iyiləşiş. iyiləşmə. iyiləşim. qutac. qalxınma. qalxac. qalxış. sağac. sağlış. sağlım. sağalma. sağlış. alac. əlac. çara. nəcat. dərman. ***1***. açıtlıq. açatlıq. fidyə. azadlıq qarşıtı verilən para.

- buzçudan soruşdular: **- satdın buzu**, **- dedi**: **alan olmadı**,

qurtuldu.

- yağıdan qurtulluq, dosdum tutmasa.

- ağzın açan tutuldu, başı olan qurtuldu.

qurtulmaq ***1***. başdan atmaq. savuşdurmaq. dəf' edmək. **-** bu malı **savuşdursan**, başından **savdın** bəlanı sən. ***1***. qırtılmaq. olduğu yerdən fırlayıb qaçmaq. **-** onun əlindən heç nə **qurtulmaz**: onun əlindən hər nə gəlir. ***1***. qırılmaq. geçilmək. bitmək. qət' olunmaq. **-** yolun ağırı **geçildi**. ***1***. **qutalmaq**. **qutulmaq**. ***1***. doğurmaq. ***1***. qut bulmaq. qutulmaq. ***1***. çıqınmaq. sərbəst qalmaq. qaçmaq. yalıqlamaq. calıqlamaq. yaxayı sıyırmaq. ıçqınmaq. ıçqılmaq. sərbəst qalmaq. ***1***. qutanmaq. xoşbəxt olmaq. fərəhlənmək. ***1***. bitmək. ***1***. boşalmaq. **-** arvad **qurtuldu**: doğdu. **-** ər əmgəkdən **qurtuldu**: əzabdan. ***1***. yarıqsamaq. nəcat tapmaq. ***1***. bitəmək. qaçmaq. sırıqmaq. sıyrıqmaq. sıyrılmaq. savuşmaq. xilas olmaq. çəkinib savuşmaq. boşalmaq. təxliyə olmaq. xilas olmaq.

- tələsik qaçıb qurtulmaq: qapaq atmaq.

qurtulmaq **qutulmaq**. ***1***. siyrilmək. sıyrılmaq. ***1***. yarılmaq. açılmaq. siyrilmək. sıyrılmaq. ***1***. boşalmaq. ***1***. fırtmaq. fırttırmaq. fırlanıb aradan çıxmaq, qaçmaq. ***1***. **qurtuşmaq**. ərmək.

ərişmək.

- kötü bir durumdan <u>qurtulmaq</u> <u>üçün</u> bir yerə sığınmaq: qapağı atmaq.

- şehdən, istidən yerindən qalxmaq, qurtulmaq. - kir **qabardı**. **-** mizin qaplaması **(**üzü**) qabardı**.

- güc durumdan sıyrılmaq, **qurtulmaq**: baltası kütükdən **(**kütük **)** çıxmaq. **- nərsədən qurtulmaq**: dincəlmək. açılmaq.

- sıxıntıdan qurtulmaq: düzə çıxmaq. dincəlmək.

qurtulmuş ***1***. özgür. bağımsız. ***1***. varısta **>** varəstə. varmış. çatmış. azadə.

qurtulmuş varmış. barmış. barsıt. barsat. varsıt. varsat.

- ipdən qazıqdan qurtulmuş: qırıq kişi. hər çeşit yamanlıq qırıqlıq, yardılışdan keçmiş kimsə.

qurtuluş ***1***. arınc. barış. ***1***. qutra. catat. burqa. çıxış. nəcat. ***1***. onqur. səlah. ***1***. boşanmaq, qaçmaq yolları. ***1***. yarıq. nəcat.

qurtuluş ***1***. çıxar. çözüm. nəcat. ***1***. azadlıq. azadi. sərbəslik. nəcat. iflah. **- çıxar yolu**: nəcat yolu. ***1***. **qutac. qutluş. qutuluş. qurtac. qutulma. qurtulma.** iyiləc. iyiləşiş. iyiləşmə. iyiləşim. qalxınma. qalxac. qalxış. sağac. sağlış. sağlım. sağalma. sağlış. alac. əlac. çara. nəcat.

dərman. ***1***. yarqı. ***1***. çara. nəcat.

- qurtuluş savaşı: azadlıq, istiqlal döğüşü. **- qurtuluş evrəsi**: azadlıq, istiqlal dönəmi. **- qurtuluş öğütləri**: miftahül cinan. uçmaq yolları. cənnət yolları. özgürlük dərsləri. **- qurtuluş yolu**: nəcat yolu.

- <u>qurtuluş sevgisi</u>, gözlərində ışıl ışıl yanırdı.

- qurtuluş, **nəcat yolu** çıxış yolu, qapısı.

qurtuluşsuz yarqısız. qaçılmaz. qaçınılmaz. çarəsiz. çıxılmaz. olunmaz.

qurtun ***1***. batılı. batıdan. ***1***. qurd. dartan. dartın. kirm.

qurtuntu **qurtundu**. sonuncu **(**? **<** qıtqarmaq. qırtmaq**)**.

qurturmaq **qurdur**maq. qurmaq. **- ya qur**: yay, kaman, kiriş qurmaq. **-** cuvac **qurtur**: çadır qurdur. **-** süs **qurtur**: qoşun çəkdir.

qurturmaq qurdurmaq. toplatmaq

qurtuş **qurduş. xurduş**. qaşağ. qaşınan. qaşınması olan.

qurtuşmaq **qurtulmaq**. ərmək. ərişmək.

quru **(< qaqruq**. **< qaq**: yığılmış. toplanmış durum**)**. ***1***. qaqıra. qaqura. quyqaru. **(**qaqırama: qurumuş. quru**)**. **- quru qlmaq**: **qurulay qalmaq**: əli boş qalmaq. yoxsun, yoxsul mahrum qalmaq. ***1***. qurub. batıqə. **(**kuyu. quyu. kiru. kuyqaru**)**. ***1***. qara. falsız. boş. əbəs. köksüz. verimsiz, xoruq topraq,

yer. yararsız. dəğərsiz. dəyərsiz. ***1***. əli boş. məhrum. yoxsun. ***1***. yalnız. sadə. lüt. ***1***. munğ. azap. izər. aza. azar. ***1***. kuyqan. qorulmuş. qovrulmuş. yanmış. **- quru sevda**: quru **(**qara**)** qalay **(**istək**) - quru əl**: boş əl. **quru yer**: qara topraq. **quru yaş**: iyi kötü. qara dəniz. ***1***. suyu çəkilmiş. sarqın. solqın. pozqın. **-** üzün **qurusun**: gəbərəsən. öləsən. ***1***. bir nərsənin cevrəsi. ***1***. bayram toplantısı. ***1***. qara. quru. quraqlıq. sudan qıraq yer. ***1***. yalnız. bayağı. sadə. adət üzrə. əsgi. köhnəlmiş. özəl olmayan. **- quru çaplar**: xalq arasında olan normlar. **- quru da**: hər vax. **- quruda** olduğu kimi: hər vaxki kimi. ***1***. **qaru**. **tanrı**. ***1***. boş. sadə. yalnız. qavursun. quraq. boş. havayi. müfdə. qurulay. ***1***. məhrum. ***1***. azqaq. zayıf. cılız. azqın. cılız. çöp kimi. ***1***. quro. məhkəmə. ***1***. qaqırdaq. ***1***. taqır. bərk. çətin. zor. taxta yer. qax. qat. qart. qaq. qatıt. ***1***. qurt. ***1***. quyuq. qayuq. qalın. qəliz. ***1***. soğur. kor. ***1***. susuz. **- quru** ova. **- quru** topraq. ***1***. arıq. ətsiz. **-** quru kişi. **- quru** cocuq. **- quru** öksürük. **- quru** yemiş. **- quru** soyuq. **- quru** hava. ***1***. açıq. çıplaq. lüt. döşənməmiş. **- quru** yer. **- quru** söz. **- quru** taxda. ***1***. yalın. qatsız. qatıqsız. **- quru** əkmək. ***1***. qurşunsuz. **- quru** yaraq. ***1***. boş. etgisiz. **- quru** patıdtı. **-**

quru söz. **- quru** göstəriş. ***1***. bəzəksiz. alıqsız. gəcsiz. **- quru** duvar. ***1***. döşənməmiş. boş. **- quru toprq**: döşənməmiş yer. ***1***. götrü. fələc. ***1***. kibrit. tünd. iti. bədəxlaq.

- qurutulmuş ot, yonca: **burso**. yana buraxılmış ot.

- yassı, **quru əncir**: daban ənciri.

- quru, arıq kimsə: qağın. qaqın.

- qurutulmuş qoyun quyruğu: ırqay.

- quru soğuq: ayaz.

- quruqluq: qara. topraq. boş. **- quru qurusuna**: boş boşuna. quru gəp: quru söz. **- qurudum**: mat qaldım. **- quru yerə**: boş yerə.

- qurumuş heyvan kübrəsi: qorsa.

- quru yurtqa qalmaq: evsiz barqsız ortada qalmaq.

- quru da: dep. hər zaman. dayima.

- quru qalmaq: məhrum olmaq.

- quru qazan: palavracı.

- quru dal: çıbırdaq. odun. **- quruda**: dep. hər zaman. dayima.

- quru qalmaq: məhrum olmaq.

- çox quru, **arıq**: qatıt. **- qatıt** kişi. **- qatıt** cocuq.

- quru başına: tək. yalın. yalnız.

- quru göl: **quru hovuz**: gəmilərin onarma yeri. beləki gəmiləri bu gölün içinə saldıqdan son, gölün suyu başalıb, gəmi qızaqın üstündə oturur.

- quruda qalmaq: gəminin qarıya oturması.

- quruda: qarada. yerdə. bir nə döşəməksizin.

- quru dirək: yelkənsiz olaraq, ki yelə qapılır.

- duzu quru: düzi quylu: düzəmənli. işi sağlam. quşuqusuz durum.

- quru gicik: uyuz kəsəli.

- qarısı qurusu.

- quru çörək: gəvrək. gəvək.

- quru nərsələrin birbirinə dəğib sürtülməsindən çıxan səs: qaqır.

- ağac üstə quruyan yapraq: xəzəl. qəzəl.

- çox quru: qaqır qaqır. **-** dəri gündə qalıb, qaqır qaqır olmuş.

- çox sərt, **quru**: kərpiç kimi. **-** kərpiç kəsilmiş yerlər. **-** quraqlıq düşdü yer kərpiç kəsildi.

- çox zayıf, **arıq**, **quru**: qurğaz.

- quru olub qaqırdayan nərsə: qaq.

- bayağı, **çürük yemiş qurusu**: qığ.

- bərk qurumuş kiçik nərsə: qığ.

- quru soyuq: ayaz.

- gül qurusu: gül qurusunun boyası.

- təxdə qurus: **təxdə** biti.

quru ***1***. soğuq. donyağı. ilgisiz. istəksiz. maraqsız. kovasız. durqun. meyilsiz. əğimsiz. maraqsız. qayğısız. sakin. əlaqəsiz. buzdaş. daşbuz. cansız. qatıq. sərt. edgisiz. batlıq. yatqın. yatışmış. tutqun. toqtun. yanğsız. təpgisiz. gərimsiz. həyəcansız. qımıltısız. hərəkətsiz. axımsız. tutumsuz. oturuq. çökük. səssiz. qeydsiz. münfəil. xunsa. ***1***. ətsiz. kətəğ. nusxə. kopi. ***1***. qaq. qaqış. daşav. odunsu. ***1***.qax. qaqaç. ***1***.qaqıt. qaqıc. sərt. bərk. ***1***.aşaqsız. başaqsız. qamqalat. qapqalat. qayta. səmərəsiz. səmərsiz. verimsiz. sonucsuz. ürünsüz. hasılsız. şoraq. çoraq. ***1***.inamsız. imansız. yağsız. yavan. ***1***.qaqal. qaqla. qaqıl. ***1***.qamıt. qımıt. qaqıt. cılız. qıntıc. qıncıq. qıntın. çınğır. çınğız. çanğıc. qaqırdaq. qaqşaq. zayıf. zəif. ətsiz. ***1***.soyuq. donuq. odsuz. sönük. durqun. oturuq. yatqın. yanız. yanğsız. yaxsız. cansız. təpgisiz. gərimsiz. həyəcansız. çökük. ***1***.**ququt. qaqut.** qurut. gücməçi. gücəmçi. gücəyən. yaxımsız. yaxışsız. yassız. yasız. köşəqılıç. çözəqılıç. əğriqılıc. əğripiçaq. acımaz.

əsirgəməz. əsriksiz. əsiksiz. daş ürək. qatı. qata. qat. qıyıcı. qıycı. qıylı. qıyaq. qıylı. qıyası. qıyım. qıyımlı. adil olmayan. insafsız. rəhmsiz. mərhəmətsiz. zalim.

- çəkirdəksiz, **çərdəksiz qax**, **qaysı (qeysi**: **ərik) qurusu**: qaramanı.

- çox quru, tez yanan odun: gəlinüfürməz.

- içi kovuq, boş quru odun: kavran. qabran.

- iyi çeşitli quru üzüm: geçimən.

- quru, çürük yapraq: qazal. **kavzal**. **kəvzəl**. **xəzəl**.

- qabığı soyulmuş quru ağac: ağbuynuz.

- quru ağac, taxda: qaqac. qaqdal. qaqdalay. qandalay. taqtay. taqatay.

- <u>quru</u> çör çöp, yapraq: kavşal. xəşəl. xaşal. xəzəl. qaqşal. qaşal. kavraq. kavqaz.

- quru çörək, xoş ürək.

- quru dadlı: qaqal. qaqa. biskivit.

- quru kütük, **odun**: qaraqavuq.

- quru lumu: əmani lumu. tumuşac. tumuşca.

- quru, sərt olan nərsələrə verilən ad: qabat **<>** qatab. odun.

- qurudada, **sudada yaşaya bilən canlı**: ikiyaşalı.

- odun kimi quru, **sərt nərsə**: qurulaq qarulaq.

- taxdaq urusu: qarıt. qarut.

- yaşamın yaşıda var qurusuda, **könül ki var**, **övüşüdə var**, **öküşüdə**.

- qapquru: anlamsız. anlaşılmaz.

- qara quru: **qara qura**: qara qax: əsmər, arığ nərsə.

- qupqurusu: **- hərnəyin qupqurusu**: qurut. qarot. qasaq. qaqsaq.

- quru nərsə: qaqırdaq.

- aşırı çılpaq, **yalın**, **quru**: dəğnək, soba kimi.

- quru, **susuz**, **verimsiz yer**: çoraq. şoraq.

- yemiş qurusu: qax. çiğ. çir. **- quru**, **incə zayıf kimsə**: **cılız**. **qambır**. **qanbır**. **qaqbır**. **çapbır**. **çapqır**. **qaq**. **quruq**. cıraz.

- quruyemiş: yer yemiş. oğnaq, ufaq təfəq, xıdavat yeməklər. kərəz **>** çərəz. dadlıq. qatış. qatıq. məzə.

- quru sıxı: yılmış. yılqın. ürkmüş. qorxmuş.

- quru təpə: qarayandıq.

- quru yemiş: çərəz.

- quru gurultu: avur zavur. hapır zapır. boş söz.

- incə yemiş qurusu: bastıq. qax.

- quru sıxı: boşuna qorxutma. bılof. qompuz.

- bir dəri bir sümük, quru, iskilet olumluq: qaqlıq. qaqamlıq.

qaqımlıq. cılızlıq.

- qax, cılız, bir dəri bir sümük, quru, iskilet kimsə:

qaqamıq. qaqmıq. qaqam. qaqım.

- quru nərsələrin birbirinə dəğərək səs çıxarmaq:

qağıştamaq. qağışdamaq. çaqışdamaq.

- quru nərsələrin çıxardığı səs: qağıştı qaqıştı çaqıştı.

- quru nərsənin birbirinə sürtülmə səsi: qaqırtı.

- quru yemiş: qax. qaqı.

- quru, **gəvrək dadlı çeşiti**: kavalaq. kavalaq. kavdalan. bisküvit.

- quru, **sısqa qadın**: qaqnım. qaqmın. qaqlım. qaqsım. qaqcım.

- quyruq əritildikdən sonra arda qalan, **quru**, **qavrılmış nərsə**: qaqırt. qaqart. qaqırdaq. qıqırdaq. cızbız.

qurub ***1***. biriqmə. coppu. yoppu. topluq. çompu. öbək. tabın. sürü. tılqam. dılqam. öbək. üyür. sürü. toplum. ailə. qutam. sürü. yığın. kümə. ***1***. kuyqaru. kuru.

qurub ***1***. **ğurub**. gömüş. qumuş. batış. ***1***. ekib. dəsdə. topluluq. bölük. zümrə dəsdə.

qurubban ərbaş. ən kiçik dərcəli əsgər.

qurubetlik sevimsizlik. çirkinlik.

qurublamaq qurbulamaq. coppulamaq. yoppulamaq. toplamaq.

qurublaşmaq cıyınlaşmaq. çıqınlaşmaq. yığılaşmaq. toplanmaq.

qurubt sevimsiz. çirkin.

quruc ***1***. **guruc**. **gurul**. savaş. qırılan. qırlan. cədəl. ***1***. qaruc. kabus. ***1***. **qurumuş**. qatımıc. bəkimiş. bərkimiş.

- qaraquruc: **qaraquruş**: **qaraqurunc**: ***1***. duzağ. ***1***. mafya. ***1***. pozuq, fasid qurum, təşgilat.

quruca quraq.

qurucu döşəmçi. döşəyici. yapıcı. quran. yapıcı. müəssis. müəssis.

quruçal **qurusal**. **qarasal**. **qaraçal**. **- qarasal döğüş**: quru savaşı. **- qarasal qumul**: dəniz qıyısından uzaqlıqda, çöllərdə oluşan qumul **(** yel əsintisindən oluşan qum yığını, təpəsi**)**.

qurudumuş **- duzlanaraq qurudumuş ət**: qaqaç. bastırma. pastırma.

quruh **< qurqu**. quram. qurap. qopam. dəsdə. qural. qurap. qurup. quram quram: dəsdə dəsdə. qupam qupam. qopam qopam. qurap qurap. quruh quruh. orkom. öyköm. top. tudə. topar. aradaş. topar. bölək. ***1***. yarıq. yartım. **-** bir **yartım** boyun: bir quruh xalq. ***1***. qonat. ***1***. bölək. bölük. qombul. yığın. taqım. taxım. zümrə. firqə. ***1***. tim. takım. hey'ət. kumpani. taqım. tayfa. dəsdə. alay.

çoq. çuq. cuxə. **(< tuq**. **cuq**. **ciq)**. dəsdə. or. yığın. fovc. oymaq. **- oymaq bəyi**: quruh başçısı. **-** sofılar **takımı**. **- takımıca**: **takımınca**: heyə'ti ilə. həp birlikdə. kamilən. həpisi. təmamən. olduğu kimi. məcmuən. **-** onlar **takımı** ilə gəldilər. **-** bu **takım** qonaqlığa yerimiz olmaz. **-** av **takımımı** göndərin. **-** onun **takımı**: onun adamları. **- sokaq** takımı: çüçə adamı. aşağ el. **-** siz öz **takımınızla** gedin, məndə özümküynən. **-** evi yıxıq, **takımı** pozuq.

- quruh quruh: alay alay.

quruh **qurup.** ***1***. topum. kümə. kürtük. yığın. ***1***. taxım. tim. **- qarşı taxım**: tərəf muqabillər. ***1***. **> qafilə**. qapla. bağla. dəsdə. qol. yığnaq. qoşun. ləşgər. cəmaət. zümrə. ulam. topluluq. toplum. cəmiyyət. alay. bölük. dəsdə. cəmiyyət. barana. bağana. toplum. topluluq. cəmaat. **- quruh başı**: bölük başı. qolçu. qolbaşı.

quruhi quruhluq. birkişli. topluluq. toplanış.

quruhlaşmaq quruqlaşmaq. qurulaşmaq. toplaşmaq. yığışmaq. ənbükləşmək.

quruhluq quruhi. birkişli. topluluq. toplanış.

quruq ***1***. quru. boş. ıssısız. lüt. **- quruq ulma**: boş küzəc. **-** on qab **quruq**, iki qab doludu. **- quruq ev**: ***1***. içində kimsə

bulunmayan ev. ***1***. boş, yaraqsız, qoşsuz, moblımansız, vəsayilsiz ev **((**# **dolu**. doluq ev: yaraqlı qo. lı, vəsayilli ev**)**. ***1***. qarqaq. suyu çəkilmiş. bitgisiz quru qırlar. çöl. ***1***. qurlara, dərcələrə uyar, ta'be' üzüm, devlət. ***1***. başı boş. səfeh. ***1***. at yada öküz arabasında boyunduruğun taxıldlğı yer. **- quruq çüy**: qağında öküzün boyunduruğunun arabanın oxuna bağlayan civi. ***1***. ip. sırıq. şərit. **- əsgiləni yuvub quruqqa yayqandı**: paltarları yuğub ipə asmış. ***1***. dayaz çuxur. arxa. oynaş. ***1***. dərləmə. toplama. düzənləmə. ***1***. qoruq. qoru. qoruluq. park. ***1***. **qurum**. **(< qur**maq**)**. bağ. bağlı. xələt. ***1***. **(< qır**ıq: kəsik**)**. sırım. sırıq. sicim. qaytan. tel. orqan. yular. ip. ***1***. incə. nazik. ***1***. qıyı. sahil. adaq. ***1***. qurya. qaraba. xaraba. **(**# **qoraq)**. ***1***. yalnız. **- quruq başlı**: yalınbaş. yalnız. kəndi başına. tanqa. tənha. mücərrəd. ***1***. **qoratəbriz**. hər nəyin xamı. yemişlərin xamı. özəlliklə üzümün xamı, yaşılı, əkşisi. **- quruq** suyu: **qora** suyu. **- quralı** aş: **qora** aşı. **-** xurma **quruğu**. **-** zeytun **quruğu**.

- qaya quruğu: damda duvarda bitən bir bitgi. ***1***. kökük. tavıq. tovuq. götüş. qılış. səltənət. şişik. əzəmət. təkəbbür. ***1***. götrük. məfluc.

- quyruq soxumu: oca. uca. göütün üstündəki uclu olan sümük.

quruq **quruğ**. ***1***. **qurquş**. kərki. kərəki. görənək. fitrət. özgülük. özəllik. təbiət. alışqanlıq. adət. törə. ***1***. kölgə. örtgi. ***1***. qaq. qambır. qanbır. qaqbır. çapbır. çapqır. cılız. qıntıc. qıncıq. qıntın. çınğır. çınğız. çanğıc. arıq. ***1***. **qurluş**. **quruluş**. yapra. yapar. yapı. saxtar. ***1***. kuruki. ***1***. quruqluq. yapıq. yapıqlıq. qoyuq. qoyuqluq. darıq. dərik. tərh. ***1***. qurumuş. qaqıl. ***1***. sistim. **- hamonyada**, **çalqıları**, **bas səslərlə düzənləyən <u>quruq, sistim</u>**: qabadüzən. ***1***. yapuq. yasuq. duzaq. düzüq. düzmə. düzən. darıq. dərik. tərh. tələ. nəxşə.

- bir bölməni, **bölüyü**, **qolu quruğu**, **bir nərsiyə yapışdırmaq**: əkləmək.

- qarıqquruq: **- yeyilmə çağı ötmüş qarıqquruq nərsə**: qart. qat.

- qoyunun <u>quruğ</u> dışlığı, **pisgili**, **pisliyi**: qığ. qaqırdaq. qaqşaq. qağşaq. qığşaq.

- çatal quruqlu yırtıcı quş: çatlaq. çaylaq.

- qoyunun quruğu: örtmə. qapqaq. hörtmə. qoyunun dalısın örtən bölük.

- yələ ilə quruğu qara, **başqa yerləri qızıl al at**. doru.

- it itə buyurur, **itdə quruğuna**: hərkəs işi bir altındakına göndərir. yüksünən işi, başqa birisinə göndərmə.

quruqan **quruqanlı**. qanquru. ormun. orman. hobban. hovlu. hovlac. tovlu. bəğgin. hobban. köpük. kibirli. bəğgin. göbəç. göbəş. köpbüş. köpbərən. göbəkli. kombaq. kopaş gombul. qabarıq. qabaq. qapaz. kombaq. köpbərən. köpbüş. köpük. göbəkli. kibirli. bombaq. böyüklənən. çağaçı. yaxaçı. çalımçı. dolqun. dolu. doluq. geçgin. keçgin. apaz. qabaq. qabarıq. qapaz. qonbadaq. qonbadaq. qurqın. qurra. qaqanuz. qaqanoz. qaqqoz. qaqoz. qaqlaq. şişgin. şişirən. çişrən. yelli. qiyafəli. mütəkəbbir. məğrur: xodpəsənd. ifadəli.

quruqanlı **quruqan**. **qanquru**. ormun. orman. hobban. hovlu. hovlac. tovlu. bəğgin. hobban. köpük. kibirli. bəğgin. göbəç. göbəş. köpbüş. köpbərən. göbəkli. kombaq. kopaş gombul. qabarıq. qabaq. qapaz. kombaq. köpbərən. köpbüş. köpük. göbəkli. kibirli. bombaq. böyüklənən. çağaçı. yaxaçı. çalımçı. dolqun. dolu. doluq. geçgin. keçgin. apaz. qabaq. qabarıq. qapaz. qonbadaq. qonbadaq. qurqın. qurra. qaqanuz. qaqanoz. qaqqoz.

qaqoz. qaqlaq. şişgin. şişirən. çişrən. yelli. qiyafəli. mütəkəbbir. məğrur: xodpəsənd. ifadəli.

quruqcıq **qurqucıq**. quruhək.

quruqçın qurşun.

quruqçu geri qalan. başqaların tə'qib edən. quyruqçuluq.

quruqçuluq arxadan tə'qib edən.

quruqi **kuruki** (fars). **< quruq**. **qoruyucu**. **qorucu**. qalxan. kölgə. örtgi.

quruqjın qurşun. quşun.

quruqlamaq ***1***. qoruğlamaq. qilaflamaq. xəlfələmək. ***1***. qurutmaq.

quruqlamaq **quruğlamaq.** qoruğlamaq. xəlfələmək. qilaflamaq.

quruqlanmaq ***1***. quru bulmaq. ***1***. ökdəmlənmək. qururlanmaq. kibirlənmək.

quruqlaşmaq quruhlaşmaq. qurulaşmaq. toplaşmaq. yığışmaq. ənbükləşmək.

quruqlu **qudqur**. ***1***. quyruqlu. əğirəb **<** əğri. əğri quyruq. ***1***.

quruqluq qurluq. cehiz. ləvazim.

quruqluq quruq. yapıq. yapıqlıq. qoyuq. qoyuqluq. darıq. dərik. tərh.

quruqluq **quruşluq**. **quruşuq**. kullanışlıq. kullanışıq. kullayışlıq. işləyişlik. işləşik. toxayışlıq. toxuyuşluq. toxaşıq. toxuşuq. iç düzük. iş düzük. ustav. dəsturləməl. nizamnamə.

quruqmaq ***1***. qurumaq. ***1***. bir tərəfə gönülmək. könülmək. doğrulanmaq. hazırlamaq.

quruqmaq **quraqmaq**. **qurqarmaq**. **quymaqmaq**. **quyuqmaq**. **qoymuqmaq**. **qoyuqmaq**. qurquqmaq. pəkşirmək. bəkrişmək. pəkrişmək. bərkişmək. yoğunlaşmaq. yoğqunmaq. qalınlaşmaq. qalqınmaq. qəlizləşmək.

quruqmasızın qurumadan. tərlikən.

quruqsaq **qurqursaq**. ***1***. iç alat. mə'də. ***1***. quşlarda daşlıq.

quruqsay ***1***. **qurumsay**. quytu yer. quyu. dərə içi. iki dağ arası. ***1***. qurumuş, suyu çəkilmiş yer.

quruqsımaq qurumaya üz tutmaq.

quruqsuz yalançı. oğladsız. bəfasız.

quruqu örü əğərəb.

qurul ***1***. **gurul. gur. gür. gürül. güclü**. qocur. enli. enil. qaba. qalaba. qalba. qabal. qalab. qalıq. qalaq. qaqal. qalın. yoğun. yoğan. sağlam. böyük. böyküt. acıq. iti. sərt. ətli. şişik. dolu. doluq. dolqun. çaplı. çapıl. iri. ***1***. **gurul**. **guruc**. savaş. qırılan. qırlan. cədəl. ***1***. divan. ***1***. qonqalav.

qonqalağ. məclis. ***1***. qəfəsə. toxurcun **(< toxumaq)**. ***1***. heyə't. qonqalav. qonqalağ. məclis. **- yönətim qurul**: idarə heyə'ti. **- danışma qurulu**: şura heyə'ti. ***1***. orqan. qurultay. konqirə. **- baxanlar qurulu**: kabinə. heyə'ti vükəla. devlətin ən yüksək yeritmə orqanı. **- gənəl qurul**, **yığva**: imumi məcmə'. qurultay. konqirə.

- yasa qurulu. **yasal qurul**. **yasal qurul**: el evi. qonqalav. qonqalağ. qanun məclisi. milli məclis.

- gurul gurul: gur gur: gür gür: gürül gürül: kürül kürül: gurhagur. gürhagür.

- gurul gurul: fışır fışır. fış fış.

qurul **gurul**. ***1***. gurıl. gurultu. şamata. **- gurul gurul** su axmaq. **- xarıl gurul**: bolluqla, gurult ilə axan nərsənin səsin andıran səs. ***1***. yapıl. bina.

qurul toplantı. görüşüm. yönətim yeri.

qurulaq **qarulaq**. odun kimi quru, sərt nərsə.

qurulan **- qurulır ayqıt**: qurlaq.

qurulan

- açığlıqda qurulan taxma ev: qarev. qaröy. çadır.

- açığlıqda, **orduda**, **meydanda <u>qurulan</u> alaçıq**: aylaq.

- gənclərin davranış, tutumların <u>bəsləyib</u>, yönətmə üçün <u>qurulan qurum</u>: bəsic. izçi.

qurulan qurulqan. qızan. qağan. hirslənən.

qurulaşmaq quruhlaşmaq. toplaşmaq. yığışmaq. ənbükləşmək.

qurulay **quru**. boş. dəğərsiz. kövəz. yarısız. yararsız. **- qurulay qalmaq**: **quru qlmaq**. əli boş qalmaq. yoxsun, yoxsul mahrum qalmaq.

- qurulay qalmaq: əli boş qalmaq. bir nərsədən mərhrum olmaq.

quruldama **qurlama**.

quruldamaq qurlamaq.

qurulqan qurulan. qızan. qağan. hirslənən.

qurulma ***1***. düzənmə. düzəniş. təşgil olunma. iniqad. əqd edilmə. ***1***. **quruluş**. təşəggül. təşgilat.

qurulmaq **gurulmaq**. ***1***. savaşmaq. qaşqalaşmaq. qırışmaq. cədəlləşmək. ***1***. qurralanmaq. qaslanmaq. daşmırlanmaq. daşırlanmaq. qayırlanmaq. qaşırlanmaq. qaşmırlanmaq. nazlanmaq. pozlanmaq. böbürlənmək. qururlanmaq. qabarlanmaq. qabarlamaq. qabarmaq. xoruzlanmaq. birisinə qafa tutmaq. ***1***. dirkəşmək. dirkəmək. dikrəşmək. dikrəmək. dirsəlmək. ləm vermək.

dincliklə uzanmaq. ***1***. çatılmaq. yapılmaq.

- sıraş dirkəşdirmək: sıraş, səf qurmaq. pılanlanmaq.**- biri yönündən qurulmaq**, **pılanlanmaq**: başı altından çıxmaq. başlamaq. **-** dosluğuğuz haçan **başladı**.

qurulmaq **qurqulmaq**. ***1***. köpərmək. köpəlmək. şişmək. qurulanmaq. ***1***. urulmaq. yapılmaq. tikilmək. ***1***. ögəncmək. övəncmək. ögünmək. övünmək. özsevmək. xudpəsətlənmək. **-** iki söz öğrəndim diyə **qurulmamalı**. **- qurulub** şişinmək kişiyə yaraşmaz. ***1***. tə'sis olunmaq. ***1***. toplanmaq. ictima edmək. ***1***. qılıqlanıb ifadə ilə, təkəbbürlə keçib yığvanın başında oturmaq. ***1***. köklənmək. tavlanmaq. tovlanmaq. ***1***. qurralanmaq. qurlanmaq. mütəkəbbir olmaq. buğ **(**bıyıq**)** burmaq. ***1***. ərkəksinmək. böbürlənmək. çalım satmaq. omaq dart: çalım satmaq quralmaq. düzənlənmək. ***1***. dirçəlmək. hazırlanmaq. **-** qurulun gedək. ***1***. burulmaq. buruq buruq, büzük büzük olmaq. qat qat olmaq.

qurulmuş ***1***. çatıq. yapılmış. çatılmış. ***1***. dolmuş. dolu. hazır.

qurulmuş büklüm. bükülüm. hörülmüş. yasamişi. yapamışı. yapmışı. düzənlənmiş.

- qurulmuş çadır oturqu. oturaq. oba yeri. xeyməgah.

qurulşuq idarə. təşgilat.

qurultamaq **quruldamaq.** ***1***. xorlamaq. qoruldamaq. ***1***. vıraqlamaq. ***1***. anraşmaq. anqraşmaq. kükrəşmək. ***1***. gur diyə böyük səs çıxarmaq. ***1***. gürüldəmək. guruldamaq.çığnamaq. çığırmaq.

qurultav **quruldav**. xorultu.

qurultavuq **quruldavuq.** dəvamlı guruldayan. çox xorlayan.

qurultay **< qurmaq**. ***1***. toplantı. yığılış. çıylış. çıqlış. gənəl qurul. konqirə. divan. oturum gəpləşik. **-** dərnək **qurultay** qurdular. ***1***. məclisi şura. divan.

qurultay qurultu. qurul. konqirə. gənəlqurul. konqirə. gənəl qurul, yığva. imumi məcmə'. konqirə. şurayi ali. **- ayaq qurultay**: tə'cili iclas.

qurultu **gurultu**. ***1***. böyük, yoğun səs. **-** urmandan heyvanların **gurultusu** duyulurdu. **-** yel **gurultusu**. ***1***. qarışıq səslər. patırdı. şamata. vəlvələ. **-** cocuqların **gurultusu**. **- gurultu** patırdı dinləyəməm. ***1***. göy gurultusu. ıldırım. **-** külək qopdu göy **gurladı**. ***1***. qarışıqlıq. bəlva. bulağay. **-** işçilər arasında bir **gurultu** qopdu. **-** bu **gurultu** nədən ötürüdür. ***1***. şayiə'. **-** şəhərdə bir gurultu gəzirdi. ***1***. suntur. səntur. santur. şamata. patırtı. dəbdəbə. ***1***. taqatuqa. taqqatuq. vəlvələ.

1. gurul. gurıl. şamata. **- gurul gurul** su axmaq. **- xarıl gurul**: bolluqla, gurult ilə axan nərsənin səsin andıran səs. ***1***. gurultu.alan. patırtı. ***1***. gürültü. çıqırqu. çığırtı. vəlvələ. qürültü. şamata. patırtı. qovqa.

- hay gurultu: yayqara. bağırtı. şamata.

qurultu **gurultu. gürültü.** ***1***. qavat. qamat. çağat. qavqa. ***1***. **gurultu**. yayqara. çığ çiq. çınğır. çınqar. yayqara. çıq. çiq. yüksək səs. **- qarışıq**, **gurultu səs**: cığlıq. cığıltı. ***1***. qurultay.

- quru gurultu: avur zavur. hapır zapır. boş söz. ***1***. çığlıq. ***1***. qalğaqal. qalmaqal. qalbaqal. çalqaçal. ***1***. qarqaşalıq. qarqaşa. qatqaşa. qarışıqlıq. pozqunluq.

- gurultuya gedmək: **gurultuya gəlmək**: bir duzağa, düzəyə, qarışqlığa düşmək. **-** oda sənin **gurultuva getdi**.

- gurultulu iştahla yemək: hopurmaq. höpürmək. hapırmaq. aşırmaq. içəri ötürmək.

qurultu **gurultu**. **gürültü**. qasırtı. qağırtı.

qurultu **quruldu.** guruldu. henqamə (fars). **<** həngəmə. həngirti. şamata. qovğa.

qurultub **- qurultub**, **tüstülənmiş ərik**: **qeysi qaysı**. **(< qaysımaq**: bərkimək. qurumaq**)**.

qurultucu **gurultucu**. ***1***. **gurtuq**. **gurultuq**. **gurlayan**. **gürtüq**. **gürültüq**. **gürültücü**. **gürləyən**. iğrən. iğrək. iğrəqən. inğirək. inğirən. inğirəgən. inrək. inrən. inrəgən. anğıraq. anğıran. yanğıraq. yanğıran. yanğırqan. böğrək. böğrən. böğürən. böğürgən. bağıraq. bağıran. bağırqan. bağırtqan. çağırqan. çağırtqan. çığırqan. çığırtqan. carlayan. carıq. yayquracı. yayqaracı. nə'rəçi. nə'rə çəkən. ərbədəkeş. ***1***. **gürültücü**. qırıltıcı. hayküyçü. qavqaçı. qovqaçı. əli bayraqlı. qalayçı. qaraçı. yayqaraçı. haybıdırıqçı. şamataçı.

qurultuq **gurultuq**. **gurtuq**. **gurultucu**. **gurlayan**. **gürtüq**. **gürültüq**. **gürültücü**. **gürləyən**. iğrən. iğrək. iğrəqən. inğirək. inğirən. inğirəgən. inrək. inrən. inrəgən. anğıraq. anğıran. yanğıraq. yanğıran. yanğırqan. böğrək. böğrən. böğürən. böğürgən. bağıraq. bağıran. bağırqan. bağırtqan. çağırqan. çağırtqan. çığırqan. çığırtqan. yayquracı. yayqaracı. nə'rəçi. nə'rə çəkən. ərbədəkeş.

qurultulu

- çox gurultulu yer: it dərnəyi.

- suyun bol bol, **<u>gurultulu</u>**, **iti axma səsi**: çağış çağış. qaqış qaqış. qağış qağış. carıl carıl. şarıl şarıl.

qurultulu **gurultulu**. gütürdili. kütürdili. patırdılı. sunturli. sənturli. santurlı. şamatalı. patırtılı. dəbdəbəli. **-** çox **gütürdili** şəhərdir burası. **-** patırdılı **kütürdili** işlərdən bezaram.

qurultuluq **gurultuluq**. **gürültülük**. qalabalıq. qalaboluq. qalabolluq.

qurultusuz **gurultusuz**. **gürültüsüz**. səssiz səmirsiz.

qurultuynan **gurultuynan**. paldır küldür. taqqıldıynan. qarlanqop. **-** bu qocaman kütü **(**kündə**)** yerə **qarlanqop** atdı.

qurulu **qurlu (< qurulmaq)**. ***1***. özsevər. xudpəsənd. ***1***. qaqoq. kibirlli.

quruluq ***1***. arığlıq. zəiflik. **-** bu cocuğun **quruluğu**. ***1***. yibusət. xuşgiyyət. ***1***. qatılıq. yibusət. xuşgiyət.

quruluq cılızlıq. cırazlıq. işgillik. zayıflıq. **- nərsənin sərtliyin**, **quruluğun aparmaq**: yumşatmaq. öldürmək. sulatmaq. **- suda yumurtlayıb**, **quruluqda yaşayan qurbağa**: qara qurbağası.

qurulultama **gurululdama**. gurraş **(> ğorreş** $_{(fars)}$**)**. güpürdəmə.

qurulur **- ən böyük ümid**, **ümüdsüzlük <u>üstündə qurulur</u>**.

quruluş ***1***. cəm. toplum. topluluq. toplanma. toplama. dərnək. birlik. düzülüş. biçim. çəkil **(> şəkil)**. yapılış. qurum. ***1***. düzən. or. ***1***. qurum. im. yapılış. ***1***. köküş. tavlanış.

tovlanış. götürüş. qılınış. əzəmətli təkəbbürlü davranış. ***1***. qurum. müftəxərlik. **-** onun **qurumu** keçilməz.

quruluş ***1***. sistim. ***1***. tə'sisat. müəssisə. ***1***. ocaq. duraq. durcaq. durat. istasyon. istqah. ***1***. **qurluş**. ajans. ***1***. **qurluş**. **quruq**. **qurum**. yapra. yapar. yapı. saxtar. ***1***. yasım. yapım. saxtar.

quruluş **qurum**. **qurulma**. **quruş**. ***1***. təşgilat. ***1***. şirkət. ***1***. sistim. ***1***. alver quruluşu. kərmə. işlətmə. müəssisə. şirkət. ***1***. təşəggül. təşgilat. ***1***. qurum. yapım. yapılış. müəssisə.

- bir yerdə, quruluş yerində qoyulan yüksək yer: kürsü qatba.

- bir yönətimin, **idarənin**, **quruluşun gərəklərin satın alan görəvli**: qapı çuxaqul.

- <u>neçə quruluşun</u> qarşılmasından, **biləşməsindən oluşan böyük alver birliyi**: qartel. kartel. qartal. inhisar.

qurum ***1***. heyə't. ***1***. kürtük. yığın. yığva. qonqalav. qonqalağ. məclis. ***1***. topluluq. sazman. ***1***. qussə. qanı. qayğı. qayığ. ***1***. ğurur. böyüklük. ***1***. çağa. göstəriş. kökək. kökkək. kökələk. qurum. çalım. qiyafəli. etgili, gözə soxulan bir davranışda bulunmaq. ***1***. əncümən. ***1***. göstəriş. çalım. böyüklənmə. ***1***. güllə. qaldaşı. çaldaşı. ***1***. neçə boyalı

daş. **- yapı**, **qurum içindəki ara kəsit**, **duvar**: bölmə. ***1***. düzgə. dizgə. düzən. dizən. sistim. ***1***. quruluş. yapım. yapılış. müəssisə. ***1***. əğinbaş. əyinbaş. üstbaş. üsbaş. geygeçim. qiyafə. fiqur. çağa. yaxa. kökək. kökkək. kökələk. qurum. çalım. göstəriş. jest. əda. ***1***.dolab. dünya. **- hayla gələn**, **huyla gedər**. **bu <u>qurum</u> öylə gəlib**, **böylə gedər**. ***1***.düzəltim. düzətim. yapım. yasım. yasam. inşaat. yapı, saxtıman işləri. **-** gəmi **yapım**: inşaatı. ***1***.qartul. ***1***.qurduq. heybət. heykəl. yapıt. qapıt. bağaq. bükək. toxut. öğək. örək. hörək. durbağ. durşut. biçit. çıqqın **(< ciq)**. yükür. kürdə. gördə. kürüt. dayqın. əzəmət. şovkət. ***1***.**quruq**. **qurluş**. **quruluş**. yapra. yapar. yapı. saxtar. ***1***.məclis. qonqalav. qonqalağ. **- millət vəkillər məclisi**: el baxanlar qurumu. milli şura. ***1***.**quruluş**. **quruş**. alver quruluşu. kərmə. işlətmə. müəssisə. şirkət.

- başının taxcasında **qurumlar** qurdular.

- çiy, **yoğursu qurum**: xam xiyal: xam düş.

- bir istəklə, <u>bir qurumda</u> daşınıb düşünmək, hazırlanmaq: dərginmək. dərgişmək. toplunmaq. topluşmaq. kəmp yapmaq.

- bulaşıq, **<u>qara qurum</u> çapıtı**, **dəsmalı**: qardaç.

- qaraqurum: qalabalıq. sıx qarabalıq. sıxışıq. tünlük.

- pozuq, **fasid qurum**, **təşgilat**: qaraquruc. qaraquruş. qaraqurunc.

- topluma bilgi, **bilik daşıyan qurumlar**: el ilişgiləri.

- el baxanlar qurumu: qonqalav. qonqalağ. millət vəkillər məclisi. milli şura.

- topluma bilgi, **bilik daşıyan qurumlar**: el ilişgiləri. ittila' rəsaniye imumi.

- gənclərin davranış, tutumların bəsləyib, yönətmə üçün qurulan qurum: bəsic. izçi.

- xan qapısında sürəkli, **çabıq görəv yapan atlı qurum**: qapıqulu.

- qamu qurum: qonqalav. qonqalağ. milli məclis.

- qara qurum: qışlaq qurum.

qurum **qurun**. **qurqum**. ***1***. qaranlıqla aydınlıq arası. alaşafaq. **- engir qurumu**: axşamki alaca qaranlıq. **- danğ qurumu**: dan sökmədən öncəki aydınlıq. ***1***. osparlıq. kəndinə aşırı güvənmə. çalım. qasmıq. yanığ. yara bərə. qəliz. tünd. **- qurum betli**: qoyu rəngli. ***1***. çalın. his. tüstü. ***1***. tüsdünün, sisin, dumanın nərsədə buraxan isi, nişanı. ***1***. türkün. türkən. təşgilat. ***1***. bitöv, bir tikə daş. tikmədaş. bitikdaş. bitikqaya. təxtəsəng. ***1***. lovhə. **- qurumlu dağ**: daşlı qəyəli

dağ. ***1***. qaya. ***1***. mal davarın, hər nəsənin toplusu, bollusu. ***1***. təpəcik. topraq birikimi. ***1***. quram. quruluş. yaradılış. qonaqlıq. yığıncaq. yığım. dərnək. ***1***. toy. düğün. ***1***. biçim. çəkil **(>** şəkil**)**. yapılış. ***1***. quruluş. bünyə. yapı. yapılış. müəssisə. ***1***. qalın, qəliz his. qonqur. qoyuy. tünd boya. düd **(**tüt**)**. his. **- qurum betli**: tüt rəngli. ***1***. paralardan oluşa tüm. ***1***. üzüm dənəsi. qujum. qumçə **>** qunçə. ***1***. **kurum**. sərt. bərk. ***1***. çalım. göstəri. qurur. qabar. kibar. qasıl. **qurum satmaq**: böyüklənmək. qurunmaq. böyüklənmək. böbürlənmək. böyüklənmək. təkəbbür. ***1***. alaqaranlıq. **-** danğ **qurum**: dan çağı alaqaralıq. **-** engir **qurum**: axşam qaralığı. ***1***. quruluş. düzən. düzənləmə. ***1***. çalım. jest. ***1***. qaya parçası. ***1***. figür. dans. buruq. ildik. caqa. çalım. ***1***. göstəriş. ***1***. bina. təsis. binövrə. rükn. vəz'. **-** çadırın **qurum**. **-** küşgün **qurumu**. **-** yapının **qurumu**. ***1***. yaradlış. yaradılış. xilqət. afəriniş. **-** dünya **qurumundan** bəri. dünyanın **qurum** sorusu. **-** göylərin **qurumu**. ***1***. biçik. licim. çəkil. şəkil. hey'ət. **-** o **qurumda** çıxmaq olmaz. **-** bu nə **qurudu** belə. ***1***. quruluş. müftəxərlik. **-** onun **qurumu** keçilməz. ***1***. çadır, ordu yeri. orduqah. xeyməqah. **- qara qurum**: çəngiz xanın dincək ordugası. ***1***.

ocağa qonmuş qalın his. **-** ocaq **qurumu**. **-** evi **qurum** basmış. **- qurum** boya.

- qurum boyası: is qarası.

quruma **- yaş ağacı, kökünə yaxın qabığın soymaqla qurumasına yol açmaq**: axarlamaq. axarramaq. axarlatmaq.

qurumaq ***1***. arıqlamaq. duruqlamaq. zayıflamaq. ***1***. qadıtmaq. qadırmaq. **-** donluqda **qadırmayasan**. ***1***. qaqraşmaq. azalmaq. suyun çəkilməsi. ***1***. qatılmaq**.** qat olmaq. **-** dilim ağzımda **qatdı**: qurudu. ***1***. topramaq. ***1***. götrükmək. fələc olmaq. **-** əlin ayağın, dilin **qurusun**. **- qan qurumaq**: çox sıxılmaq, incimək. ***1***. suyu axınmaq. **-** qaldığın yerdə **qurudum**. ***1***. qaqamaq. qaqalmaq. qaqaçlanmaq. qatılaşmaq. buruşmaq. cılızlaşmaq. çalınqmaq. sarıqmaq. üyşmək. yığnamaq. qavrılmaq. verimsizləşmək. fələc olmaq. ***1***. yox olmaq. əsgilmək. **-** nələr gəldi, nələr **qurudu**. **-** üzün **qurusun**. **- qurumuyan** yaş olmaz, qutulmuyan söz olmaz. **-** quruldusa, **quruyar**. **- quruyanda** var, qurulanda. ***1***. quruqa düşmək. kic qalmaq. kicəlmək. ***1***. qaqşalamaq. qaşqamaq. qaqşamaq. qaq kimi olmaq. quruqmaq. ***1***. qurqaqsımaq. quraqlaşmaq. kəbmək. yox olmaq. əksilmək. quvarılmaq. sararmaq.

solmaq. tunçuqmaq. sararmaq. qəbçimək.

- bərk qurumaq: quraqdan quraqlamaq.

- sıcaqdan **qurumaq**: **təbsirmək**. **tapsırmaq**. **tabsırmaq**.

- əsgilər quruqandılar: paltarlar qurumuş.

- anı açqası qurumaydı: onun parası əksik olmaz.

- ol adət duniyadan quruqandı: o adət dünyadan yox olmuş.

qurumaq ***1***. dəbsərmək. təpsərmək. ***1***. çəkilmək. **-** qanı **çəkildi**. ***1***. cılızlaşmaq. cırazlaşmaq. işgəlmək. zayıflaşmaq. ***1***. qaqırdamaq. qaqılcımaq.

- boğazı qurumaq: susamaq.

- dil damağı qurumaq: çox susamaq.

- quruyub qalmaq: qaqıldanmaq. qapıldanmaq. özün itirmək. alas qopasa düşmək. ələm taslanmaq. çaşmaq.

- ağacın qurumağa başlamış dalları: qaracaq.

- ağacın qabığın yeyib, qurumasına yol açan qurdcuq: qabıq böcəyi. qabıq qurdu.

- qanı qurumaq: çox sinirlənmək.

- qanını qurumaq: aşırıca bezmək, qızmaq.

qurumamış **- iyi qurumamış**, **bəğənilmyən tütün** qara yaşıl.

qurumatan **qurumadan.** quruqmasızın. tərlikən.

qurumb **gurumb**. günğ. qonğ.

qurumçu düzətimçi. yapımçı. yapıçı. yasımçı. yasamçı. inşaatçı.

qurumlanmaq hoqaylanmaq. qoqaylanmaq. qabarmaq.

qurumlanmaq qurralanmaq. çalım atmaq, satmaq. çalımçılanmaq. çalımlanmaq. çağalanmaq. çağa yaxa satmaq. foslanmaq. tovlanmaq. kibirlənmək. böyüklənmək. ifadə, qiyafə satmaqla, tutmaqla, kənidini başqalarından ayrılmaq, sıyrılmaq.

soyqun **(< soyunmaq**. **savurmaq)** ***1*****.** savqa**.** soyqa**.** soyutu**.** soyulan nərsələr**.** savılan peylər**.** ***1*****.** yağma**.** axdarma**.** talan**.** donav**. (**vurub alma**.** çapıp alma**).** alıntı**.** çapıl**.** qapma**.** qəsb**.** qənimət**.** miras**.** ***1***. soyub, lütləyib yığmaq. yağma. yığıb toplayan. ***1***. talavul. dalavul. talavur. yağma. çapul.

soyqun **soyğun**. ***1***. soyma. soyunma. qəsb. səlb. **- soyğun vermək**: soyulnmaq. qəsb olunmaq. ***1***. **- yığva**, **düğün**, **toy soyğunları**: yüngül paltarda olub ortalığda olan qulluqçular.

soyqunçılıq basqınçılıq**.** yağmaçılıq**.** çapılçılıq**.**

soyqunçu alaman. artlaman. qaraqçı. qaltaman. qaraman. yol kəsici. yol kəsən. oğru.

soyqunçu qəfənçi.

soyqunçu **soyucu**. yalınqaçquçi. yalanqaçquçi. çıplaquci.

soyqunçu talavruçu. talavçu. yağmaçı.

soyqunçu yol qıran: yol kəsən. qaraman.

soyqunluq **soyğunluq**. yüngül paltarda olmaq. yığva, düğün, toyda, yüngül paltarda olub ortalığda qulluq edənin görnüşü.

soyqutmaq çapmaq. çalmaq.

soyla topuz**.** çomaq.

soylamaq ***1*****.** ulaltmaq**.** alqışlamaq**.** təbrikləmək**.** saylamaq**.** hörmətləmək**. - soylaqa** dəğər kişilər**. -** alqışlayım **soylayıb. - söylədiər** soyladılar**.** ***1*****.** soyuna dibinə gedmək**.** soruşmaq**.** araşdırmaq**.** təhqiq edmək.

soylamış ***1*****.** soyunu çoğaltıp, qutsayan, hörgütləyən**.** ***1*****.** söz**.** söyləyən**.** qonuşan**.** xətib**.**

soylanmaq ***1***. yatmaq. uzanmaq. ***1***. ölmək. yoxalmaq. **- sırtından soylanmaq**: sırt üstü uzanmaq**.** **- soylanıb tüşmək**: yerə sərilmək**.**

soylantırmaq **soylandırmaq.** ***1***. yatırmaq. uzatmaq. devirmək. yıxmaq. ***1***. öldürmək. yox edmək. məhv edmək.

soylaşmaq sıvışmaq**.** sülünmək**.** sürünərək gedmək.

soylı **soylu**. doğuşlu. cis. nəcib. nəcabətli. əsil.

soylu ***1***. **soplu**. şərafətli. şərafətmənd. azadə. əsil. nəcib. **- soylu soplu**: xoş nəsəb. həsib. əsl nəsəbli. ***1***. durkök. qalın kök. ***1***. aristoqrat. ***1***. nəcib. ***1***. tölək. dölək. iffətli. namuslu. **- soylu soplu**: xoş nəsəb. həsib. əsl nəsəbli.

- lap soylu: **lap əsil**. qatı.

- soylu, **yürük at**: soy at. qaraqoç.

soylu ***1***.soysal**.** soydam**.** soyunu düşünən**.** ***1*****.** xan soyundan gələn**.** ***1***.özbir**.** özdəl**.** özlü**.** əsil**.** asalət yiyəsi**.*****1*****.** öğəli. öğdəm. kökləm. kökdəm.uruqlu**.** cis. ***1***. nəcib. ***1***. özdən. əsilzadə. zadəqan. ***1***. soyuq. toqluşluq. toğluşluq. doğluşluq. toğuşluq. nəcabət. əsalət. kərimüttəb. səid. nəcabət. cis.

soylu soyağ. soyu təmiz. ağ gəmik.əşraf. nəcib.

soyluca şərafətli.

soyluq şəcərənamə.

soylular zadəqan.

soyluluq ***1***. şərəf**.** onur**.** tərim**.** dərim**. - soyluluq adı**: tərqən**.** dərkən. ***1***. özdənlik. əsilzadəlik. zadəqanlığ. özdənlik. əsilzadəlik. zadəqanlığ.

soyluluq **sopluluq**. köklülük. arılıq. əsalət. nəcabət.

soyma ayırma. təcrid.

soyma xəl'.

soyma soyğun. soyunma. qəsb. səlb.

soyma soyqırım**.** qırım**.** kəsmə**.** qabıqlama**.** yüzmə**.** sıyru**.** sıdıru**.** silmə**.** gərmə.

soymaç çıplaq.

soymaq ***1***. boşamaq. xəl' edmək. ***1***. soyundurmaq. yalınlatmaq. çıplatmaq. sadələtmək. lütlətmək. ***1***. almaq. **- dərisin soymaq**: qabığın almaq.***1***. ayırmaq. kavallamaq. kovallamaq. kövülləmək. kağallamaq. koğallamaq. köğülləmək. kövmək.

soymaq **soğmaq.** ***1***. savmaq**.** savurmaq**.** soğurmaq**.** siyirmək**.** üzmək. ***1***. çıxarmaq. üsmək. üzmək. qoparmaq. ayırmaq. qabıqlamaq. yağmalamaq. ***1***. dərisini yüzmək. ***1***. öldürmək. ***1***. kəsmək. tonalamaq. yağmalamaq. yağma edmək. talamaq. dalamaq. **- soyub qablaqanca**: çox bənzəyən**.** pıq demiş burnundan düşmüş**.** ***1***. yonmaq. yontmaq. təmizləmək. ***1***. deşmək. çözmək. **- gömləyin deşmək**: gömləğin çıxarmaq**.** ***1***. səvritmək. boşaltmaq. ***1***. dəri üzmək. ***1***. qunmaq. çalmaq. yalınlamaq. yalınğlamaq. lütləmək. yolmaq. varını qəsb edmək. **-** çırtmadan, **soymaqdan** çıxan nərsələr: kərtmə**.**

- soğruldu qılınclar.

- yazığı **yoldular.**

- qonağa qoy soymaq: qonaqe qoyun kəsmək**.**

- aldatıb soymaq: tolandırmaq. dolandırmaq. aşırıb məğbun

edmək. **-** çoxları **dolandırmağla** keçinir. **-** ondan on tümən **dolandırmış**.

- soyub soğana döndərmək: var yoxun almaq.

soymantı **soymandı**. ***1***. xiyar, qoğun kimi soyulub yeyilən nərsələr. ***1***. xiyar, qoğun kimi yemişlərin qabuqları. ***1***. sopa**.** dəğnək**.** çəlik**.** asa**.** toyqa**.** çiyindən dirsəgə dək çomaq.

soymuq ***1***. düdük. uğraş. məşquliyyət. ***1***. əmilməli dadlı nərsə.

- qabığın soymaq: qarqlamaq. qanıqlamaq.

- yaş ağacı, kökünə yaxın qabığın soymaqla qurumasına yol açmaq: axarlamaq. axarramaq. axarlatmaq.

soymuq çam ağacının iç qabuğu.

soynaq soyunma otağı.

soypuq **> sopuq**. soyulmuş. kovlaq.

soysuqmaq soyuqmaq. soyquna uğramaq.

soysuz ***1***. çevrimsiz. çevrişsiz. törəsiz. əxlaqsız. dəni'. ***1***. mayası pozuq. yaradılışdan pozuq. sütsüz. yaman. xəbis. ***1***. əsilsiz. köksüz. dibsiz. təməlsiz. ***1***. soyu, dölü pozuq. azmurta **(< azmış yumurta)**. ***1***. bij bic. azığ. zinazadə. ***1***. qanı pozuq. əxlaqsız. ***1***. sopsuz. pozuqqanlı. qanıpozuq. qırıqsoy. qırıqqan. qanıqırıq. qaraqanlı. şərafətsiz. şərəfsiz. ağsöyək, əşraf, nəcib, nəcibzadə olmayan.

soysuz irumayə. bədəsl.

soysuz yandıq. yanığ. soysuz. köksüz. qarışığı, yandan olan. qatıqlı. qatqılı.

soytam **soydam. *1*.** soylu**.** soyunu düşünən**. *1*.** ailəsinə bağlı**.** yuvasına bağlı**.**

soytan **soydan. *1*.** soylu**.** soylu bir ailədən gələn**. *1*.** elçin**.** xanidan**. *1*.** özxanidan. özxanidan elçin.

soytar **soytarı.** çuşqa. daşqa. çaşqa. qaşqa. qaşmar. qaçmar. çağmar. çaxmar. hər kəsə gülünc, alay olan kimsə. saklaban. komik. məsxərə. məsqərə.

soytar şaqlaban. hər qılığa girən kişi. qılıqçı. qıltaban.

soytarı dəlqək. dəğişik paltarda, qılığda olub eli əğləndirən.

soytarı **soytar.** çuşqa. daşqa. çaşqa. qaşqa. qaşmar. qaçmar. çağmar. çaxmar. hər kəsə gülünc, alay olan kimsə. saklaban. dəlqəh. komik. məsxərə. məsqərə.

soytarılıq ***1***. dəlqəklik. məsxərəlik. ***1***. şaqlabanlıq. hər qılığa girən kişinin davranışı. qılıqçılıq. qıltabanlıq.

soytarılıq **soytarlıq.** alaylıq. ələlək. qaragözlük. şaklabanlıq. gülünclük. dəlqəhlik. saklabanlıq. qaçmarlıq. qaşmarlıq. çağmarlıq. çaxmarlıq. komiklik. məsqərə. məsqərəlik. məsqərəlik. məsqərəbazlıq. məsqərəçilik. məsxərəlik.

məsxərəçilik.

- elə, hamıya **ələlək** olduğ.

soytaş **soydaş**. **sapdaş**. kökəş **<** kökdəş. ırqış **<** ırqıdaş. ırqışıt. tördəş. türdəş. cürdəş. bağdaşmaz. qandaş bir soydan olan. birkimi. birçin. həmnəjad. həmcins. mütəcanis.

soytaş **soydaş.** aynı soydan gələn**.** aynı soyun kişiləri**.**

soytaşlıq **soydaşlıq**. qandaşlıq. soy bilrliyi.

soyturmaq **soydurmaq.** sıdırtmaq. yüzdürmək. deşdirmək. çözdürmək. yondurmaq. yontturmaq. təmizlətmək.

soyu **< sozu.** uzun sivri diş**.** köpək**.** domuz diş.

soyucu ***1***. oğru. hırsız. hərami. ***1***. **soyqunçu**. yalınqaçquçi. yalanqaçquçi. çıplaquci.

soyuq ***1***. savaq. **(** **<** günün **sav**rulan, **soy**ulan yeri**)**. batı. **- soyux dəğmə**: uçuq. uçquq. ingi. tumağu. ***1*****.** soylu. toqluşluq. toğluşluq. doğluşluq. toğuşluq. nəcabət. əsalət. kərimüttəb. səid. nəcabət. cis. ***1*****.** salqan. sərin.

- başdan soyuq sular tökülmək: əriyib su olmaq. **-** elə bir söz söylədi ki başımdan soyuq sular töküldü.

- qoca qarı soyuğu: mart ayının sonunda düşən soyuq.

- soyux dəğmə: tomağı. zükam.

- başı soyuq: qeydsiz**.** ilişiksiz**.-** çox **ilişiksizin** biridir**.**

- başı soyuq: yaldızçı**.** yalandan işçi**.** üstün görü işləyən**.** üstün gör işləyən**.** göz boyaçı**.** solayçı**.** qolayçı**.**

- soyuq çəkmək: qış yemək**.**

- quru soyuq: ayaz**.**

- qoca qarı soyuğu: kəsən soyuq**.**

soyuq **soğuq**. **- soğuq alma**: soğuq dəğmə.

soyuq **soğuq**. **söğük**. ***1***.şaxda. **- (**şaxdadan. soğuqdan**) iti quyruğundan bağlasan**, **çöldə dayanmaz**. ***1***.donuq. odsuz. sönük. durqun. oturuq. yatqın. yanız. yanğsız. yaxsız. cansız. quru. təpgisiz. gərimsiz. həyəcansız. çökük. ***1***.salqın. ***1***. sönük. dingin. küf. köf. yüngül. açıq. **-küf** boya.

- uzun soyuq yaraq: qılıc.

- çox soyuq. **soğuq**: buz kəsilmək. buz kimi. **- başı soyuq**: boş tutan. qanı soyuq. xunsərd. yüngül. dəğərsizin **(**dəğər verməzin**)**. dalqaçı. soyuq duran, oturan.

- isti soyuq: aşılı.

- isti soyuq edmək: aşılamaq.

- kəsgin soyuq: qocaqarı soyuğu.

- qanı soyuq: **başı soyuq**: xunsərd.

- qışa, **soyuğa**, **şaxdaya dayanıqlı yemiş**: qarcıq yemiş.

- soğuqdan kırıxmış, **qısılmış olan**: qarıq.

- soluq, qansız, soyuq üzlü: kədu.

- soyuq su içmək: çalva **(**halva**)** yemək: aş içmək: kötü bir duruma düşmək.

- çox soğuq: diş taqqıldatan şaxda.

- qanı soyuq: qatı. xunsərd.

- qara soğuq: qara, çapıq soğuq.

- güneybatıdan əsən soğuq yel: qaraçam.

- qışa, **soyuğa dayanıqlı sərt buğda**: qarabaş.

- quzeybatıdan əsən, **gənəlliklə soğuq**, **gahdan fırtınalı**, **yağmır qar gətirən yel**: qara yel. **(# kəşişləmə**: güneydoğudan əsən yel**)**.

- başaqları qara qılçıqlı, **sərt**, **qırmızı**, **ya da ağ dənəli**, **soyuğa dayanıqlı buğda**: qaraqılçıq.

- güzün soyuğunda açan çiçək çeşiti: qarçiçəyi.

- soyuğa, **sıcağa dözümlü kimsə**: qaragöynük.

- soğuq almaq: **soyuq dəğmək** ayaz almaq. ayazlamaq.

- soyuğa alınmaq: soyuğ **almaq**, dəğmək.

soyuq **- soyuğa vurulmaq.** soyux dəymək**. soyuq dəymək**: almaq**.** vurmaq**.**

- soyuq gün: qay**.** tutqun**.** qasırqalı**.** soyuq**.** dərmansız**.** gəvşək.

soyuqqanlı **soğuqqanlı**.qanısoğuq.

soyuqlamaq ***1.*** soqumaq. soğumaq. soyumaq. ara açılmaq. **-** bir birindən **soğudular**. ***1.*** soyuq dəğmək. soyuq almaq.

soyuqlanmaq **suyuqlanmaq.** ***1***. **suyunlamaq. suyunlanmaq. suyuqlanmaq.** duzsuzlanmaq**.** dadı boyası, içi qaçmaq, boşalmaq**.** dadsızlanmaq**.** ***1***. tatsızlanmaq. dadsızlanmaq. duzsuzlanmaq. ləzzətsizlənmək. tamsızlanmaq.

soyuqluq **- aradakı soğuqluqlar qalxınmaq**. ilişgilər iyiləşmək. buzlar çözülmək, açılmaq.

- başısoyuqluq: ilgisizlik. bağımsızlıq. bağsızlıq. boluğsuzluq. bolğusuzluq. la qeydlik. qeydsizlik.

soyuqluq **suyuqlıq**. dadsızlıq. tatsızlıq. dadsızlıq. namətbu'luq. tamsızlıq. duzsuzluq.

soyuqmaq soyulmaq. soysuqa düşmək. **-** dağ yolunda, **soyqunçular soyuqdular** bizi**.**

soyuqtəqmə kəsəklə. nəzlə. qirib. salım**.** salqın, soyuqdan gələn xəstəlik**.**

soyul **- soyul**, **ırqıl baxımından aralarında bağlantı olma**: qan bağı.

qardaşqanı.

soyul soylu**.** kübar **(< kop).** böyük**.** alıs **(< > asıl).** kişizadə**.** əşraf.

soyulan **- soyulan qab**, **qabığ**: kav. **-** ilan **kavı**.

soyulğan kələr. kərtənkələr. kəstənkələ. kəltəkələr. yaşılbaş.

soyulmaq ***1***. ayıqlanmaq. üzülmək. yüzülmək. ***1***. çalınmaq. ***1***. çıxarılmaq. ***1.*** soyuqunmaq. açılmaq. dağılmaq. ***1.*** soyuqmaq. soysuquna düşmək. **-** dağ yolunda, **soyqunçular soyuqdular** bizi**.** ***1***. yağmalanmaq. tonalmaq. yonulmaq. yontulmaq. təmizlənmək.

soyulmaq ***1***. uğranmaq. çalınmaq. çırpınmaq. vurulmaq. ***1***. soyunmaq. savurunmaq. çıxarmaq. tökünmək. üztündəkin tökmək. **-** paltarıvı **tökün**, dinc otur. **- soyunub tökünmək**.

soyulmuş ***1***. dərisi soyulmuş heyvan. söküş. kovlaq. ***1***. sopuq. soypuq. kovlaq.

soyulmuş ***1***. tüksüz. cascavlaq. yavalaq. örtüsüz. çıplaq. ***1***. qoğulmuş. düşrülmüş. məxlu'. ***1***. qabırlaq. qabırsaq. qabığlanmış. açılmış.

- qabığı soyulmuş quru ağac: ağbuynuz.

- soyulmuş qabıq: kavalaq. kovalaq. qabalaq.

soyum **- boyum soyum qurusun**, **mən çəkilməm**, **çəkərim**: mən qaçmaram, dözərim.

soyum kəsiləcək heyvan.

soyumaq **- buz kimi soyumaq**, **soğumaq**: küsmək. gücənmək. **- çox soğumaq**, **soyumaq**: buz kəsilmək.

soyumluq kəsim heyvanı.

soyun **(** qarqış sözü**)**: **- boyun soyun qurusun**.

soyunma **- soyunub**, **geyinmə bölümü**: hamam gəpəz.

soyunma ***1***. boşanma. çıplaşma. təcərrüd. ***1***. soyğun. soyma. qəsb. səlb.

soyunma ayrılma. **- qozun**, **cəvizin qabığından ayrılma**, **soyunma çağı**: kağal. kaval.

- soyunma otağı: soynaq.

soyunmaq **< > savunmaq. < > soğ**unmaq. ***1***. qımıcalanmaq. çıplaq qalmaq. yalanlanmaq. yalınlanmaq. açılmaq. deşinmək**.** çıxarmaq. yengilləmək. ***1***. quşaq atmaq. dincəlmək. ***1***. soğunmaq. yalınmaq. əmrülmək. dincəlmək. arınmaq. rahatlanmaq. ***1***. soqurmaq. sovurmaq.

- soyunub tökünmək: dincəlmək üçün yüngül paltara taxınmaq.

soyunmaq ***1***. kaval olmaq. qavaqlanmaq. qavallanmaq. qabığlanmaq. qabığından olmaq. ***1***. soyulmaq. savurunmaq. çıxarmaq. tökünmək. üztündəkin tökmək. **-** paltarıvı **tökün**, dinc otur. **- soyunub tökünmək**.

soyunmalıq paltar dəğişmənlik. paltar dəğişmə yeri.

soyunmuş çıplaq.

soyuntu qabuq.

soyunturmaq **soyundurmaq**. soymaq. yalınlatmaq. çıplatmaq. sadələtmək. lütlətmək.

soyunu qurutmaq artın edmək. öldürüb bitirmək.

soyunuqluq qımıcalıq. çıplaqlıq.

soyurğalan sovğat**. -** sovğatlamaq: **soyurğamaq.**

soyurqal **soyurqat. *1*.** ödül**.** savaş ödülü**.** midal**.** nişan**. *1*.** ərməğan**.** bağış**.** ihsan**. *1*.** fərman**.** maafiyət**.** vergidən maaf tutan bəlgə. ***1***. savurqal. başış. bəxşiş. ikram. ehsan.

soyurqamaq savurqamaq. bağışlamaq. bəxşiş edmək. ikram edmək. ehsan lütf edmək.

soyurqat **soyurqal.** ehsan**.** bağış**.** ərməğan**.**

soyuşmaq ***1***. kəsmək. ***1***. qunuşmaq. çalğışmaq. ***1***. soymaq. qücəşmək. yağmaşmaq.

soyuşuv qırqın. qətliam.

soyut ***1***. mücərrəd. qopuq. qopqun. qapanıq. alışmaz. bağdaşmaz. büktürü. çəkili. çəkişgin. çəkik. çəkgin. dirlişiksiz. gizik. içədönük. içədönüş. içəqapanıq. içəqapanış. keçimsiz. keçiniksiz. kərik **(< kərmək**. **kəsmək)**. küncənik. qaynaşmaz. qırağsın. qıranlanıq. qırıq. sinik. uyuşmaz. yalnız. yalsın. yalzın. quşəgir. imtizacsız. münzəvi. ***1***. təcrid. abstırə.

soyut boydax**.** subay**.** tək**.** yalnız**.** münfərid**.** mücerred**.**

soyutlama təcrd edmə. münzəvi edmə.

soyutlamaq mücərrədd edmək. münzəvi edmək.

soyutlanma təcrrüd. inziva.

soyutmaq **- birini birindən soğutmaq**: **(**büyü ilə, pisləməklə**)**. birini birinin gözündən salmaq. xor göstərmək. xorlamaq. korlamaq. qaratmaq. qaraltmaq.

soyuz birgə**.** vahid**.**

sozaq ***1***. sozuq. solpuq. solmuş. solqun. soluq. saluq. parsud. pülə. münfəsix. pürük. lafa. tirit. ***1***. yavaş**.** yumşaq.

sozalamaq **alızlamaq**. ***1***. ipiləmək. az ışıqla yanmaq. ***1***. kəsəlləmək. xəstələnmək. naxoşlamaq.

sozalmaq çözəmək. közəmək. qussələnmək. qayğılanmaq.

sozamaq uzatmaq.

- bolcanı sozamaq: və'dəni uzatmaq**.**

- genğinə sozamaq: enləməsinə uzatmaq**.**

- köbgə sozamaq: sürümcədə bıraqmaq**.** artıq uzatmaq**.**

- uzağa sozamaq: uzağa atmaq**.**

- uzununa sozmaq: uzunlamasına uzatmaq**.**

sozarmaq ***1***. sazarmaq. soluqlaşmaq. donuq rəng almaq. ***1***. soluqmaq. solpımaq. pürsümək. sozulmaq.

sozbet sazbet. soluq bənizli. bənzi solmuş.

sozqur süzgür. uzun. up zun.

sozma **suzma**. **uzma**. ***1***. əsnsək. uzanan. ***1***. bəcəriksiz. ağır qanlılıq.

- sozma bışlaq bişirgən: qartof, peynirlə yapılan bir yemək**.**

sozmaq çəkəmək**.** uzanmaq**. -** uzağa **sozan** sözlər**.**

sozturmaq **sozdurmaq.** uzattırmaq.

sozu uzun. suzan. süzən. uzanan. **- eşək sozub oquydu**: eşək uzun uzun anğırırdı.

sozuq **sozuğ**. ***1***. sazan **(> saz)**. qamış. ney. tüfək lüləlisi.

- baldırqan sozuq: **baldırqan** qamışı**.** ***1***. sozaq. solpuq. solmuş. solqun. soluq. saluq. parsud. pülə. münfəsix. pürük. lafa. tirit.

- sozuq soxmaq: qamış çalmaq**.**

- iki sozuğlu işqoq: cütə**.** av tüfəği**.**

sozuq **süzük**. ***1***. yəksanaq. təksanaq. təkdüzə. təkiz. ***1***. ağır. yavaş. ***1***. uzun. uzamış. ***1***. yapışqan. ağdalı. ***1***. taza**.** təmiz. ***1***. yeksanaq. təksanaq. təkdüzə. təkiz. ağır. yavaş.

- sozuq maqam: ağır melodi**.**

- sozuq avaz: təkdüzə səs**.**

sozuq yəksanaq. təksanaq. təqdüzə. təkdüzə. təkiz.

sozulma uzun. əsnək. yaıpşqan.

- sozulma yoğur: uzayabilən xəmir**.** yapışqan xəmir**.**

sozulmaq ***1***. soluqmaq. solpımaq. pürsümək. sozarmaq. ***1***. uzamaq.

söbə soba. söbü. beyzi.

söbə söbək**.** söbü**.** söbəki**.** beyzi**.** oval**.** yumurta biçimi**. -**

söbicə söbicə: yumru yumru.

söbəq **söbək**. dəğirman baltası**.** iğ ki dəğirman onun üzərində dönür.

söbələmək yurulamaq**.**

söbi **subı.** kəlləsi uzun, sivri, iti, dik nərs **(**yapıq yuvarlaq olmayan**). - söbi** dağ: savalan**. - söbi** baş**.**

söbımaq söbüləşmək. uzamaq. incəlmək.

söbü ***1***. qonus. dibi dar ağzı gen biçim. ***1***. salxıq üz.

söbü soba. söbə. beyzi.

söbüq **söbük**. ökcənin yuxarısı**.** dəyirman oxu.

söbüləşmək sobımaq. uzamaq. incəlmək.

söbütmək subıtmaq. suvarmaq. sivriltmək. ititmək.

söhbət edmək uşaqlamaq. qonuşmaq.

söq ***1***. **söğ**. **- öz işivi özün gör**, **acıqlansan**, **özün söğ**. ***1***. **sök**. **suq**. yas. matəm. əza. tə'ziyə.

söq **sök. *1*.** çimən**.** çim**. *1*.** qabıqlaq darı**. *1*.** ölü**.** ölük**. *1*. > köç. küs**. ***1***. **sög**. qabığı alınmış burcaq, hibubat. dərd. ələm. ağrı.

söqə **söğə. soykə. *1*.** uzanan**.** davamı olan**.** uzun**.** iti**.** biz**.** yumru olmayan**.** dik**.** sivri**. *1*.** qapının üstündə dayandığı oxlar**. *1*.** diz üstü çöküş**.** çökmə**. *1*.** dayaq**. -** sökə **(**dayaq**)** daşların direklərin üzərinə oturtmalı**. *1*.** həşti. oyuq**. *1*.** sökə.

tobix. atış. sərzəniş. ***1***. **çökə**. çökmək işi. **- sökə durmaq**: diz üstü oturmaq**.** diz üstü çökmək**.**

- söqə durmaq: sövə sövə durmaq**.**

söqəq **sökək soxaq.** türklərin farslara verən adı.

söqəq **sökək**. əkin xəstəlikləridən.

söqəl **sökəl. (< sökül**müş **< sök**mək**) *1***. söğülmüş**.** sayru**.** yaruq**.** xəsdə**. - sökəl** tülkü**.** saqat **(<** metatez **>)** xəstə**.** gücsüz**.** xəstə**.** sökəlik: xəstəlik. ***1***. cansız. yansız. zayıf. dabansız. gücsüz. ***1***. kəsəl. kəsil. xəstə. iğlik. iğçil. ***1***. saqat. gücsüz.

söqəl **sökəl.** ***1***. cötəl. xəsdəlik. ***1***. söğülmüş**.** səkilmiş**.** məl'un**.** sayru**.**

söqəlöə **sökəlkə**. kəsəl. kəsil. iğlik. iğçilkə. iqləş. xəsdə. aruq. sağ olmayan. **- aruq ər. - aruq dindi**: xəsdə yarıqdı: dincəldi**.**

söqən **sökən**. ağarma. dan. daluğ. tilu'. şəfəq. fəcr.

söqən **sökən**. əriştirən. qurtaran. qutaran. götürən. qoparan. çıxaran. çıxarıcı. çözücü. çözən. nəcat verən. açan.

- çivisökən: kəlfətin.

- işək sökən: işətən.

- sevəni, **söğmə**, **söğəni sevmə**.

- söğəndə sevgi ocağı arama, **sevmiyən söğürsə**, **qınama**.

söqənək **sökənək. söknəkü**. **söknək**. ət ilə dırnağ arasında çıxan sivilcə, cuş.

söqənmək **sökənmək**. yastancmaq. dincəlmək. dayanmaq. rahatlanmaq.

söqər **sögər**. **söğrə**. ***1.*** keçəl. başı saçsız adam. ***1.*** boynuzsuz heyvan **- söğər** qoy: boynuzsuz qoyun**.**

söqərsə **- sökərsə dan**, **sönər gecə**: dan sökdü, yandı gecə. örtük düşdü, dan söküldü. başlıq düşdü, baş göründü. taqqa düşdü, kəl göründü.

söqət **sögət**. dal. söğüt.

söqəvar **sögəvar**. dərdli.

söqəy **söğəy**. yardam. qoldam. kömək.

söqqcək **sökəcək**. burğu. **- qurşun sökəcək**: tüfək tapancadan qurşunu çıxarmaq üçün burğu. xoruz ayağı.

söqqü **söğgü**. **sövgü**. küfür. yaman.

söqləmə **sökləmə**. xaşlanmış. xəşil. pişmiş ət. yəxni.

söqləmək **söğləmək < > sövləmək > söyləmək**. söğmək. yamanlamaq.

söqləmək **sökləmək**. xaşlamaq. əti suda pişirmək. şorba pişirmək.

söqlənmək **söğlənmək.** söylənmək. deyinmək. mırılldanmaq. öz özünə şikayətlənmək.

söqlünc **söklünc**. kabab.

söqlünmək **söklünmək**. kabab edilmək. kabab edmək. kəndi kəndinə ət kabab edmək.

söqman **sökman.** iğit**.** qahraman**.** batır**.** gözüqara**.** düşmanı dizə çöktürən, dizə gətirən**.** iğitlərə verilən ünvan**.** düşman saflarını sökən, yaran**. - sökmənbay**: sökmən bəy**.**

söqmanlanmaq **sökmanlanmaq.** batırlanmaq**.** şişmək**.** meydan oxumaq**.**

söqmə ***1***. **söğmə**. yamanlama paylama. ***1***. **sökmə**. **- kavlama**, **sökmə**, **qazma aracı**: kavağ. kava **(< kav)**. ***1***. **sökmə**. **söküş**. kal. çal. çalırma. çalırış. ayırma. ayırış. cayırma. cayırış. qoparma. qoparış. ***1***. **sökmə. sövmə. sövüş. söküş. söyüş. söğüş.** qalay. yaman. paylama. paylayış. azarlama. azarlayış. küfür. küfr.

- qanmayan qıncı **(**kin. nifrət.**)**. nədir, sevgi nədir, hər gələni sevib gedər, hər gedəni **söğüb** gedər. **(**gələni sevər, gedəni döğər.**)**.

- sevəni, **söğmə**, **söğəni sevmə**.

- sevgi gülü tuxumsuz, **söğmə kolu tikansız**. **- sevgi gülün tuxumu yox**, **söğməyin tikanı yox**.

- <u>söğə söğə</u> sevilən, **sevə sevə <u>söğər</u>**.

- <u>söğmə</u> tikanı, **sevgi gülündən su içər**, **orax gəlsə**, **kollu**

güllü biçər.

- söğmənin tikanı yox, **sövmənin tükanı yox**.

- tikişləri sökmədə işlənən, haça biçimli, haça qovşağı (iki qolunun arası**) iti arac**: açqa. aşqa.

söqmə **sökmə. *1***. küfür**.** sövmə**.** qırış**. *1***. tə'n. nikuheş. **-** pisçillərin tə'ninə uğraşmadan əvvəl.

söqmək **(sökmək**. **söğmək)**. ***1***. çözgüləmək. ***1***. yedirtmək. yamanlamaq. yamanlamaq. dil pozmaq: ağız pozmaq. yağın yağın, bol bol, sərtcə bir nərsəni yapmaq. yermək. düşürmək. **-** durmadan, ağzına gələni **döşədi**. ***1***. yıxmaq. devirmək. **- dişini sökmək**: dişin çəkmək. yaraqsızlatmaq. yamanlıq edəmiyəcək duruma gətirmək. ***1***. qoparmaq. qırmaq. parçalamaq. ***1***. girmək. düşmək. etgiləmək. nifuz edmək. ***1***. dağıtmaq. çözgüləmək. çözmək. açmaq. ayırmaq. savalamaq. sovlamaq. yaylamaq. yarlamaq. parçalamaq. balçamaq. boşaltmaq. əğritmək. pozmaq. xərablamaq. fəsx edmək. ***1***. **söğmək. sövmək. söymək.** qalaylamaq. qalaya basmaq. yamanlamaq. paylamaq. azarlamaq. küfürləmək. küfr edmək. ***1***. tükətmək. bitirmək. dağıtmaq. yıxmaq.

- açıb sökmək: **açıb qoşmaq**: qaşlamaq. qaşlatmaq.

xaşlamaq. xaşlatmaq. soxuşturmaq. azarlamaq. paylamaq. yamanlamaq.

- sözlə iyicə paylayıb, **söğmək**: dillə donatmaq.

- şəfəq, **dan atmaq**, **sökmək**. ağarmaq.

- tük sökən: maqqab.

- şəfəq sökmək: dan atmaq.

- <u>göğsün, sinəsin</u> sökməyə çalışmaq: ösgürmək. öksürmək. üksürmək. kavsırmaq. qağsırmaq.

- könlün sökmək: pərişan edmək.

- əldən ayaqdan, var yoxdan **sökmək**: iflasa uğratmaq.

- dan atınca, könül **sökülər**: ışıq saçar, sözü açar. günəş açar, qaranlıq qaçar.

- sökdü gücüm, keçdi yaşım.

- dağ **sökən**, dağa söykənir.

- dağa söykənib, dağ **sökür**.

- dan **söküncə**, tabım söküldü.

söqmək **sökmək**. **sükmək.** ***1***. kavlamaq**.** eşələmək**.** aqtarmaq**.** dörcələmək. eşələmək**.** aqtarmaq**.** qazmaq**.** qazbalav**.** başarmaq**.** yenmək**.** yaslanmaq **(**sökü**.** çökü**.** səki**).** sövmək**.** azarlamaq**.** dövmək**.** söküşdürmək. ***1***. qarqışalamaq. qarqışlamaq. korlamaq. azarlamaq.

topiqləmək **>** tobixləmək. darlamaq. ***1***. **sökmələmək**.tə'n edmək. nikuheş edmək. tə'nə vurmaq. **- dırnağ sökmək**: dözümsüzlük edmək. ***1*.** söğükmək**.** söğmək. sövmək. ***1*. çökmək.** yarmaq. yırtmaq. diz çöqmək. ***1***. pozmaq. dağıtmaq. cırmaq. qırmaq. xərablamaq. **-** ortaqlığın **söküşdi**: ortaqlığın pozdu. **(sokmaq**: yerləşdirmək**). -** evləri **sökülən** yar. ***1***. bir gizni, sirri, içi açımaq. qoxulatmaq**.** iylətmək. ifşa edmək. **-** yarın onun işlərin **qoxulatacağam.** ***1***. didmək. çəkib qoparmaq. yolmaq. bütün, toplu nərsəni açıb saçmaq, ayırmaq.**-** qoyunun yapıqın **(**yunun**) yoldu**. ***1***. iftira edmək. ***1***. qınamaq. yermək. ilişdirmək. ***1*.** açmaq. ayırmaq. həll edmək. ***1*.** xəl' edmək. ***1*.** şəqqələmək. ***1*.** alçatmaq. qısqatmaq. təhqir edmək. ***1*.** dağıdmaq. ***1*.** hətgi namus edmək.

- söküb saymaq: söküb qoşmaq**.** atışdırmaq**.** tobixləmək**.** sökəmək**.** sərzəniş edmək**.**

söqmələmək **sökmələmək**. **sökmək**.tə'n edmək. nikuheş edmək. tə'nə vurmaq.

söqmən **sökmən**. yiğitlərə verilən unqun. yağını sökən. yol açan. batur. qəhrəman.

söqmən **sökmən.** qəhrəman. batur.

söqmənlən **sökmənlən**. baturlan. qəhrəmanlan.

söqmənlənmək baturlanmaq. qahramanlaşmaq. şişinmək.

söqnəkü **söknəkü**. **sökənək**. söknək. ət ilə dırnağ arasında çıxan sivilcə, cuş.

söqrə **söğrə. söğər**. ***1.*** keçəl. başı saçsız adam. ***1.*** boynuzsuz heyvan **- söğər** qoy: boynuzsuz qoyun**.**

söqti **sökti**. **sököt**. **kəpək**. **qəpik**. hər bir oğuq, qopuq, sökük nəsə.

söqtürmək **sökdürmək**.yoldurmaq. diddirmək. çəkdirib qopartmaq.

söqtürmək **söqdürmək**. **sökdürmək**. ***1***. açdırmaq. çözdürmək. çözgüdürmək. həll etdirmək. ərittirmək. ayrıtmaq. savdırmaq. sovdurmaq. yaydırmaq. parçalatdırmaq. balçatdırmaq. gəvşətdirmək. boşatdırmaq. pozdurmaq. xərablatmaq. fəsx etdirmək. ***1***. başa salmaq, düşürmək. düşündürmək. qamandırmaq. inandırmaq. qandırmaq. mültəfit edmək. girdirmək. düşürmək.

söqtürmək **söqtürmək**. sövdürmək. yamanlatmaq.

söqtürücü **- südük sökdürücü**, **tərlətici bitgi çeşiti**: eşşək qulağı. qaraqapas. qaraqəfəs.

söquq **(**yel. hava**) çatladan iti söğuq**: ısırıcı. ısırcı. sərt. **-** qışın **ısırıcı**, iti, şaxda çağı. qışın oğlan çağı.

söquq **söğuq.** dəğmə. tonaç**.** donaç**.**

söqumsuz **söğumsuz.** tamahkar**.** pisboğaz**.** qanıqsız**.**

söqü **sökü**. neyzə. mızraq.

söqüb ***1***. **söğüb**. **- <u>söğüb qoşmaq</u>**. söküb soğurmaq. iğnə çuvaldızdan keçirmək. ***1***. **söküb**. **- <u>söküb soğurmaq</u>**. söğüb qoşmaq. iğnə çuvaldızdan keçirmək.

söqüd **söğüdağac.** dal**.** öyəngki.

söqük **sökük**. soqun. söqün. sökün. dağqın. çəkələnmiş. əzilmiş.

söqüq **söğük.** küfür. sövmə.

söqüq **sökük**. başarıqsız. bacarıqsız. bezəriksiz. arnaşsız. onarmaz. düzəlməz. əminməz **<** yəminməz **<** yamınmaz **<>** yapınmaz **<>** yapanmaz **(< yamamaq**. **yapamaq)**. onarmaz. onulmaz **>** olunmaz. düzəlməz. çarasız. çarəsiz. şəfasız. üzgün. dərmansız. davasız. öldürücü. ölümcül. əlacsız. acınacaq. buncağız. çıxırsız. düzəsiz. onarsız. onursuz. olunmaz. otsuz. otasız. arnaşsız. çarasız. zavallı. tabsız. dayanaqsız. gəvşək. sölpük. sölük. solğuq. soluq. qaba, iti olmayan. damarsız. güvənilməz. aylaq. gücsüz. yetərsiz. düşük. bitik. başarısız. bacarıqsız. başarıqsız. becərəksiz. qaq. qax.

sökük. yarıq. yalız. yalıt. yalzan. yalvac. yalavac. yalvara. avara. açılaz. aciz. zayıf. iqtidarsız.

söqüq **sökük**. bezgik. bezik. büzgük. büzük. xərab. əğrib. fasid. düşgük. çürük. kövrük. **- sınıq sökük**: qırıq tökük.

- corab söküyü kimi: araxası kəsilməksizin, birbirinə bağlı olaraq.

- soyuq dəğmə: çor.

söqüq **sökük.** cırmaç. cırmıç. yırmac. yırmıç. dəlik.

söqüqlüq **sökük**lük. xərabalıq. xərablıq. fasidlik. çürüklük. beziklik. bezginlik. büzgünlük. büzüklük.

söqülmək **sökülmək**. ***1***. düşmək. yaylamaq. piyada olmaq. ***1***. gücə qalıb, rüşvət vermək. ***1***. çözgülmək. çözülmək. çözünmək. dağılmaq. açılmaq. ərinmək. həll olmaq. ayrılmaq. ***1***. savılmaq. savalmaq. sovulmaq. gəvşənmək. yayınmaq. parçalanmaq. pozulmaq. xərablanmaq. fəsx olmaq. ***1***. xərablanmaq. əğribmək. əğrinmək. fasid olmaq. düşgünmək. çürümək. bezinmək. bezginmək. büzgünmək. büzünmək.

- bir minəkdən enmək, **sökülmək**, **yayalanmaq**, **piyada olmaq**: düşmək.

söqülmək **sökülmək**. ***1***. iylənmək. bir giz, sirr, iç açılmaq. ifşa olmaq. qoxumaq**. -** yarın onun işləri **qoxacaq. *1***. pozulmaq. ***1*.** qızartılmaq. kabab. ***1*.** ayrılmaq**.** çıxmaq**.** qopmaq**.** yırtılmaq**.** soyulmaq**.** sövumaq**.** ütülmək **(**istəkdən**).** açılmaq**. -** paltardan **sökülmək. *1*. (ç < > s)** çökülmək**.** dizə çökmək**. -** tanrıya **sökünün. *1*.** yaxmaq**.** yandırmaq**.**

söğlünmək: yanmaq**.** sögülmə: söglüncü: söglünci: kabab. ***1***. çəkiştirilmək. ***1***. iftira edilmək. ***1***. sökülmək.

söqülmüş **söğülmüş.** səkilmiş**.** sökəl**.** məl'un**.** sayru**.**

söqülmüş **sökülmüş**. çözülmüş. çözgü.

söqültü **- örtük düşdü**, **dan söküldü**: **dan sökdü**, **yandı gecə**. sökərsə dan, sönər gecə. başlıq düşdü, baş göründü. taqqa düşdü, kəl göründü.

söqüm **söğ *1***. qınama. yermə. ilişdirmə. ***1***. iftira. qarasürmə. kötüləmə. ***1***. ayıb. qusur.

- söğüm aytmaq: iftira edmək**.**

- söğüm salmaq: qınamaq**.** ilişdirmək**.**

söqüm **söküm.** quvvətlə yeriyib gəlmək**. - sökə sökə** çıxmaq**. - sökün**: hızlı çıxış tərzi.

söqüm **söküm**. sapbal. balsap. sapdal. dalsap. saplaq. bəsbəl. sap. bir tel sap.

söqümlü ***1***. qara sürülmüş. ləkəli. iftira edilmiş. ***1***. ayıblanmış. qınanmış. ***1***. qusurlu. nüqsanlı.

söqün **{sökün**: **sağın**: **çök**ün**.}**. soqun. sökük. dağqın. çəkələnmiş. əzilmiş.

söqün **sökün.** köçün **(**həp birdən **)** topluca**.** uzaqdan birdən görünən topluluq**.** dağ qarından oluşan sel**. - sökün avı**: kəhlik köçündən avlamaq**. - sökün edmək**: ard arda**.** kəsilmədən gəlmək**.** çözülmək.

söqünc ***1***. ləkə. iftira. ***1***. qınama. iliştiri. ***1***. qızmaq. yamanlamaq.

söqünclü ***1***. iftira edilmiş. lekələnmiş. ***1***. qınanmış. ayıblanmış. iliştirilmiş. ***1***. qusurlu. əksikli. ayıblı.

söqünqör parçala.

söqünmək ***1***. **(s < > ç) çökünmək**. diz çökmək. əbd olmaq. ibadət edmək. **-** tanrıya **çökünün.** ***1***. **sökünmək**. açınmaq. qazınmaq. təcziyə olunmaq. **-** daş topraq yağıntı ilə **qazınır.**

söqünmək **sökünmək**. çıxmaq. görünmək. açılmaq. zihur edmək. faş olmaq.

söqünmək **sökünmək**. qaşınmaq.

söqüntürmək **söqündürmək. < > söndürmək**.

söqür **sökür**. **çükür**. **çanğur**. **çonğur (< çanğ)**. bir ağzı balta, öbürü qazmalı ayqıt.

söqür **sökür. sökülmək. *1.*** qızqın**.** iti**.** qabarmış**. *1.*** dizə gətirən**.** diz çöktürən**.** buyruğunu dinlətən**.**

söqürcə **söğürcə.** sökü**h.** yarıq**.** ata tay heyvanların dırnağ söküyü**.** oyuğu.

söqürmək söküb açmaq**.** qavırmaq**. -** ət **söqürdü**: ət pişib açıldı, qavruldu**.**

söqürmüş **söğürmüş.** dizə gətirmişə baş əğdirmiş**.**

söqürsə **- söğəndə sevgi ocağı arama**, **sevmiyən <u>söğürsə</u>**, **qınama**.

söqüş **sökü**ş. **söğüş**. ***1.*** soxuş. sövmə. sövüşmə. ***1.*** şişə soxmağa yarar oğlaq, quzu, yumşaq ət. şişlik. ***1***. çəkiştirmə. iftira. ləkə. qara sürmə. küfür. ***1.*** kovlaq. dərisi soyulmuş heyvan. ***1.*** **sögüş**. həqarət. ***1.*** qaynatılıb, gəmikdən ayrılmış ət.

söqüş **sökü**ş**. söğüş. söyüş. sövmə. sövüş. sökmə.** qalay. yaman. paylama. paylayış. azarlama. azarlayış. küfür. küfr.

söqüş **sökü**ş. **sökmə**. kal. çal. çalırma. çalırış. ayırma. ayırış. cayırma. cayırış. qoparma. qoparış.

söqüşmək **söğüşmək. sökü**ş**mək**. ***1***. sövüşmək. söqşəmək. yıxşamaq. ***1***. söğüşmək. danışmaq. **-** olar ikki **söğüşdü**. ***1***. pozuşmaq. dağışmaq. cırışmaq. qırışmaq. xərablaşmaq.

- parça **söküşdü**. **-** ölkə **söküşüb** getdi. ***1***. qarqaşalaşmaq. qarqaşaşmaq. dögüşmək.

söqüşmək **söküşmək**. çözümlənmək. çözgüşmək. çözüşmək. ayrışmaq. dağışmaq. açışmaq. ərişmək. həll olunmaq. ayrışmaq. savışmaq. savaşmaq. sovuşmaq. gəvşəşmək. yayışmaq. parçaşmaq. balçaşmaq. pozuşmaq. xərablanmaq.

söqüştürmək **söqüşdürmək**. **söküşdürmək**. əriştirmək. çözgüşdürmək. çözüşdürmək. ayrışdırmaq. dağışdırmaq. açışdırmaq. ərittirmək. həll etdirmək.

söqüt **(söğüt**. **sökü**t**)**. ***1***.yaman **-** qızmış **öğüş** götürməz, yaman söğüş götürməz. **(qızmış**: qəhbə**)**. **(öğüş**: nəsihət: **)**. ***1***. söymə. yaman **-** qızmış **(**qəhbə.**)**. öğüş götürməz, yaman **söğüt** götürməz **(öğüş**: nəsihət.**)**.

kavak **- söğüt çeşiti**: qarağvaq.

- söküt **tökü**t: səp süpürt. soy soput. sal süpüt. sal töküş. tök dağıt. töh töküş. tör töküş. tükət biçət. saç savur. sav sov. sava sova. savır sovur. saça biçə. saça biçəlik. saçaç. saçıb savurma. aç saç. açar saçarlıq. çökü**t** qoşut. düşür püsür. düşür töküş. düşür töşür. həşir pəşir. kəsər tökər. dağıt töküş.

ərit dağıt. dağıtma. korlama. sovurqanlıq. savurqanlıq. yayçalıq. qırqıt. velxərclik. israf.

söqüt ***1***. **söğüt**. dal. sögət. ***1***. **söküt**. **sökti**. **kəpək**. **qəpik**. hər bir oğuq, qopuq, sökük nəsə.

- qara söğüt: söğüt ağacı çeşiti.

- qızıl söğüt: söğütün çeşiti**.**

- söğütün çeşitlərindən: misir qavağı: sorğun.

- söğüt ağacı: **dal**.

söqüt **söğüt.** suv dal.

- incə, yaş söğüt dalı: kağıl**. -** qal savı qalmaz, **kağıl** bağı yazmaz: ağsaqqal sözü işlər, söğüt dalından qurulan bağ düğün açılmaq**.**

- qızıl **söğüt**: bir çeşit söğüt ağacı.

söqütmə **sökütmə**. xərablatma. fasidlətmə. çürütmə. düşgütmə. bezitnmə. bezgitmə. büzgütmə. büzütmə.

söqütmək **sökütmək.** yerin dəğişmək**.** oynatmaq**.** çıxarmaq**. -** qoyunları burdan **söküt**: çöküt.

söqüv ***1***. iftira, ləkə çalma. ***1***. qınama. ilişdirmə. ayıblama.

söl ***1***. çöl. dalğın. pərişan. ***1***. qanlı su. ***1***. sakin. dingin. zayıf. gəvşək. əğik.

- söl bolmaq: kəsilmək**.** dinmək**.** zayıflamaq**.** əğikləmək**.**

yatışmaq**.**

- söl edmək: kəsmək**.** dindirmək**.** əğiklətmək**.** yatışdırmaq**.**

- başımı avruqanı bir kəsək söl boldu: başımın ağrısı biraz əğiklədi**.**

- qayğım bir kəsək söl boldu: qayğım biraz əğiklədi**.**

- ətni söl otda bişiriqiz: əti əğik oda pişirin**.**

söləm **sulam**. höləm. öləm. jelatin.

söləmə söyləyiş. təkəllüm.

söləmsək çox qonuşan.

sölənişş çağırış. qodu.

söləpə naşı**.** əlindən iş gəlməyən.

söləş ağız**.** söz.**- ağzı** dadlı**.**

söləşmək **söyləşmək**. qonuşmaq.

- səmiz səmiz söyləşmək: kəndini bəğənmiş bir biçimdə qonuşmaq**.** kəndinə güvənərək qonuşmaq**.**

- artdan söyləşmək: arxadan qonuşmaq**.**

- çalıb söyləşmək: kəkələyərək qonuşmaq**.**

- qatı söyləşmək: azarlamaq**.** paylamaq**.**

- kəsi allına söyləşmək: kəndi kəndinə qonuşmaq**.**

- omaq söyləşmək: ustaca qonuşmaq**.**

- türtüb söyləşmək: birini çəkiştirmək**.** kötü nərsələr

söyləmək.

- ullu söyləşmək: kibirli qonuşmaq. yüksəkdən atmaq.

- söləşgən gümüş, **tınqlaqan altın**: qonuşmaq gümüş, dinləmək altın.

- söləşə bilməğən atasın anasın aytdırır: qonuşmasını bilməyən nənəsinə banasına küfretdirir.

söləşüv söyləş. qonuşma.

söləşüvçü qonuşmacı.

sölət qurum. böyüklük quruntusu. qurur.

söləymək sakinləşmək. yatışmaq. əğikləmək.

söləytmək yatışdırmaq. dindirmək. əğiklətmək.

sölləndirmək dindirmək. yatışdırmaq. əğiklətmək. yumuşatmaq.

söllənmək sakinləşmək. dinmək. yatışmaq. əğikləşmək. yumuşamaq.

- sağışlarım sölləndi: qayğılarım, düşüncələrim yatışdı.

sölmə böyük göl.

sölpük gəvşək. yumşaq. damarsız.

sölpüq **sölpük**. **sölük**. **solğuq**. **soluq**. gəvşək. qaba, iti olmayan. açıla. yayqın. halsız. bayqın. damarsız. cansız. yorqun. qaqırdaq. qaqşaq. zayıf.

sölpüq **sölpük**. soluq**.** dərisi solmuş buruşuq büzüşüq**.** salxıq**.** salqı**.** sərgərdan**.** düşük**.** pərşan.

sölpülməmiş diri. qolayca qırılan. gəvrək.

sölpümək solaqmaq. solmaq.

söltək quyruğu kəsik.

söltür **söldür**. sal**.** uca**.** uzun boylu.

sömək yömək**.** yumaq**.** tumurcuq**.** çəkirdək**.** toplu**.** şişman**.** sivri**.** böyük **(sumka**: **<** yumka**.** suma**.** metatez kumsa**.** muksa**.** somurtka**.** bukca**.** bastıq**.** torba**.** toksa**.** kumça**.** dağarcıq**.** qapcaq**). (söbə**: beyzi**.** oval**. (somı**: **<** yum**.** tum**.** kom**.** komaş tək**.** qalın**.** bütün**.** topul kükə**.** şişman**.** somu: sam**.** qazaq pul birimi**.** somu: yekun**.** cəm**.** somulu: imumi**.** külli**)**.

sömür boza süzməyə yarayan süzgəc.

sömürən somuran. sömürgəçi. somurgəçi. somurgən. sömürgən. müstə'mərəçi. sültə tələb. iste'marçı.

sömürqə **somurgə**. müstəmləkə. müstə'mərə.

sömürqəçiliq **somurgəçilik**. sültətələblığ. iste'mar.

sömürqən **somurgən**. sömürgəçi. somurgəçi. somuran. sömürən. müstə'mərəçi. sültə tələb. iste'marçı.

sömürqən **sömürgən**. sömgürən. somuran.

sömürmə sömürü. somurma. somuru. istismar. iste'mar.

sömürmək **somurmaq**. sormaq. içib, yeyib qurtarmaq.

sömürmək sömgürmək.

sömürü sömürmə. somurma. somuru. istismar. iste'mar.

sömürülmək zülmədilmək. cegilmək. yeqilmək. əzilmək.

sön azalma**.** gücdən kəsilmə**.**

söndürmək **söndürmək. söğündürmək**. ***1***. uçurmaq. keçirmək. ***1***. üçürmək. öçürmək. soğutmaq. amurtmaq. yamurtmaq. yatıtmaq. uyutmaq. dindirmək. səğnitmək. uçruşmaq. yatırtırmaq. ***1***. yapsutmaq. sakitlətmək. ***1***. yuxlatmaq. uyutmaq. qarmamaq. qarmatmaq. öçültmək. uçurtmaq. öçürmək. uçurmaq. söngdürmək. yatışdırmaq. əğiklətmək. dindirmək. yumuşatmaq. üçültmək. uçultmaq. **- otnu yuxlat**: odu söndür**.**

sönə qey **sönə gey**. şubatın ondoqquz igirmi səggiz arasında doğanların bürcü.

sönən **sönüşən**. **solan**. **soluşan**. **sonuşan**. **sonan**. öçüşən. ötən. öçən. uçan. uçuşan. ötüşən. keçişən. keçən.

sönər **- küləkdə**, **cılız od <u>sönər</u>**, **tonqallı od öc alır**.

- sökərsə dan, **sönər gecə**: dan sökdü, yandı gecə. örtük düşdü, dan söküldü. başlıq düşdü, baş göründü. taqqa düşdü,

kəl göründü.

- yanar sönər ışıq: ipilti ipilti.

sönəri sonəri. sona ərən. tükənən. bitən. yoxalan.

sönqmək **söngmək**. ***1***. çürüməyə yüz tutmaq. ***1***. yatışmaq. dinmək. sönmək.

sönqtürmək **söngdürmək.** yatışdırmaq. əğiklətmək. dindirmək. yumuşatmaq. söndürmək.

sönqünmək **söngünmək**. döngüşmək. düşgümək. yoltanmaq. üznükmək. çürkünmək. çürkümək. qarablamaq. qarablanmaq. qarazqarmaq. qarqazıqmaq. qaqramaq. qaqraqmaq. qaqaralamaq. qaqarlanmaq. qaranmaq. batmaq. batırmaq. çorbaşmaq. çorbağmaq. çorlanmaq. korlanmaq. körcəlmək. korcalmaq. kütcəlmək. qatınmaq. manğlanmaq. banğlanmaq. mutsuz, qutsuz, şanssız düşmək. bədbəx, bəxtsiz olmaq. bəxdi yatmaq.

sönqüş **söngüş**. sönmə. duraqlama. kəsilmə. dinmə. yatışma.

sönqzəq **sönğzək**. qonra**.** bel soyuqluğu**.** siflis.

sönmez ***1*****.** canlı**.** odlu**.** iddialı**.** enerjik**.** ***1*****.** parlaq. göz alıcı**. - sönmezay**: sönmez ay**.**

sönmə söngüş. duraqlama. kəsilmə. dinmə. yatışma.

sönmə tükənmə. dinmə. yıxılış. çöküm. çöküş. çöküm. çöküş. batma. batış. dalış. dalma. içinmə. içənmə. keçinmə. keçiş. keçmə. sapış. sapım. gömüş. girişmə. çevriliş. devriliş. sınılış. altanış. düşüş. düşmə. düşgü. yeniliş. salınış. əğiliş. əriliş. dönüş. çönüş. qovuluş. aşırış. yendiriş. yeniliş. inqiraz. batma.

- sönməyə üz tutmaq: qararmaq. qeyb olmaq.

sönmək ***1***. sonarmaq. sona ərmək. geçmək. bitmək. qararmaq. **- soğuqlar keçdi**. ***1***. dinlənmək. **-** ışıqlar **dinlənmədən**, işlərivi bitir. ***1***. qaçmaq. qoşmaq. uçmaq. ***1***. qararmaq. qısılmaq.

sönmək cuqlanmaq. yuqlanmaq. öçülmək. uçulmaq. söngmək. qaralmaq. qarmalmaq. qararmaq. yatışmaq. dinmək. ***1***. uzuqmaq **(z < > ç)** uçuqmaq. sonuna varmaq. sönmək. öçmək. uçmaq. ***1***. üçülmək. uçulmaq.

sönmüş ***1***. sönük**.** udun**.** ***1***. uçuq**.** solmuş od.

sönmüş sonmış. bitmiş. keçmiş.

- sönmüş tay, **sönmüş kimi görünmək**: **(**od**)** ımızqanmaq. yumızqanmaq. alızlanmaq. sönüşünmək.

- yatınlar yasınmış, **ışıqlar sönmüş**.

sönttürmə **söndürmə**. basırma. bastırma. toxdatma. təskin vermə.

söntürcü **söndürcü**. **söndürücü**. **söndürən**. öçürən. öçürucü. öçürcü. uçuran. uçurucu. uçrucu. çökrən. çökürən. çökürücü. çökrücü. **(<>** köçürən. köçrən. köçrcü. köçürcü**)**. yatıran. yatrıcı. yatırıcı. çəkitici. çəkitci. çəkitən. çəktirici. çəktirci. çəktirən.

söntüreməz **- çağın sürməsi**, **öc <u>közün söndüreməz</u>**: gün keçər, kin keçməz.

söntürən **söndürən**. **söndürücü**. **söndürcü**. öçürən. öçürucü. öçürcü. uçuran. uçurucu. uçrucu. çökrən. çökürən. çökürücü. çökrücü. **(<>** köçürən. köçrən. köçrcü. köçürcü**)**. yatıran. yatrıcı. yatırıcı. çəkitici. çəkitci. çəkitən. çəktirici. çəktirci. çəktirən.

söntürən **söndürən.** üçürgən. öçürgən.

söntürqən **söndürgən**. üçürgən**.**

söntürmə **- düşmandan**, **nərsədən gizli qalmaq üçün**, **gecə çağı ışıqları <u>söndürmə</u> önləmi**, **tədbiri**: qarartma. gömüşlük. xamuşluq.

söntürmə **söndürmə**.boğazlama. öldürmə.

söntürmək **söndürmək**. **< > sondurmaq**. ***1***. bitirmək. keçitmək. ***1***. dincətmək. dinlətmək. **-** çırağı **dinlət**. ***1***. qarartmaq. keçitmək. **- ocağı qarart**. ***1***. susdurmaq. yatışdırmaq. ***1***.

yatırmaq. köçürmək. çəkitmək. çəktirmək. ***1***. geçirmək. ***1***. qaratmaq. qaraltmaq. öçürtmək. uçurtmaq. rahatlamaq.

söntürtmək **söndürtmək**. çökürtmək **<>** köçürtmək. öçürtmək. uçurtmaq. yatırtmaq. çəkitmək. çəkirtmək.

söntürü **söndürü**. təskin. basdırı.

söntürücü **söndürücü**. **söndürcü**. **söndürən**. öçürən. öçürucü. öçürcü. uçuran. uçurucu. uçrucu. çökrən. çökürən. çökürücü. çökrücü. **(<>** köçürən. köçrən. köçrcü. köçürcü**)**. yatıran. yatrıcı. yatırıcı. çəkitici. çəkitci. çəkitən. çəktirici. çəktirci. çəktirən.

sönüq **sönük**. soluq. qaba, iti olmayan. çökük. uçuqsı. uçuq. ışıqlığı az. soluq. qaba, iti olmayan. ışıqsız. bürküt. mat. ***1***. ölümüş. çəkik. keçmiş. uçuruq. cansız. durqun. ***1***. soyuq. dingin. ***1***. soyuq. donuq. odsuz. durqun. oturuq. yatqın. yanız. yanğsız. yaxsız. cansız. quru. təpgisiz. gərimsiz. həyəcansız. çökük.

- sönük ulduz: **ulduzsuz**. qarabəxd. qarabet. qaran. qaraüz. qaraz. üzüqara. üzqara. qarayazıq. qara yazılı. yazısız. yazqısız. qaqraq. qaqraqa. qaqra. qaqar. bədbəxt. bədbəx. bəxtsiz. bəxdi yatmış. bəxdi yatıq. çorbaş. çorbağ. çorlu. körcəl. korcal. kütcəl. onqalman.

qatı manğlay. banğlaysız. mutsuz. qutsuz. uğursuz. yoltaysız. üzüntülü. düşgün. dönşüq. düşüksüz. alnsız. alınsız. barışmaz. güngörməz. doymaz. doymayan. çürkük. şanssız. nəgələsiz.

sönüq **sönük.** ***1***. salpımaq. sarqıq. ***1***. sönmüş**.** udun**.** ***1***. sönük**.** pasif**.** cansız**.** həyəcansız**.** ***1***. uçuq**.** keçik.

sönüqləmək **sönükləmək**. **soluqlamaq**.

sönüqlüq **sönüklük**. cansızlıq. durqunluq.

sönüm yatım. köçüm.

sönüşən **sönən**. **solan**. **soluşan**. **sonuşan**. **sonan**. öçüşən. ötən. öçən. uçan. uçuşan. ötüşən. keçişən. keçən. **-** çapıq **alışan**, çapıq **sönüşür**: **-** iticə **qızan**, iticə **sönər**. **(**çapıq bəğənib, çabıq vazkeçənlər üçün söylənir**)**.

sönüşmək tunaqılanmaq. matlaşmaq. donuşmaq.

sönüşünmək **(**od**)** sönmüş tay, sönmüş kimi görünmək. ımızqanmaq. yumızqanmaq. alızlanmaq.

sörün kədərli**.** hüzünlü**.** qəmli.

sösinə qəhvə rəngi.

sötəq **södəy**. ***1***. södəy. kinayə. ***1***. yatay. çapraz. ***1***. **södək**. kinayə.

sötəqəy **södəgəy**. çapraz. yatay.

sötəqəyinə **södəgəyinə.** eninə. çaprazlamasında.

- södəgəyinə barmaq: çaprazlamasına gedmək**.**

- södəgəyinə kəsmək: eninə **(**çaprazlamasına**.** kəsmək**.**

- södəgəyinə söyləşmək: imalı qonuşmaq**.**

sötəqəylənmək **södəgəylənmək.** yataymaq. yanqılıclanmaq.

- engirdə günün daracları dağlara söykənib dəğər: axşam olduğunda günəş ışınları dağlara yatay bir şəkildə vurar**.**

sövalyə ərrəyçi. savaşçı. dəli.

sövbət çağçaq. sav. mukalimə.

sövə **sövək**. **söveac**. **söyə**. **söyək**. **söyəc**. **söykəc**. söykə. qornıc. qornış. qaplar. qapsa. kasa.qaplayır. qalbar. çarçuva. çərçivə. qaval.

sövəc **sövə**. **sövək**. **söykəc**. **söyə**. **söyək**. **söyəc**. **söykəc**. qornıc. qornış. qaplar. qaplayır. qalbar. çərçivə. qaval.

söveq **sövək**. **sövə**. **sövəc**. **söyə**. **söyək**. **söyəc**. **söykəc**. qornıc. qornış. qaplar. qaplayır. qalbar. çərçivə. qaval.

sövəl söğəl**.** dağ burnu**.** dağdan sövələ daşlar**. - sövələn dağlar**: dik dağlar**. -** domuzun **sövələn** dişləri**. -** dirəyi taydan taya **sövət**: uzat**.**

sövəlmək şüvləmək**.** dikəlmək**.** sivrib uzatmaq**. -** burnun **sövətdi**: şüvlədi**.** uzatdı**.** soxdı**.** ititdi**. - sövəlib** meydanda durmaq: sip

sivri qalxmaq**.**

{> sövələn **>** səbəlan **(**dağ adı**).**

sövişim **sövişmə. qarışım. qatılma işi, çağı**. qatım. qatma. qatıq. qayım. qayma. qayıq. qoşnat. qoşnam. qoşnaşım. qoşlaşım. cütləşmə. dölləmə. leqah.

sövişmə **sövişim. qarışım. qatılma işi, çağı**. qatım. qatma. qatıq. qayım. qayma. qayıq. qoşnat. qoşnam. qoşnaşım. qoşlaşım. cütləşmə. dölləmə. leqah.

sövqü **sövgü**. **söğgü**. küfür. yaman.

sövqülüq **sövgülük**. **seviklik**. **sevgililik**. duyqulu, duyquçıl ilişgi. könül bağı. aşiqlik.

sövləmək **< > söğləmək > söyləmək**. söğmək. yamanlamaq.

sövləmək söyləmək.

sövlənmək deyinmək. pısıldamaq.

sövləşmək savlaşmaq. çağçaq qılmaq. dərdləşmək.

sövləşmək sözləşmək. sövüşmək. sövüşmək. söz gürəşdirmək. söz savaştırmaq.

sövmə küfür. yuduq. yudut.

sövmə **sövüş. sökmə. söküş. söyüş. söğüş.** qalay. yaman. yamanlama. paylama. paylayış. azarlama. azarlayış. donalma. donanma. donatış. donayış. donanış. çirkin,

qaba sözlər. küfür. küfr.

- sövmə sözlərindən: **(-** geçgin. keçgin. rədd olası. dəf' olası!. itiləsi.**)**.

- söğmənin tikanı yox, **sövmənin tükanı yox**.

sövmək ***1***. kötüləmək**.** ağzamaq**.** ***1***. qaqırmaq. yaxırmaq. güstaxlıq yapmaq. kötü davranmaq.

sövmək **sökmək. söymək. söğmək.** ***1***. qalaylamaq. qalaya basmaq. yamanlamaq. paylamaq. azarlamaq. küfürləmək. küfr edmək. ***1***. ağzını pozmaq. ***1***. sevrəmək. söyrəmək. çəkmək. özünə qarşı, tərəf çəkmək.

- iyicə sövüb paylamaq: donatmaq. donamaq. donatlamaq.

sövsün elçilərə, qonaqlara sunulan yem azıqlığ, ərzaq.

sövsünçü elçilərə, qonaqlara sunulan yem azıqlığ, ərzaq baxıcısı.

sövülmək **- iyicə sövülüb paylanmaq**: donanmaq. donalmaq.

sövüş **sövmə. sökmə. söküş. söyüş. söğüş. söyüş**. **söğüş**. qalay. yaman. paylama. paylayış. azarlama. azarlayış. küfür. küfr.

sövüşmək sövləşmək. sözləşmək. sövüşmək. söz gürəşdirmək. söz savaştırmaq.

söy **söz**. gəp. dem. demə. nəm.

söyci incə. zərif. **- söyci** qadın. **-** söyci işlər: əl işləri. incə işlər. zərif işlər.

söycqə **söyckə**. inckə. zərifanə. **- söyckə** davranış.

söyə ***1***. **söyək**. **söyəc**. **söykəc**. **sövə**. **sövək**. **sövəc**. qornıc. qornış. qaplar. qaplayır. qalbar. çərçivə. qaval. ***1***. dirək. dayağ. sütun. əmud.

söyə söykə**.** dirək**.** dayaq**.** dayanc**.** situn**.** arxa: sənəd.

söyəc **söyə**. **söyək**. **sövə**. **sövək**. **sövəc**. qornıc. qornış. qaplar. qaplayır. qalbar. çərçivə. qaval.

söyəksizlik **söyəngəsizlik**. tapıqsızlıq. tutaqsızlıq. arxasızlıq. dönəklik. yasasızlıq. təkyəsizlik. allaqlıq. güvənilməzlik. dabansızlıq.

söyəq **söyək**. **söyə**. **söyəc**. **söykəc**. **sövə**. **sövək**. **sövəc**. qornıc. qornış. qaplar. qaplayır. qalbar. çərçivə. qaval.

söyəq **söyək.** söykə**.** aracı**.** tayanc**.** dayanc**.** tavanı, damı **söykək** olub saxlayan kiriş, dirək**.** situn**.** qaşla qaşı yuxarnı saxlayan**.**

söyəqsiz **söyəksiz**. **söyəngəsiz**. dönək. qancıq. qərarsız. duraqsız. dayaqsız. dayasız. durumsuz. durmaz. dayanmaz. tayaqsız. tayasız. dayamsız. dəvamsız. yeltək. gəlgeç.

dibsiz. cıdamsız. bozyel. poyraz. tutaqsız. arxasız. yasasız. təkyəsiz. tapıqsız. sürəksiz. subatsız.

söyəmək suyanmaq. söykənmək. dayanmaq. yasdanmaq. yan üzə dayanmaq.

söyənc bax **> söykənmə**.

söyəngək söykək. dayaq. dayam. ayaq. dayancaq. dayanaq. dəsdək.

söyəngələmək **söykələmək**. dayancaqlamaq. daynaqlamaq. dayamlamaq. dayaqlamaq. arxalamaq. qoldamaq. qoldalamaq. yardımlamaq. dəsdəkləmək.

söyəngəli **söykəli**. dəsdəkli. dayalı. dayamlı. dayaqlı. ayaqlı. dayancaqlı. dayanaqlı.

söyəngəlik **söykəlik**. dəsdəklik. dayamlıq. dayaqlıq. ayaqlıq. dayancaqlıq. dayanaqlıq. **(**dəsdək, dayam, ayaq, dayancaq, dayanaq, söykə, söyəngə vurulmalı**)**.

söyəngəsiz **söyəksiz**. dönək. qancıq. oransız. oranşsız. qərarsız. duraqsız. dayaqsız. dayasız. durumsuz. durmaz. dayanmaz. tayaqsız. tayasız. dayamsız. dəvamsız. yeltək. gəlgeç. dibsiz. cıdamsız. bozyel. poyraz. tutaqsız. arxasız. yasasız. təkyəsiz. tapıqsız. sürəksiz. subatsız.

söyəngəsizlik **söyəksizlik**. tapıqsızlıq. tutaqsızlıq. arxasızlıq. dönəklik. yasasızlıq. təkyəsizlik. allaqlıq. güvənilməzlik. dabansızlıq.

söyənib **söynəb**. **söykənib (< söykənmək)**. daynab dayanıb. istinadən. **- nəyə söynəb (söyənib**. **söykənib)**, **böylə söylədiz**: nəyə daynab **(**dayanıb**)** böylə söylədiz. nəyə istinadən böylə söylədiz.

söyənic **söyənc**. bax **> söykənmə**.

söyəniş **söyənc**. bax **> söykənmə**.

söyəniş **söyənmə**. **söykənmə**. **söykəniş**. dayanma. dayanış. işənmə. inanma. inanış. gümənmə. gümeniş. güvənmə. güvəniş. sığınma. sığınış. iltica'.

söyənmə **söyəniş**. **söykənmə**. **söykəniş**. dayanma. dayanış. işənmə. inanma. inanış. gümənmə. gümeniş. güvənmə. güvəniş. sığınma. sığınış. iltica'.

söyənmək suyanmaq. söykənmək. dayanmaq. yasdanmaq. yan üzə dayanmaq.

söyəş **söykəş**. ***1***. isbat. **- endirikli söyəş**, **söykəş**: müstənəd isbat. ***1***. kök. endirik. daban. dayat. dayaq. istinad. sənəd. **- endiriklə** danış. **- endirik** göstərmək: **- pozuq endirik**: **boş endirik**: köksüz sənəd.

söyəşli **söykəşli**. endirikli. köklü. dabanlı. dayatlı. dayaqlı. istinadlı. sənədli. müstənəd. **- endirikli söz**: müstənəd söz. **- endirikli söyəş**, **söykəş**: müstənəd isbat. **- endirikli filim**: müstənəd filim. **- endirikli bitik**: müstənəd kitab.

söyəşsiz **söykəşsiz**. endiriksiz. köksüz. dabansız. dayatsız. dayaqsız. istinadsız. sənədsiz.

- endiriksiz danışma: sənədsiz sözləmə. **- endiriksiz göstəri**: sənədsiz göstəri, numayiş.

söyətiş **söyətmə**. **söykətmə**. **söykətiş**. atıvermə. atıveriş. bağlatma. bağlatış. dayatma. dayatış. dayaqlatma. dayaqlatış. köklətmə. köklətiş. sənədlətmə. sənədlətiş. yatsatma. yatsatış. yastatma. yastatış. yassatma. yassatış. yükləmə. yüklətmə. yüklətiş. endiritmə. endiritiş. arxalatma. arxalatış. dabanlatma. dabanlatış. ayaqlatma. ayaqlatış. təggələtmə. təggələtiş. tikitlətmə. tikitlətiş. ittikalatma. ittikalatış. isnad. isnad edmə.

söyətmə **söyətiş**. **söykətmə**. **söykətiş**. atıvermə. atıveriş. bağlatma. bağlatış. dayatma. dayatış. dayaqlatma. dayaqlatış. köklətmə. köklətiş. sənədlətmə. sənədlətiş. yatsatma. yatsatış. yastatma. yastatış. yassatma. yassatış. yükləmə. yüklətmə. yüklətiş. endiritmə.

endiritiş. arxalatma. arxalatış. dabanlatma. dabanlatış. ayaqlatma. ayaqlatış. təggələtmə. təggələtiş. tikitlətmə. tikitlətiş. ittikalatma. ittikalatış. isnad. isnad edmə.

söykətmək **- nərsəni hançı bir yerə söykətmək**: dayatmaq. dayıtmaq. **-** əlivi duvara **dayatma**.

turluq **durluq**. çardaq. barnaq. ev. sığıncaq. çatı.

turluq **durluq. turlaq**. **(< dur. tut**: tutuq**.** bükük**). *1*. qapı. qapılı. pərdə. torluq. çadırın qapı işini görən pərdə. *1*. devlət yeri. rəsmi yer. idarə. *1*.** kömür yaxtıqları topraq gömülü,

çuxuru. ***1***. topraq koma, külbə. ***1.*** torluq. örtük. pərd. hicab. ləhaf. ***1.*** qorxu. xof. qorxub durmaqlıq, çəkilmək. dehşət. ***1.*** xətər. ***1.*** sıxıntı. inqibaz. dərd. ələm. kədər. ***1***. ev**.** qalat**.** durulan yer**.** ev**.** qara yörük çadırı**.** çardaq**.** ***1***. **torluq**. qapı. eşik. astana. dərgəh. bargəh. barıngə. dərbar. hisar.

- saqal durluq: ***1.*** bir çeşit boyunbağ**.** ***1.*** gəm**.** lüqam.

turma **durma**. ***1***. duruş. dayqun. qıvam. tavan. quysunq. çağqın. ***1***. qalış. qalma. ***1***. qərar. ***1***. toxdaş. dinləmə. iqamət. ***1***. tumər. turp. tırp. **-** küvij turma: puka turp**. - sarı turma**: yer kökü**.** ***1***. turp. **- aylıq turma**: turp**.**

turma **durma**. ***1***.qalxma. qiyam. ***1***.yatışma. dinmə. qonma. qərar tutma. ***1***.oturma. dinlənmə. qonaqlama. oranc. oran. qərar. ***1***.əğlənmək. təvəqqüf. ***1***.dinlənmə. əğlənmə. dirəng **<** duranğ **(< durmaq)**. təvəqqüf. ***1***.əğlənmə. duraq.dincəlmə. ***1***. **duran**. **durmuş**. qalma. qalmış. qalan. yadavul. yadiqar. anıt. əsgilərdən sürüb gəlmə, intiqal edmə. **-** olardan **qalma**. ***1***. **durum. durmuş.** qalım. qalma. qalış. yaşama. yaşam. yaşaş. yaşayış. bəqa'. ***1***. yerləşmə. əğləşmə. oturma. iqamət.

- durma!: kəsmə!. sür!. sürdür!. dəvam!.

- dış durma: çəkə durma. qıraq durma. ıraq durma. qayra durma. uzaq durma. qaça durma. üz çevirmə. üz döndərmə. e'raz.

- qarşı davranma, **durma**: əl uzatma.

- nərsənin durmasın, dayanmasın, muqavimətin çoxaldan: qatıl. güclədən. cıdamladan. möhkəmlədən. müqəvvi. qəvilədən. təqviyətli.

- uzaq durma: uzaqlaşma. qaçışma. ehtiraz. **-** nədən bu **qaçışma**.

- nərsənin düşəcək, yıxılacaq kimi durması: kavaltaq.

- görülən işdən, **olduğu durumdan yoxsun**, **məhrum durma**: qaldı **-** hamı yedi, **qaldı** sən.

- kiçik durma imi, **simgəsi**: duraqıc. durqıc. vurqıc. virgül.

- qarşı dayanma, **durma**: göğüsləmə. sinə gəlmə. sinə gərmə. muxalifət edmə.

turma **durma**. **duruş**. **durum**. ***1***.qalma. qalış. qalım. bulunma. buluş. olunma. oluş. bolunma. boluş. ***1***.qalxış. qamət. qaqat. qamat. çapat.iqamə. qiyam.

turmadan **durmadan**. **durmaqsızın**. ***1***.ha birə. bitişik. bitəvi. arasız. aralıqsız. kəsintisiz. fasiləsiz. ***1***.ha birə. fırıl fırıl. iticə. çapıcaq. qırpadaq. ***1***.ha birə. aralıqsız. dəvamlı. ard

arda. çabuq çabuq. tələsikcə. ard arda. ardı kəsilmədən. bidüzüyə. birdüzüyə. artlı arasız. dəvamlı. ***1***.bir düzüyə. kəsinmədən. dinləmədən. ***1***.çapıcaq. çapıcacıq çabucaq. tələsik. dərhal. həmən. ***1***.durmazın. duranğsız. dirəngsiz **(< durmaq)**. sürənğsiz. sürəncsiz. sallanmadan. aslanmadan. sürətli. axsınmadan. titizcə. dinlənmədən. əğlənmədən. ***1***.keçəsi. verəsiyə. tikiz, diqqət, özən göstərmədən. **- verəsiyə** bir sağol, bir səlam.

- durmadan qamçılama: çala qamçı.

turmaq **durmaq.** ***1***. **{(tur. dur < > töz. döz)** dözmək. tözmək.**}** ***1***. sonuna gələn işləmlərə **(**feillərə**)**, sürək, davam durumu veririr**. -** eliyə **durmaq. -** yiyə **durmaq. - dura dur**: gözlə**.** bələ**.** ***1.*** var olmaq**.** olunmaq**.** bulunmaq**.** qurulmaq**.** bir durumu, gedişi yaşamaq**.** çəkmək**.** qalmaq**.** bir durumda tapılmaq**.** oturmaq**.** yerləşmək**.** beş kişidən **duran** qurup: qurulan**.** ***1.*** tikilmək**.** gözləmək**.** bəkləmək**.** ***1.*** dirgənib, tıxanıb qalmaq**. - durdum durdum** gəlmədi: gözlədim bəklədim gəlmədin**.** ***1.*** durugəlmək**.** duruşmaq**.** girişmək**.** qalxmaq**.** qalxıb yerimək**.** çıxmaq**.** qopmaq**. -** ertə **duran**, erkən çatar**. -** duman durdı: qalxdı, burdu, bürüdü**.** ***1.*** başlamaq**.** ***1.*** bir nərsənin dəğərin bəlləyib soruşmaq**. -** bu

mallar sizə neçiyə **durat**: **durur**: baxır**.** nərsənin qulluğunda olmaq**. -** bu adamlar sizə **durur**: sizin qulluğuzdadırlar**. -** bəy **durqanları**: qulluqçuları**.** ***1***. **durmaq.** ***1.*** kəsilmək**.** bitmək**.** dinmək**.** qırılmaq**.** qalmaq**.** sınmaq**.** keçməmək**.** çalışmamaq**.** yatmaq**.** irəliləməmək**.** işləməmək**. -** yaşam **durmur** ki belə**.** ***1.*** qımıldamamaq**.** tərpəşməmək**.** oynamamaq**. -** hava **durmuş. -** saat **durdu.** ***1.*** dinlənmək**.** istirahət edmək**.** ***1.*** qarşı qoymaq**. -** düşman qabağında **duran** ərlər**.** ***1.*** vazkeçmək**.** ***1.*** alı qalmaq**.** şaşı qalmaq**.** çaşıb mat qalmaq**.** duruqmaq**.** tumuqmaq**.** ***1.*** ayıq, oyaq qalmaq. ***1.*** tolunmaq. qalmaq. dinəlmək. dinc almaq. dincəlmək. istirahət edmək. rahatlanmaq. sakitlənmək. ***1.*** toxdamaq. yolundan ala qalmaq. dikəlmək. yaşanmaq. payəndə olmaq. ***1.*** qalxmaq**. -** bulut **durdu. -** səsi durdu: səs qalxdı**.** ***1***. hazır olmaq. **- durun**: hazırlanın. **- duran** nərsələr: hazır olan nərsələr. ***1***. arıqlamaq. ***1.*** gedmək**.** başlamaq**. -** hara durusan, otur görək**. -** durun **!. -** haydı dəlilər **durmuş** topraq qurağında axa **dur**: ax. axqınan. **-** qaqa **dur**: çırp. çırpqınan. **-** baqa **dur**: bax. baxqınan. ***1***. qoyunmaq. qonmaq. oturmaq. toxdamaq. **-** ağrım **qondu.** ***1***. güdmək. bəkləmək. qözləmək. ***1***. iqdam edmək.

qılmaq. **-** siz havax duracaqsız. **-** buyruq olsa durarıq. **-** **durqan** uluğ işlərə. ***1***. turuqmaq. duruqmaq. toplanmaq. dolmalanmaq. ***1***. qırmaq. durdurmaq. ***1***. döğrəmək. döğrələmək. **-** qayğı məni **turğurub**: qussə məni çulqayıb**.** ***1***. olmaq. ***1***. türümək. toplanmaq. ***1***. toplanmaq. türümək. ***1***. durmaq. çıxmaq. yüksəlmək. ayağda durmaq. qalxmaq. ***1.*** arıqlamaq. zayıflamaq. **-** yeməsən **durarsan. -** dura dura yox oldu: arıxlaya arıxlaya yox oldu**.** ***1***. oynamamaq. qımıldanmamaq. sakin olmaq. oturmaq. iqamət edmək. gedməmək **(**işləməmək**)**. dinğmək. kəsilmək. **-** yerində **durmaq**. **-** ayağda **durmaq**. **-** bizə gəlincə durdu. **-** su **dura dura** pozulur. **-** harda **dururs**uz. **-** işlər **durdu**. **-** yağmur **durdu**. ***1***. bulunmaq. qalmaq. sürmək. dəvam edmək. **-** siz orda **dururs**uzmu. **-** aşçız genə sizdə **durur**. **-** kitabların məndə **durur**. **-** dünya **durduqca**. **-** at **durdu**. **-** sözünd **durmaq**. ***1***. bəkləmək. dözmək. səbr edmək. **-** burda bir iki saat **duralım**. **-** bir az durun. **- durammıram**. **-** gedir gedir, **durmaq** bilmir. ***1***. tumuqmaq. duruqsunmaq. şaşmaq. heyrətə dalmaq. **-** bunu eşidib **durdu**. **-** gözlərinə inanmayıb **durdu**. ***1***. keçməmək. ilişmək. ilərləməmək. yığılmaq. **-** boğazıma **durdu**. **-** canıma **durdu** daha!. ***1***. qonmaq.

düşmək. **-** qumun üzərinə duz **durmuş**. ***1***. artırılan fe'lin sürməsin, dəvamın göstərir. **- yatıb durur**. **- baxıb durur**. **- baxa durmaq**. **-** axan sular **durur**: heç deyəcək yoxdur. açıq aydındır. ***1***. tavranmaq. davranmaq. tovranmaq. ayağa qalxmaq. ayağa sıçramaq. diklənmək. ***1***. oturuşmaq. yatışmaq.**-** qarğaşalıq **oturuşdu. - duruqlu**: durmayı düşünən, tasarlayan**. *1***. qalmaq**. *1***. toxdamaq. dinmək. kəsilmək. ara vermək. yerləşmək.

- təq durmaq: susmaq**.**

- bir gün qalmaq, durmaq: güni keçirmək: günləmək**.**

- dibə çökmək: turulmaq. durulmaq **(< durmaq)**.

turmaq **durmaq**. ***1***.bulunmaq. tapınmaq. **- sözüzdə tapının**: qovluzsa durun. ***1***.dinlənmək. rahatlanmaq. ***1***.dinlənmək. soluq almaq. ***1***.dinmək. bitmək. ***1***.dinmək. yatışmaq. qonmaq. ***1***.qərar tapmaq. ***1***.duraqlamaq. mütəvəqqif olmaq. ***1***.qaldırmaq. dözmək. tablaşmaq. ***1***.qalxmaq. oyanmaq. ***1***.qalmaq. dəvam edmək. **- balsız kovanda**, **arı durmaz**: qazancsız yerdə kimsə durmaz.***1***.saxlanmaq. bəkləmək. **- qapıda saxlanıb soradı**: qapıda durub soruşdu. ***1***. dəvam edmək. **-** iki bacı durmadan **qaqışıb durdular**: **(qaqışmaq**: dediqodulamaq**)**. ***1***.sıxınmaq. saxlanmaq.

sıxışmaq. dayanmaq. **- dayan bir**!: sıxın bir!: saxlan bir!: dur bir!: sıxış bir!. ***1***.sürmək. dayanmaq. qalmaq. baqi qalmaq. **-** bu yapı nə çağdan dayanır. ***1***.oynamamaq. dinmək. kəsilmək. hərəkətsiz qalmaq ***1***.var olmaq. qalmaq. sürmək. **-** ondan çox işlər **durur**. **-** keçmişdən **duranlar**. ***1***. başlamaq. iqamə edmək. **-** işə **durdular**. ***1***. sonuna gələn işləmlərə, sürəklilik gətirir. dəvam edmək. **- qaçıb durmaq**.

- durub dururkən: ***1***.oturduğu yerdə. yersiz. nədənsiz. gərəkməzin. gərəksiz yerə. ***1***.birdən. ansızın. **- durub durub**, **durnanı gözündən vurmaq**: bəkliyərək işi iyisin yapmaq. **- durub dinlənmədən**:ara verməkzin. sürəkli. **- durmuş oturmuş**: eşib əşmiş. görüb götürmüş. dənəkli. sakin. dinc. arsat. sıxıntısız. **- durduğu yerdə**: ***1***.yoxdan. əməksiz. ***1***. suçsuz yerə. **- dur otur bilməmək**: çox çabalayıb, yaramazlıq edmək. **- durub oturmaq**: ilişgili, yaraşıqlı olub qalmaq. ***1***. ilişmək. ilinmək. qalmaq. **-** nə **ilişmisən** mənə, çıx geddə.

- geri durmaq: geriginmək. qaçınmaq. kürənmək. imtina' edmək.

- qafası durmaq: başdan düşmək. başı bunamaq.

- qaşşaq durmaq: **qarşaq durmaq**: nərsəni, kimsəni

qarşılamaq üçün yol boyu düzülmək.

- qaqa, **dikə durmaq**: qaqınmaq. qaqıcmaq. qaqışmaq. qanışmaq. qanıqmaq. qanıcmaq. başın qaldırıb qaqlanmaq.

- qıraq, qıra durmaq: çəkilmək. savulmaq. savılmaq. qaçılmaq.

- üzə durmaq: qanrışmaq. tərslənmək. tərsləşmək. inad edmək. **-** sən kimə **qanrışırsın**.

- atalara **dayanan** gələnəklər.

- başında durmaq: özü güdmək.

- doğru durmaq: ***1***.uslu, dinc işləmək. sapmamaq. suç, əğri, xəta qılmamaq. ***1***.dikinə qalxmaq.

- geri durmaq: çəkinmək. qaçınmaq. sakınmaq. yanaşmamaq.

- dönüb durmaq: boşa **(**boşuna**)** dolaşmaq.

- başında durmaq: baş çəkmək. öndə gedmək. qılavuzluq, yolbaşlıq edmək.

- boğazına durmaq: yediyini utamamaq.

- boş durmaq: işsiz, bekar olmaq.

- durub dayanmaq: dişini sıxmaq. dözmək. təhəmmül edmək.

- heç durmadan: ardı arası, arxası kəsilmədən.

- qalıb durmaq: qalpalaşmaq. təmbəlləşmək. suslaşmaq.

- qarşı durmaq: baş gəlmək. baş qalxızmaq, qaldırmaq başınmaq. inadçılıq edmək.

- qarşı durmaq: dirənmək. dayanmaq. muxalifət, muqabilə edmək.

- qarşı durmaq: qafa durmaq.

- tikilib qalmaq, **durmaq**: tikilmək. dikəlmək.

- yerində, **sözündə durmaq**: dirəşmək. bərkinmək. üstələmək. israr edmək. sabit durmaq.

- dinlənib durmaq: dinc durmaq.

- durub oturmaq. düşüb oturmaq: düşüb qalxmaq.

- əğrəti durmaq: hər an qalxacaq kimi oturmaq.

- geri durmaq: ərinmək. arınmaq. qaçınmaq. üstələnməmək. üstünə almamaq. öhdələnməmək. üşənmək. boyun qaçırmaq. buruq, dönük vermək. burcanmaq. çəkinmək. sakınmaq. yanaşmamaq. təmbəlləşmək.

- bir işdən, **konudan <u>uzaq durmaq</u>**, **atılmaq**, **qaçmaq**: işin içindən çıxmaq, sıyrılmaq. **- işləri** iyli gördükdə, **içindən çıxdı**.

turmaq **durmaq**. **duruqmaq**. **duraqlamaq**. ***1***.qərar çıxarmaq. ***1***. israr, tə'kid edmək. ***1***.əylənmək. əylənmək. ***1***.dirimək. dirəmək. dikəmək. tikmək. ***1***.tinmək. dinmək. kəsilmək. qonulmaq. qoyulmaq. sonarmaq. sona ərmək. bitmək.

susmaq. qərar tapmaq. rahatlanmaq. dinlənmək. dincəlmək. istirahət edmək. yatışmaq. sakinləşmək.

- bir işi görməkdə durmaq, **dirənmək**: sürdürmək.

- tikilib qalmaq, **durmaq**: dikəlmək. tikilmək.

turmaqlıq **durmaqlıq**. **-** qorxu**.** qorxub **durmaqlıq**, çəkilmək**.** turluq**.** dehşət**.**

turmaqsızın **durmaqsızın**. **durmadan**. ha birə. bitişik. bitəvi. arasız. aralıqsız. kəsintisiz. fasiləsiz. boyuna. aralıqlı. təkər təkər. təkrar təkrar. müttəsil. peyvəsdə.

turmamaq **durmamaq**. təlsəşmək. tələsmək. təzişmək. tazışmaq.

turmamaq **durmamaq**.təlsinmək. tələsmək. çabuqlanmaq. əcələ edmək.

- nərsənin dəğişməsinə, **düzəlməsinə artıq <u>güdməmək</u>, <u>durmamaq</u>, <u>önəmsəməmək</u>**: işi oluruna bıraqmaq.

turman **durman**. ***1***. bir çağ. bir zaman. ***1***. turp**.** tırp**.** tıp**.**

turmatan **durmadan. *1*. durmazın.** acıqar. acırqa. **(> azqar** $_{(fars)}$**)**. dirirgə. iticə. ***1***. qırılmadan. bıraxmadan. keçməksizin. gözətmədən. güzəşmədən. qardısız. qartısız. qarıqsız. qarımsız. qalısız. qalıqsız. qalımsız. qalsız. qayrız. qayruz. qayrığsız. qayrısız. qaytız. qaytısız. qayrımsız. qayrınsız. qaylansız. qayılansız. qaylənsiz. geylənsiz.

geyilənsiz. müdam. mudam. dəvamlı. **- qayrığsız** baxım altında saxlanmalı xəsdə. **- qayrığsız** danışan cocuq. **- qayrığsız** gözdən ayırmadan güddülər.

- durmadan gəzən: çalaçı. çalaqçı. cuvanəzən. gəzəgən. qonat. qanat. qapı qapı gəzən.

- durmadan söz, sav sorağında olan kimsə: qulağı dəlik, deşik.

- səni öyləsinə sevirəm, tapılsa yüzər sənə tay, durmadan alaram.

turmatan **durmadan.** ***1***. sürəkli**.** arasız**.** aralıqsız**.** davamlı**.** ara vermədən**.** ***1***. börü cortuv: börü yortuv: bıqmadan. yorulmadan. mütəmadiyən. yanlavsız. dəvamlı. sübatla. toxdamazdan. toxdamay. toxdavsız. ***1***. yatab. həmişə. dayima.

turmay **- köp turmay**: çox geçmədən**.** yaxından**.**

turmayan **durmayan**. dinmiyən. dinlənmiyən. susmayan. kəsilməyən. qırılmayan. qırışmayan. axan. sürən. sızan. süzən. qoymuyan. qonmuyan. yatışmayan. yatınmayan.

turmayan yayılqan. yayılan. sübatsız. həvəsli.

turmayın! **- durmayın**!: iti!. yeyin!. çabuq!. tez!. deyindi!. de indi!. hadi!. haydi!.

turmaz **durmaz**. ***1***. biqərar. sürəksiz. ***1***. əbədi. yatab. qalmaz.

turmaz **durmaz**. **durumsuz**. dayaqsız. dayasız. dayanmaz. tayaqsız. tayasız. dayamsız. dəvamsız. yeltək. gəlgeç. dibsiz. cıdamsız. dönək. qancıq. oransız. oranşsız. qərarsız. duraqsız. bozyel. poyraz. tutaqsız. arxasız. yasasız. təkyəsiz. söyəksiz. söyəngəsiz. tapıqsız. sürəksiz. subatsız. yaşamaz. yaşamsız. yaşayışsız. qalmaz. qalımsız. qalışsız. qalıcı olmayan. itimli. ölümlü. imiqsiz. keçəri. keçib gedcək. keçib gedən. çəkli. sürəksiz. məhdud. bəqasız. yoxalcan. yoxalqan. fani.

- axarı yatağına, **içi üzünə**, **üzü içinə durmaz**: qərarsız. dəğişgən. qayğan. günü gününə uymaz.

- toyuq şişər, **şişək olmaz**, **qubba (**günbəz**) üsdə**, **cəviz durmaz**.

- yaşam yolu, **durmaz eşinməz**, sözün deyər, söz eşitməz, yolun gedər, geri dönməz, yuxar gedər boşa çıxar, aşağ enər, yoxa **(**poxa**.)**. çıxar.

turmazın **durmazın. durmadan.** acıqar. acırqa. **(> azqar** (fars)**)**. dirirgə. iticə.

turmazın **durmazın**. durmadan. duranğsız. dirəngsiz **(< durmaq)**. ha birə. sürənğsiz. sürəncsiz. sallanmadan. aslanmadan. sürətli. axsınmadan. titizcə. dinlənmədən. əğlənmədən.

turmazlıq **durmazlıq**. ***1***. durumsuzluq. duraqsızlıq. dayaqsızlıq. dayasızlıq. dayanmazlıq. tayaqsızlıq. tayasızlıq. dayamsızlıq. dəvamsızlıq. qərarsızlıq. dönəklik. dibsizlik. cıdamsızlıq. sürəksizlik. subatsızlıq. ***1***. **durumsuzluq.** qalmazlıq. qalımsızlıq. qalışsızlıq. qalıcı olmazlıq. itimlilik. ölümlük. imiqsizlik. yaşamazlıq. yaşamsızlıq. keçərilik. keçib gedənlik. çəklilik. sürəksizlik. bəqasızlıq. fanilik.

turmşu **durmşu**. turuqı.

turmu **durmu**. pərişan (fars). barışan. buruşqan. ürpək. tükləri biz biz, miz miz şişmiş. qarışıq.

turmuş **durmuş. *1*.** ömür**.** yaşam**.** uzun ömürlülük **(**çocuqları sıx ölən ailələrin işlətdiyi adlardan**) *1*.** duran, yaşayan, canlı**. *1*.** yaşam, hayat**. *1***. birlikdə yaşayış. geçim. amiziş. imtizac. dirilik. yaşam. geçinmə. geçiniş. məişət. həyat. **-** güc **geçinmə. -** bol, qolay **geçiniş. - geçinmə qoşu**: həyat əsbabı**. -** böylə **geçim** olmaz. ***1***. yaşam. yaşantı.

- üy turmuş: ev yaşantısı**.**

turmuş **durmuş**. ***1***.qalmış. bayatı. bayatılmaya üz tutmuş. **- durmuş** yemiş. **- durmuş** yemək. ***1***. çalışmaz. işləməz. işsiz. kullanışsız. ***1***.ayaqda. yıxılmamış. qayim. ***1***.dirilik. dirlik. barlıq. varlıq. yaşam. həyat. ***1***.keçim. yaşam. yaşayış. yaşayış. ***1***.qapalı. bağlı. dayalı. dayanmış. ***1***. yağday. qasnaq. şərayit. ***1***.yaşam. yaşam. yaşama. yaşayış. dirim. dirlik. dirilik. keçim. ömr. həyat. ***1***. donluk. çevrə. əkiş. əkşin. yağday. ortam. ortalıq. aralıq. qasnaq. şərayit. hal əhval. hal ruhiyyə. quşaq. təvərək. dövərək. dövrə. dayrə. mihit. mühit. ***1***. **duran**. **durma**. qalma. qalmış. qalan. yadavul. yadiqar. anıt. əsgilərdən sürüb gəlmə, intiqal edmə. **-** olardan **qalma**. ***1***. **durma. durum.** qalım. qalma. qalış. yaşama. yaşam. yaşaş. yaşayış. bəqa'. ***1***. **durum**. yağday. görnüş. şəkil. siyim. qılıq. don. görnüş. görünüş. üz. əğinbaş. əyinbaş. üstbaş. üsbaş. geygeçim. qiyafə. zahir. heyə't. ***1***. əkiş. əkşin. yağday. mihit. mühit. qasnaq. şərayit. hal əhval. hal ruhiyyə. ***1***. qalmış. düşgün. əsgi tarixli. tarixi keçmiş. günü keçmiş: bayat. bayatı. savuq. sovuq. bitgin. yıprıq. köhnə.

- durmuş yağday: boluş. oluş. olan qoşut. olan ovza'.

- evlənməyib yalnız yaşam, durmuş istəyən: qoşqonmaz.

qoşqoymaz qoştutmaz. evlənməyən.

- yaşamı, **yağdayı**, **durmuşu kötü**: evi yanığ.

turmuş **durmuş**. **yaşam**. ***1***. dirim. **- yaşam**, dirim qaynağı sudur. ***1***. yörged. nərsənin keçirmiş, dolanmış, görmüş gedişləri, evrənləri, mərhələləri. bir nəyin, kimsənin yaşam keçimi, ötüşü, öyküsü, nağılı. yaşgeric. yaşkeçit. çəkiniş. keçiniş. sürnüş. yaşantış. yazıntış. yaşam yolu. yaşamöyküsü. yaşamötgüsü. olumluq. görümlük. ötrək. geçmiş. özgeçmiş. biyoqrafi. ***1***. yaşam biçimi, qoşutları, şərtləri. yaşantı. **-** şəhər, kənd, ev **yaşamı**. **yaşantısı**. **-** toplum **yaşamı**. ***1***. durum. məslək. **- iş yaşamı**. **-** dənizçilik, dağçılıq, köçərlik, elat, çöl **yaşamı**. ***1***. yaşam. yaşayış. yürütüş. yürtüş. məişət. eyş.***1***. canlılığı göstərən qaynaşma. **-** bu şəhər ölü bir yer, heç **yaşam** yox. ***1***. keçim. **- yaşamın** yazılarıyla qazanır.

- durmuş bir yarış, qoşan qazanır, yatan itirir.

- yaşama, **durmuşa gözlərin yummaq**: ölmək.

- yaşamı qaymaq: işləri pisəlmək, qarşmaq, tərs gedmək.

- yaşamına girmək: yaşamının bir böləyi olmaq. yaşamında yer almaq.

- yaşamın yaşamaq: ***1***. yaşamın keçirmək: yaşamın, varlığı

sürdürmək. olduğun sürmək, yaşamaq. öz başındakın qılmaq. ***1***. basqıdan, sıxıntıdan uzaq, dilədiyi, bəğəni, könlücə yaşamaq.

- durmuşa girmək: yaşama atılmaq. kəndi keçimin sağlamaq, qazanmaq.

- <u>yaşama</u>, <u>durmuşa</u> gözlərin yummaq: ölmək.

- yaşda, **yaşamda**, **durmuşda**, **dirimdə**, **dirilikldə olan**: yaş. yaşayan. yaşan. duran. duryan. diri.

turmuşaşa **durmuşaşa**. **durmuşdışı**. yaşamdışı. yaşamaşa. adi, mə'mul olmayan. gündə çıxmayan, görünməyən.

turmuşda **durmuşda**. dirilikdə. dirlikdə. barlıqda. varlıqda. yaşamda. həyatda.

turmuşlamaq **durmuşlamaq**. tormuzlamaq. qəmləmək. əngəlləmək. bastırmaq.

turmuşlu **durmuşlu**. ***1***. dirilikli. dirlikli. yaşayışlı. yaşamlı. keçimli. ***1***. **durumlu.** qalartı. qalartıq. qalımlı. qalışlı. yaşamlı. yaşayışlı. imiqli. itməz. ölməz. həmməşəlik. dayimi. baqi. bəqalı.

turmuşluq **durmuşluq**. **dirimlik yaşamlıq**. **həyati**. ***1***. yaşamağla dərəkli, irtibatlı, ilgili, bağlı nərsələr. **- dirimlik**, **yaşamlıq** işləri qoyasa, bir bilərəm neləyirəm. ***1***. önəmli. əhmiyətli. **-** bu

günün **dirimlik** sorusu nədir. **- dirimlik** işləri boşlayıb, nələrə önəm verirsiz. ***1***. dirimlik. yaşamlıq. keçimlik. ömürlük. həyati. həyatlıq.

turmuşmaq **durmuşmaq**. yaşamaq. görmək. tanıqmaq. izləmək. dolanmaq. gəzinmək. ərşinmək. keçirmək. çəkmək. uğramaq. sürmək. içində bulunmaq. üzlənmək. yapınılmaq. ərişmək. mə'ruz qalmaq. **-** bu ova çox olay **görmüş**. **-** bu qıssa sürədə nələr **görmədik**. **-** ilgi **görmək**. **-** iyilik, yardım, varlıq, yoxsulluq **görmək**.

turmuştışı **durmuşdışı**. **durmuşaşa**. yaşamdışı. yaşamaşa. adi, mə'mul olmayan. gündə çıxmayan, görünməyən.

turmuşunulmaq **durmuşunulmaq**. tanıqınılmaq. izlənmək. izdənilmək. iztənilmək. izərnilmək. görünülmək. yaşanılınmaq. dolanılınmaq. gəzinilmək. ərşinilmək. keçirilmək. çəkinilmək. uğranılmaq. sürünülmək. içində bulunulmaq. üzlənilmək. yapınılmaq. mə'ruz qalınmaq. **-** bu ovada çox olay **izlənilmiş**. **-** bu qıssa sürədə nələr **izlənilmiş**. **-** ilgi **izlənilmək**. **-** iyilik, yardım, varlıq, yoxsulluq **izlənilmək**.

turmuz tarmaz. bir çeşit xiyar.

turmuzlamaq **- aşırı davranışları önləmək**, **durmuzlamaq**, **tormuzlamaq**: düzgünləmək. dizginləmək. yularlamaq cilovlamaq. ovsarlamaq.

turna **- durub durub**, **durnanı gözündən vurmaq**: bəkliyərək işi iyisin yapmaq.

turna **durna**.***1***. qırruv. zurnuq. **- turna balığı**: irqay çapaq. ***1***. soqur. sona. qol qol, qatar qatar, dəsdə dəsdə uçan tanınmış quş. ***1***. turna quşu. ***1***. leylək çeşitləndən böyük, balıqçıl quş. iri, geniş qanatlı bir quş**.**

- mısır durnası.

- böyük sarquclı durna, **ki tükləri tuğlaya**, **qotuza taxılır**: qərqərə.

- durna qırı: durna boyalı qır**.**

- durna balığı: balığ çeşiti.

- durna qatarı: sürü ilə, dalı ba dal gəzənlərdən söz edəndə deyilir.

- durna qaqası: çiçək çeşiti.

- durna qırı: külə çalar at donu.

- durna keçidi: yaz fıtınası.

- durna gözü: ışıltılı, bərraq, sarı göz.

- durnayı gözündən vurmaq: ürəyi kimi nərsəni əldə edmək. **(**ələ salmaq üçündə söylənir**).**

turnaçı yeniçəri ocağında, doğançı kimi, əsgər cərgələrindən.

turnaq **durnağ**. ***1***. **durqab**. **durbağ**. durub. barınaq. dərgah. ***1***. **durumluluq**. dayanış. cidam. ciğdam. muqavimət.

turnuqlu **durnuqlu**. **durqunlu**. muqavim.

turnur qadınlar qarın altını **(**qarnın alt ön yanın**)** şişirmək üçün qoyan döşəkcik**.**

turp ***1***. aylıq turma.turma. ***1***. turma. tumra. tumər. ***1***. turmanzan**.** tırp**.** tıp**.** ***1***. yaxıcı bir kök. **- tur salatı**. **- turp rəndəsi**. **- eşək turpı**: **yabanı turp**. **- bayır turpı**: uzun irri, ağ çeşiti. **- kiraz turpı**: **qızıl turp**: **al turp**: duza batırıb, yeyilən qırmızı turp. **- kəstənə turpı**: qara, kiçi dənəli turp. **- turp kimi**: bərk sağlam, güclü.

turp **tırp**. **- eşşək turpu**: turp çeşiti.

- bayırturpı: iri, qoxulu bir tırp çeşiti.

- qırmızı turp: **qanturup.** qantorbası.

turpi durpi. ikə. iğə. qoğara.

- yuvarlaq turpi çeşiti: sıçan quyruği**.**

turpıl **durpıl**. talaş. dalaş. tıraş **>** təraş. qırıq. qırxım. qıraş.

turpılamaq durpılamaq. talaşalamaq. talaşlamaq. qırmaq. qıraşlamaq.

turpilmiş qıssa. tüpi. kəsik. biçik. güdə.

turpınlamaq **turbunlanmaq**. qıyas edmək. ölçümləmək.

turplamaq örnəkini yapmaq. ölçümləmək.

turpmaq **turpurmaq.** nərsənin qabalığın, qoğzaqlığın, tirişəsin gidərmək, qırmaq, kəsmək, yontmaq**.** saflamaq**.** düzəltmək**.** təmizləmək**.** ağlamaq**. -** ağacları **turpub** qutardıq: kəsib böldük**.**

turpu **torpu. türpü.** ağac yonan**.** yonqac**.** rəndə**.**

turpurmaq bax **> turpu**maq**.** qırmaq**.** kəsmək**.** yontmaq**.**

tursat **dursat**. sutun. situn. usadan. ucadan. astın. dirək.

tursi turuqsaq. durqun. dirənən. isrararlı olan.

tursu **turus. durus. dursu.** tamaşa. numayiş.

tursuq torsuq. tulum. dolum. tuluq. dolu. şişik.

tursun ! **dursun !**. ***1***. turqay **!**. ***1***. toxdasın **!** yaşasın **!**.

tursun **dursun** durması, yaşaması istənən**.** dursun**.** durdu**.** duran**.** durmuş**.** yaşam**.** ömür**.** uzun ömür.

tursunmaq düşmək. alçağmaq. tənəzzül edmək.

- biy atdan tüşərgə da tursunmay söləşdi: bəy atdan inməyə bilə düşmədən qonuştu**.**

tursuz **dursuz**. **türsüz**. **durumsuz**. qaqırdaq. qaqşaq. zayıf. halsız.

tursuzlanmaq **dursuzlanmaq.** halsızlanmaq. gücdən, quvvəddən düşmək.

tursuzluq **dursuzluq.** halsızlıq. zayıflıq.

turş ***1*.**əkşi. sumaq. ***1***.qımız. əkşi. **- qımız almıla**: turş alma**.** ***1***.turşi. açar. taqır. əkşi. ***1***.**durş**. **- turş turşa gəlmək**: turuşlaşmaq. turşamaq. durşamaq. **(< durmaq)**. duruşmaq. durşuqmaq. qarşı qarşıya gəlib bir işə quruşmaq. bəhsə, cəngə girişmək.

- turş kişi: əkşi üzlü**.** üzü sarxıq, turşa**.** ətacı**. - əktinin** biridir.

turş əkşi. əkşimiş. gəmiz.

- əkşi, **turş**, **sulu armıd çeşiti**: qaradal.

- kişi içi gözəlsə, **üzü çirkin**, **genə xoş gəlir**, **içi çirkinsə**, **üzü huri**, **genə turş gəlir**.

turşa sarxılıq. turşluq kişi. əkşik üzlü.

turşaq ***1***.ağac. çağrım. fərsəng. kilometr. ***1*.**sürgün**.**

turşalıq **turşuluq**. əkşilik. yapusluq **(> əbus)** yapıqlıq. qapalıq. boğnaqlıq. somurtqan. asığlıq. sallaqlıq. qaşqabaqlıq.

turşalmaq **turşulmaq**. **tükşürülmək (< tuq**: bükük**).** bürkülmək. burtılmaq. burtuq olmaq. buruşmaq.

turşamaq ***1***. **(**qarın. ürək**)**. əkşimək. qabarmaq. bulanmaq. pozulmaq. ***1***. pıqramaq. fıqramaq. əkşimək. acımaq. mayalanmaq.

turşamaq **durşamaq**. **(< durmaq)**. duruşmaq. durşuqmaq. turuşlaşmaq. turş turşa gəlmək. qarşı qarşıya gəlib bir işə quruşmaq. bəhsə, cəngə girişmək.

turşatmaq ***1*. (r < > ğ < > q) < tuq.** tuğşatmaq**.** tuğşatmaq**.** yığmaq**.** ***1*. < tum.** tumşatmaq**.** yığmaq, büzmək**.** ***1*.**bükmək. əğritmək. əğirmək. **- üz əğritmək**: üzün sarqıtmaq**.** ***1*.**coğşatmaq çuğşatmaq**.** tuvşatmaq. çuvşatmaq. coşdurmaq. qaynatmaq. coşdurmaq**.** əkşitmək. **-** çaxır **tuvşatmaq**. **-** sirkə qarnımı **tuvşatdı**.

turşi ***1***.**(< tuqşi**: toxdanmış. tutulmuş. bağlanmış**)**. tutum. duz, sirkə ilə qurulub, yatırılmış yeməklər.**-** sarımsaq **tutumu**. **-** yetcə **tutumu**: həfdəcicar. **-** soğan **tutumu**. ***1***.**durşi**. açar. iştahı açan nərsə. nərsəni basdırıb durdurmaq, saxlatmaq. **-** qızıvı nəyə **durdurmusan (**saxlamısan**)**, **turşu** qoyacaqsan. ***1*.**turş. açar. taqır. əkşi.

turşluq ***1*.**əkşil. tutum. ***1***.əkşilik. əksilik. tərslik. sərtlik. pis xuyluq. **- turşluq kişi**: sarxılıq**.** turşa**.** əkşik üzlü**.**

turşluq əkşimişlik. əkşilik. gəmizlik.

turşsamaq acıqsamaq. canı turş, əkşi istəmək.

turşu turşu **tuşu tuşu.** eşəki durdurmaq üçün söylənən söz. **-**.

turşu ***1***.açar. ***1***.**turuş. (< dur).** durdurulmuş, saxlanılmış nərsə**.** turuş**.** yemişlə, tərə barı doğruyub, küpə yığıb, sirkə, yaxud duz ilə su artırıb, **durdurulan**, saxlanan çərəz**.**

turşu qarın açar. açar. iştahladan. meyilləndirən.

- baxcasında tomata, al yap onu salata, vermədi səni anan, <u>turşu</u> qoysun çor atan.

- turşu qoyulan kiçik soğan: incalız. ısqa. qısqa.

turşuca quru lumu**.** əmani **(**lumu**).**

turşuqmaq **durşuqmaq**. **duruşmaq**. turşamaq. durşamaq. **(< durmaq)**. turuşlaşmaq. turş turşa gəlmək. qarşı qarşıya gəlib bir işə quruşmaq. bəhsə, cəngə girişmək.

turşulmaq **tükşürülmək**. **turşalmaq (< tuq**: bükük**).** bürkülmək. burtılmaq. burtuq olmaq. buruşmaq.

turşulu **durşulu (< durmaq)**. ***1***. sərt. qatıq. qabaq. qırıcıq. tərs. ***1***. cidamlı. dözümlü. muqavim. ***1***. güclü. qolçomaq.

turşuluq **durşuluq**. **(< durmaq)**. ***1***. sərtlik. qapızlıq. qapazlıq. qatılıq. qabalıq. qırıcılıq. tərslik. ***1***. cidamlılıq. dözümlülük. ***1***. güclülük.

turşuluq **turşalıq**. əkşilik. yapusluq **(> əbus)** yapıqlıq. qapalıq. boğnaqlıq. somurtqan. asığlıq. sallaqlıq. qaşqabaqlıq.

turşumaq ***1.***dəğirmək. dəğrəmək. dəğişmək. nərsənin dadı çönmək. qoxumuyaraq əkşimək. ***1***.əkşimək. qıcqırmaq. kıçkırmaq.

turşumsı əkşimisi. əkşisi. gəmizsi.

turşumsu **- az dadalı**, **turşumsu armıd çeşiti**: qaratıqız.

turşunmaq **durşunmaq**. **dirsəlmək**. azmaq. qalxmaq. oyanmaq. əzm, qəsd, ahəng edmək.

turşut **durşut (< durmaq)**. ***1***. **durbağ**. heybət. heykəl. yapıt. qapıt. bağaq. bükək. toxut. öğək. örək. hörək. biçit. çıqqın **(< ciq)**. yükür. kürdə. gördə. kürüt. qurduq. qurum. dayqın. əzəmət. şovkət. ***1***. sərt. qatı. qatraq. qaba. kötük. gödük. qırıcıl. tərs. ***1***. cidam. dözüm. tablaş. muqavim. ***1***. güclü. qolçomaq. zorlu.

turşutlu **durşutlu**. **durşutuq**. durbağlı. dayqanlı. dayqınlı. heybətli. heykəlli. ataigid. aznavur. bağaqlı. bağtaylı. biçitli. biçitik. böğə. buğa. bükəkli. cığasın. çıqqınlı **(< ciq)**. gördəli. hörəkli. kürdəli. kürdək. kürküt. kürütlü. qabtaylı. qaqaylı. qapdallı. qapıtlı. qudruqlu. qurduqlu. qurumlu. toxduruq.

toxuşlu. toxutuq. yapıtlı. yaptallı. yüklü. yükürük. yükürt. şovkətli. əzəmətli.

turşutuq **durşutuq**. **durşutlu**. durbağlı. dayqanlı. dayqınlı. heybətli. heykəlli. ataigid. aznavur. bağaqlı. bağtaylı. biçitli. biçitik. böğə. buğa. bükəkli. cığasın. çıqqınlı **(< ciq)**. gördəli. hörəkli. kürdəli. kürdək. kürküt. kürütlü. qabtaylı. qaqaylı. qapdallı. qapıtlı. qudruqlu. qurduqlu. qurumlu. toxduruq. toxuşlu. toxutuq. yapıtlı. yaptallı. yüklü. yükürük. yükürt. şovkətli. əzəmətli.

turta **durda**. **torta (< durmaq)**. köçək.

turta **durda**.bax **> torta**.

turta torta. dürd.

turtacı **turdacı**. turquçı. durquçu. durucu. duran. turan.

turtaq **durdaq**. davarlıq. tavrıq. qoyaq. xəznə. ambar.

turtan tortan. ***1.*** qursaq. ***1.*** kürk. postun. pustun. örtük.

turtaş **durdaş**. **dürdaş**. **türdəş**. durumdaş. haldaş. həmhal.

turteqer saxlayan**.**

turtu **durdu. *1.*** duran**.** sağ**.** salım**.** yaşar**.** yaşayan**.** qalıcı**.** ömürlü**. *1.*** yaşam**.** hayat**. *1*.** durub. qalmağ **- durduğu durmadığı** birdir: durub durmadığı birdir**.** qalıb qalmadığı birdir**.**

turtu **durdu**. **tortu**. **torta**. çöküntü. çökələk.

- gizlinpac oyununda, qurdun, əbənin durduğu yer: qala. gizildək.

turtub **(< durmaq)**. törtüb. dörtüb. toplancaq. məcmənə. məclis.

turtuqu **- dirək**, **situnun dayandığı, durduğu yuva**, **oyuq**, **dayaq**: ısqaca. qısqaca.

turtulmaq durtulmaq: durmaq**.** dirçəlmək**.** bir yerə, bir yerdən çıxmaq **{# türtülmək.** dürtülmək**.** bir yerə girmək**}.**

turtunluq **durdunluq**. duraqsıtı.kasatlıq.

turturaq **durduraq**. **duracaq**. **duranaq**. dayanaq. dəstək.

turturamayan **durduramayan**. dikətəməyən. ayağa qalxdıramayan, durduramayan. qaldıramayan.

turturamaz **- hər gələn**, **gedişi durduramaz**: it hürür kərvan yürür. it hürür, yol açıqsa, kərvan yürür.

turturan **durduran**. qatıladan. qatıl. dayaq. dirək. dirsək.

turturma **durdurma**. baramta. əngəlləmə. dondurma.

turturma **durdurma**. qaldırma. bıraxma. ibqa.

- nərsəni saxlama, **qoruma**, **durdurma**, **sürmə**, **sürdürmə**, **dəvam ettirmə**: qalma.

turturmaq **durdurmaq**. ***1***. qaldırmaq. bıraqmaq. ibqa edmək. ***1***. qapamaq. bağlamaq. önləmək. önünü almaq. mən'

edmək. **- suyu bağla**. ***1***. savışdırmaq. geçirmək. aşırmaq. alğıtmaq. atlatmaq. uçurtmaq. üzdürmək. **- baş ağrımı geçirdi**. ***1***. dayatmaq. dayıtmaq. sıxıtmaq. saxlatmaq. **- dayat bir**!: sıxıt bir!: saxlat bir!: durdur bir!. ***1***. qaldırmaq. **- bir parçanı**, **bezi istədiyi biçimdə <u>qaldırmaq</u>**, **<u>durdurmaq</u> üçün**, **iki yekə döşəkli**, **buxarlı arac arasında sıxışdırmaq**, **ütüləmək**: qalandır. **-**.

turturmaq **durdurmaq**. ***1***.önləmək. bastırmaq. ***1***.çəkiştirmək. basıştırmaq. yatıştırmaq. qısaclamaq. qısqaçlamaq. sıxışdırmaq. qısıştırmaq. gücləmək. darıtmaq. zorlamaq. ***1***.doğrulamaq. dayamlamaq. dayaqlamaq. sağlamaq. saxlamaq. ayaqlatmaq. qoldalamaq. qollamaq. arqaşlamaq. qorlamaq. qorumaq. əsirgəmək. qayırmaq. qayğırmaq. gözətmək. bəkitmək. güddəmək. arxalamaq. siyanət edmək. siyanətləmək. sayqaymaq. sayqaylamaq. dəsdəkləmək. əlindən tutmaq. tə'yid edmək. ***1***.geçmək. yana, qırağa atmaq. **- bu konudan keçəlim**. **- yasa konusun keç**.***1***.qaldırmaq. qalxızmaq. ***1***.saxlamaq. bəklətmək. **- araba niyə axlandı**. ***1***.sağaltmaq. tikmək. nəsb edmək. ***1***. dayatmaq. dayıtmaq. sürütmək. qaldırmaq. geri qoydurmaq. saxlatmaq. baqi edidmək. **-**

bu yapı çox əsgidən **dayatılır**. **-** atalara **dayatan**, gec yorulur. ***1***. durqurmaq. tikmək. yapmaq. bina edmək. ***1***. oturtmaq. yerləşdirmək. ***1***.saxlatmaq. avutmaq. geciktirmək. alıqoymaq.

turturmaq **durdurmaq**. **turquzmaq. *1*.** yerləşdirmək. müqim edmək. iqamə, iqamət etdirmək. ***1*.** toxdatmaq. ***1*.** tutmaq. toquqlamaq. toqifləmək. ***1***.savdurmaq. keçirmək. dəf etdirmək. qoğdurmaq. **-** baş ağrısını **savdurdum**.***1***. tovrandırmaq. tavrandırmaq. dikəltmək. ayağa qaldırmaq.

turturulmaq **durdurulmaq**. ***1***.əngəl olunmaq. alıqonulmaq. alıqonmaq. alıqoyulmaq. ***1***.moquf olmaq.

turturulmuş **durdurulmuş**. dayandırılmış. movquf.

turturuş **durduruş**. dayalış. buraxış bıraxış. qapalış. ***1***. ara. tənəffüs. antırakt. fasilə. ***1***. tə'til. bağlı. ***1***. tə'tilat. vəkans.

turtut **durdut!. durut!.** dayat!. saxlat!. saxdat!. dözüt!. çəkit!.

turtut **durtut**. ***1***. zəbt o rəbt. ***1***. itaət. inqiyad.

turu ***1***. arıt. arıc. arış. arınc. arın. araq. arıq. təmiz. pak. net. ***1***. **(**sıvıq, suyuq nərsə**)**. incə. incğə. işgə. açıq. qoyu, quyuq, qəliz, bərk olmayan. ***1***.durqun. ***1***.diri. canlı. **- duru ürək**: diri, canlı könül. ***1***.dumansız. bulanıqsız. saydam.

bərraq. ***1***.duruq. ***1***.aydın. ışıqlı. bərraq. aydınlanmış. anlaşılır. düşünülür. qanıltaq. aşqar. vazeh.

- işi duru olmayan: suyu sütlü.

- aydan arı, **gündən duru**.

- duru, **arın**, **təmiz olmayan**: boz bulanıq.

turu **duru.** ***1***.arıs**.** saf**.** ***1***.bax **> dürü**. ***1***. açıq. alənən. ***1***. açıq yürəkli. ***1***.tınıq. tiniq. yatuq. sakin. donuq. tonuq. axmaz. saf. şəffaf. saydam. salıq. təkiz. sayğal. sığallı. şəffaf. ***1.*** **doğru.** duraqlı. duralı. duran. yaşayan. ömürlü. qararlı. düzənli. dəngəli. durqun. səkin. ***1.*** **doğru.** duru. parraq. arıq. saf. açıq. durulmuş. net. bəlli. aydın. saf. anlaşıqlı. dinc. ***1.*** **doğru.** yalın**.** sadə**.** ***1***. **duruş**. dəvam. **-** işlərin duru pozuldu. **-** işi başlamaq birdir, durusu mindir. ***1***. **duruş**. süzük. saf. arın.

- turu söz açı tiyər: açıq söz acı toxunur.

turu **duru**. **turuq**. **duruq**. ***1***. bərraq. açıq. saf. günəş kimi. parlaq. təpən **(** **>** daban**)**. **- duru** su. ***1***. teyxa. çin. xalis. tamla. damla. **- damla daş**: bərk duru, göz kimi daş. **- damla** söz: çin söz. **- damla** qızıl: som qızıl. **- damla** qız: çox gözəl, arıq incə qız. ***1.*** təvam. dəvam. duruş. **-** işlərin **duru**

pozuldu**. -** işi başlamaq birdir, **durusu** mindir**.**

- içi duru kişi: bön kişi**.** öküz**.** köylü**.** kəndli.

turub **- durub dinlənmədən**: solıvsız**.** fasiləsiz**.** dəvamlı**.**

turub **durub**. ***1***.barıq. barq. barınaq. ev. qonut. yurd. yerləş. məskən. ***1***. **durqab**. **durnağ**. **durbağ**. dərgah. baraqah. barqah.

turubaq **durubağ**. **durbaq**. **durubqa**. **tırobqa**. **turubqa**.kitik. tıxac. tırafik. çitik. basabas.

turubqa **tırobqa**.**durubqa**. **durubağ**. **durbaq**. kitik. tıxac. tırafik. çitik. basabas.

turuc **duruc. duruş. durum.** yoluq. yolaq. yolac. yolaş. yolanc. yönəş. yön. yengiş. engiş. doğruq.

turucu **durucu**. ***1***.duran. turan. turquçı. durquçu. turdaçı. ***1***. qalıcı**.** ömürlü**.** uzun ömürlü**.** turqut**.** turcıq**.** turağut**.** uzun yaşamlı**.**

turucu **durucu**. **qalıcı**. ***1***.qalımlı. dayimi. dəvamlı. ***1***.qalımlı.həmməşəlik. cavid. cavidan. paydar. zavalsız.

turuculuq **duruculuq**. qalıcılıq.bənqu yaşam. ölməzlik.

turuçı durucu. durmayı iş edinən.

turugəlmək **durugəlmək**. ***1***. **qalıgəlmək**. girişmək. ***1***. qalxıb gəlmək, yerimək.

turugəlmək **durugəlmək.** bax **> durmaq.**

turuq **duruq**. ***1***. **dur**. bitin. kəs. kəsin. istop. ist. ***1***. **durqu. durum. duruş. türük. türkü.** sanı. qonuş. əhval. hal. ***1***. **duruş**. **durum**. qılıq. qılış. qılım. qılıt. şəkil. çəkil. çəkiş. çəkim. çəkit. qapat. yapat. çapat. çapaq. çapıt. çapıq. salaq. salıq. salış. sayaq. sayıq. sayış. çağday. çağlıq. çağlış. yağday. yağlıq. yağlış. vəsf: vəsif. sifət. ***1***. olum. yarıt. imkan. ***1***. **duruğ** (fars) **< törük (< törəmək**. **töləmək**: doğmaq. doğurmaq**)**. yalan.

- bir **olum (**imkan**)** ver bir: bir **yarıt** ver qıl.

- bir **duruq (**yarıt. imkan**)** tapsa.

- burunduruq: yavaşa.

- olumsuzluqdan, nə desən çəxar. yarıtsızlıqdan. olmazlıqdan. duruqsuzluqdan. imkansızlıqdan.

- olumsuzluq: **olmazlıq**. duruqsuz. yarıtsız. imkansızlıq.

- olumlu: **duruqlu**. yarıtlı. imkanlı.

turuq **duruq**. **doruq (*1***. **< durmaq**. ***1***. **< tuqur**. **toqur**: düğün.**)**. ***1***. təpə, dağın, böyük nərsənin ən yuxarsı, ən yüksək yeri, ucu, uruc nuqtəsi. uc. zirvə. siud. üstüq **>** estiğ **>** setiğ (fars)**.** kərəmpə. çıxat. son. nəhayət. sınır. baş. yuxar. çıxat. qullə. qıyı. qıraq. ***1***.**duruğ**. duruş. barış. varış.

boluş. oluş. biçiş. hal. qonuş.çevrim. çevriş. çap. güc. qaldırı. vəziyyət.***1***. sabit. sakin. oranlı. oranşlı. qərarlı. ***1***. duru.

turuq **duruq**. **duruğ. (< *1*.** ötrük: dayaqsız ötürülmüş söz**.). *1*.** yalan. duru. saf. ***1***. sakit**.** sabit. ***1***. duru, durucu**.*1*.tunuq (** # **tünük**: **donuq.** qapalı**.** bağlı**.** qaranlıq**).** duruq. toxdamış. sabit. saydam. açıq. layasız. ləkəsiz. iziz. izsiz. tünüz. tünsüz. şəffaf. müsəffa. cəlil. ***1*. törük**. alıq. aciz. zayıf. ***1*.** sığıncaq**.** duraq**.** qalaq**.** pənahqah**.** ***1*.** bez. qabar, dolama kimi nərsə. ***1***. yığılma yeri. ***1***. tırıq. arıq. incə. ***1***.ayağda duracaq yer. ***1***. **doruq**. təpə. şişik. dik. qalaq. təpə. zirvə. ***1***. **doruq**. nərsənin, başına dək duldurulması. komala, təpələmə doldurmaq. komalaq. **- duruqlu** ölçək. ***1***. **doruq**. **turu**. **duru**. bərraq. açıq. saf. **- duru** su.

- burun duruq: heyvanın ağız burun bağı**.** tumşuq bağı**.** əsnək**.**

- örə turuq: kökü quruyub devrilmədən ayağda qurumuş ağac.

turuqalmaq **duruqalmaq.** duraqlamaq**.** duruqmaq**.** tumuqmaq**.** şaşıb qalmaq**.**

turuqı durmşu.

turuqlaq ***1.*** duraq. durqa. durqaq. dayancaq. ***1.*** əkin**.** tarla. tarqlıq.

turuqlamaq **duruqlamaq.** ***1***. duruğuna, boyuna, uzunluğuna ölçmək. **-** yer **turqulamaq. -** yol amacıvı durqula, işə çıx**.** ***1***. **turuqlanmaq.** durqunlaşmaq. durqun, arqın düşmək. qurumaq. arıqlamaq. zayıflamaq. **-** kök kişi yeməsə **duruqlar. -** sıcaq hava **duruqlatır. -** az yeyir duruqlur, çox yeyir tırıqlır**.** ***1***. nərsəni başına dək doldurmaq. komalamaq. təpələmək. **-** ölçəyi **duruqladı**.

turuqlamaq **duruqlamaq**. olumlamaq. yarıtlamaq. imkan vermək, yaratmaq. **-** iki kərə onu **duruqladıq**, bacarmadı.

turuqlı durmayı düşünən, tasarlayan.

turuqlu **duruğlu**. **durumlu**. tutamlı. tutumlı. keçimli. çevrişli. çevrimli. törəli. qonuşuq. barışıq. varışıq. boluşıq. oluşıq. biçişik. çaplı. taxımlı. qılıqlı. çatımlı. dənli. dənğli. dəkli. dəhli. xoşqılıq. əxlaqlı. rəftarlı. xuylu.

turuqluq turquluq. tırıqlıq. durqunluq. cılızlıq. arıqlıq. zayıflıq.

turuqmaq **duruqmaq**. ***1***.durmaq. toplanmaq. dolmalanmaq. ***1***.yığılmaq**.** toplanmaq**. -** qan **duruqdu.**

turuqmaq **duruqmaq**. **durmaq**. **duraqlamaq**. ***1***.qərar çıxarmaq. ***1***. israr, tə'kid edmək.

turuqsaq durqun. dursi. dirənən. isrararlı olan. bir nərsədə düşgün, müsirr olmaq. **(**bir nərsəni, bir nərsədə**)** durmaq, qalmaq, yaşamaq sevən. **-** yaşama pula, vara **duruqsaq. -** şəhvətə **duruqsaq.**

turuqsamaq dursunmaq.

turuqsamaq **duruqsamaq**. ***1***.qoyvanmaq. vellənmək. yubanmaq. **-** işlərində **qoyvanma**. ***1***.vellənmək. qoyvanmaq. yubanmaq. **-** işlərində **qoyvanma.**

turuqsamaq **duruqsamaq**. **duraqsamaq**.

turuqsi **duruqsi**. quşqu. tərəddüd.

turuqsun **duruqsun. *1***.duraqlı. duralı. qararlı. düzənli. dəngəli. davamlı. duru. açıq. net. bəlli. aydınlıq. saf. anlaşlıqlı. seyrək. dinc. dəğişməyən. ***1.***tumuğan. çəkişgin. quşqulu. düşqülü. düşlü. qararsız. düzənsiz. dəngəsiz. davamsız. daldan dala qonan. dönək. oynaq. yeltək. bələşik.

turuqsunmaq **duruqsunmaq**. tumuqmaq. durmaq. şaşmaq. heyrətə dalmaq. **-** bunu eşidib **durdu**. **-** gözlərinə inanmayıb **durdu**.

turuqsuz **duruğsuz**. **durumsuz**. tutamsız. törəsiz. çevrişsiz. çevrimsiz. keçimsiz. geçişsiz. qonuşsuz. barışsız. varışsız. boluşsuz. oluşsuz. biçişsiz. çapsız. qılıqsız. qırbal. qırban. çataq. qaqırcanğ. bükülməz. tərs. dik.

çatımsız. donquz. tonğqa. tonqa. toqqa. danqaz. sırtıq. üzdən gedməz. qara astar. qarastar. inad. tıxız. pisqılıq. əxlaqsız. pisrəftar.yarçın. yarşın. koryat. çalan. çalanğ. bədəxlaq. xuysuz.

turuqsuz **duruqsuz**. **duraqsız**. ***1***. dəğişgən. düzənsiz. dəngəsiz. ***1***. yeltək. gəlgeç. subatsız. ***1***. kəsinsiz. qanıqsız. qanıtsız. oransız. oranşsız. qərarsız. ***1***. tutamsız. tutumsuz. ölçüsüz. ***1***. quşqulu. işgilli. oransız. oranşsız. qərarsız.

turul **- daram durul**: dar düdük. dar güdə olan.

turul **durul. *1*.** yenglik**.** dinclik**.** hizur**. *1*.** qınaqsız**.** arınıq**. *1*.** qohum.

turulacaq **- durulacaq yer**: duraq. gözləği. gözləmə. bəkləmə. gözləm. bəkləm **(**yeri**)**. durma. bölmə. istqah.

turulamaq **durulamaq. *1*.** suya çəkmək**. *1*.** təmizləmək**. *1*.** parıldatmaq**. *1*.** bax **> durmaq. *1*.** duruqlamaq**.** yatırmaq**.** dincətmək**.** sağınlatma**.**

turulamaq **durulamaq**. ***1***.**(**yuğunmuş nərsni**)** suva çəkmək. ***1***.ağatmaq. bəraətləmək.

turulan durqac**.** duraq**.** yaşanılan yer**.**

turulanmaq **durulanmaq**. ***1***.**(**yuğunmuş nərsni**)** suva çəkinmək. ***1***.ağarınmaq. bəraətlənmək.

turulaşmaq **durulaşmaq**. **durulanmaq**. ağarınmaq. bəraətlənmək.

turulca **durulca.** suçsuz**.** arın**.** qınsız**.** günahsız**.** məsum**.**

turulma **durulma**. ***1***. aydınlanma. ışıq alma. ışıqlanma. açıqlanış. açıqlanma. açılma. anlaşılma. ***1***. oturma. yerləşmə. oturma. istiqrar.

turulmaq **durulmaq (< durmaq)**. ***1***. açılmaq. tortusu dibə durub, açıq ayınlaşmaq. süzülmək. çökmək. durub tortısı dibə çökmək. **-** su **duruldu**. ***1***. durmaq işini görmək. qərar tutmaq. sakinləşmək. **-** beş gün burda **durulmalıyıq**. **-** su **duruldu**. ***1***. uslanmaq. yaramazlığı, bulantılığı keçmək. ***1.*** **durultmaq(< durmaq)**. açmaq. tortılı nərsəni durdurub, tortısın dibə köçdürüb arıtlatmaq, aydınlatmaq. təsfiyə edmək. ***1.*** bax **> durmaq.** dinmək**.** kəsilmək**.** yatışmaq**.** ***1.*** tortusu yatıb**.** ayılmaq**.** ***1.*** uslanmaq**.** aydınlaşmaq**.*1***.yorulmaq. tuqunmaq. tükünmək. usanmaq. bıqmaq. bezmək. **-** işləməkdən **turulduq. -** yeməkdən **turulduq.** ***1***.tınmaq. sakinləşmək. dinmək.

turulmaq **durulmaq**. ***1***. **durulmaq**. **duranğamaq**. **dirəngmək (< durmaq)**. bəklənmək. əğlənmək. əklənmək. sallanmaq. aslanmaq. sürənğəmək. sürənğizmək. axsınmaq. dinlənmək. təvəqqüf edmək. ***1***. bəlirləşmək **< >**

bilurlaşmaq. açıqlaşmaq. olqunlaşmaq. ***1***. bəlirmək. seçilmək. açıxlığa qovuşmaq. ***1***. dayanmaq. dönüb dolaşıb, arayıb araşdırıb, sonunda bir yerdə, ölçüdə, çəkdə nuxdədə durmaq, qərar qılmaq. **-** işin sonu paraya **dayandı**. ***1***.bulunmaq. tapınmaq. **- sözüzdə tapının**: qovluzsa durulun. ***1***.dinlənmək. rahatlanmaq. ***1***.dinlənmək. aydınlanmaq. açılnmaq. uslanmaq. ***1***.dininmək. bitinmək. sakinləşmək. ***1***.dinənmək. yatışmaq. qoyulmaq. qərar tapmaq. duraqlamaq. mütəvəqqif olmaq. ***1***.qaldırınmaq. dözünmək. tablaşınmaq. ***1***.qalxınmaq. oyanmaq. oynanmaq ***1***.qalınmaq. dəvam edinmək. **- balsız kovanda**, **arı durulmaz**: qazancsız yerdə kimsə duraqlanamaz.***1***.saxlanılmaq. bəklənilmək. ***1***.sıxınmaq. saxlanmaq. sıxışmaq. dayanılmaq. ***1***.sürünmək. qalınmaq. baqi qalmaq. ***1***. safalmaq. arınmaq. süzülmək

- atalardan **durulan** gələnəklər: qalan.

- başında durulmaq: özü güdmək.

- doğru durulmaq: ***1***.uslu, dinc işləmək. sapmamaq. suç, əğri, xəta qılmamaq. ***1***.dikinə qalxmaq.

- geri durulmaq: çəkinmək. qaçınmaq. sakınmaq. yanaşmamaq.

- boğazına durmaq: yediyini utamamaq.

- boş durulmaq: işsiz, bekar qalmaq.

- durub dayanmaq: **durub durumaq**: **durub bulanmaq**:

dözmək. təhəmmül edmək.

dişini sıxmaq.

- heç durulmazın: ardı arası, arxası kəsilməzin.

- qarşı durulmaq: **qafa durulmaq**: baş gəlinmək. baş qalxızınmaq, qaldırınmaq. başqınmaq. daşqınmaq. inadçılıq edinmək. muxalifət, muqabilə edmək.

turulmamış **durulmamış**. oturmamış. yerləşməmiş. istiqrarsız.

turulmaz **durulmaz.** yaramaz**.**

turulmuş **durulmuş**. ***1***. **(**su. suyuq**)**. dinlənmiş. ***1***. oturmuş. yerləşmiş. istiqrarlı.

turulmuş **durulmuş.** durqun**.** dinc**.**

turulmuşluq **durulmuşluq**. oturmuşluq. yerləşmişlik. istiqrarlılıq.

turuluq duruluq. arıqlıq. saflıq. təmizlik.

- duruluğun gedmək: bulanmaq. qərəlmək. qararmaq. qaralmaq. **-** bulut çıxıb hava **qaraldı**. **-** günəşə baxdım **gözüm qarardı**. **-** uçurumdan, köprüdən aşağı baxdım **gözüm qarardı**. **-** baş gicəllənib, gözün qararlmasın.

- duruluğun gidərmək: bulandırmaq. qərətmək. qarartmaq. qaratmaq. **-** bulut çıxıb havanı **qarartdı**.

turum **durum. *1*.** duruş**.** axım**.** yol**.** cızıq**.** sınır**.** təhər**.** cür**.** tutum**.** davranış**.** ortam**.** çevrə**. *1*.** sürgən**.** duruş**.** yaşam**.** ömür**. - durumtay**: yaşam kişisi**. *1*.** saqunluq. səkinlik. durgunluq. ***1***. qoşul. şərayit. ortam. törə. törən. devrə. çevrə. mihit. atmosfer. ***1***. taq. taqa. taqat. taqət. dözüm. ***1***. hal. tutam. tür. cür. duruş. turuş. hal. olağ. oluğ. bolağ. boluğ. hal. əhval. qarabet. şərayit. vəziyyət. qın. gün. olum. **-** xəstəlik **tutamı**: naxoşluq halı. **- tutamı** yaman. **- tutamı** əldə tutmaq gərək. **-** tutamı pozuq. **-** iyi **tutamlı** kişi: halı yaxcı. **- tutamı** qolay: dinc hallı. rahat. ***1***. uzunluq. boy. bir kişi boyu olan uzunluq. **-** gölün bir ər **turumu** dərinliyindədi**. *1*.** qırtış. abıhava. ***1***.alus. yaluş. duruş. hal. vəziyyət. iş güc. ***1***.biçim**.** quram**. *1*.** bolum. olum. vaziyət. ***1***. törə. ***1***. görünüş. ***1***. yaşam. ömür.

- bılayda tavların turumu arudu: burada dağların görüntüşü gözəldir**.**

- qonşusu yamannı turumu aman: qomşusu kötü olanın yaşamı da kötü olur.

turum **durum**. ***1***. **dür**. **dur**. hal. don. orun. yağday. vəziyyət. **- dumanlı durum**: gərgin hal, vəziyyət. **- durlı dürli**: hallı mallı. ***1***. dirim. iç. keyfiyyət. ***1***. dözüm. tablaş. çəkim. taqat. dayanım. dözüm. taqat. dayanım. çəkişim. çəkişmə. çəkiş. təhəmmül. ***1***.dalqa. gəlişim. yetişim. ərişim. orun. yağday. vəziyyət. hal.***1***. buluntu. buluntuş. bulunuş. bulnuş. bulnut. vəziyyət. qasnaq. şərayit. ***1***. **durma. durmuş.** qalım. qalma. qalış. yaşama. yaşam. yaşaş. yaşayış. bəqa'. ***1***. **durma**. **duruş**. qalma. qalış. qalım. bulunma. buluş. olunma. oluş. bolunma. boluş. ***1***. **durmuş**. yağday. görnüş. şəkil. siyim. qılıq. don. görnüş. görünüş. üz. əğinbaş. əyinbaş. üstbaş. üsbaş. geygeçim. qiyafə. zahir. heyə't. ***1***. durmuş. yaşam. məslək. **-** iş **yaşamı**. **-** dənizçilik, dağçılıq, köçərlik, elat, çöl **yaşamı**. ***1***. **duruq**. **duruş**. qılıq. qılış. qılım. qılıt. şəkil. çəkil. çəkiş. çəkim. çəkit. qapat. yapat. çapat. çapaq. çapıt. çapıq. salaq. salıq. salış. sayaq. sayıq. sayış. çağday. çağlıq. çağlış. yağday. yağlıq. yağlış. vəsf: vəsif. sifət.***1***. **duruş. duruc.** yoluq. yolaq. yolac. yolaş. yolanc. yönəş. yön. yengiş. engiş. doğruq. ***1***. **duruş**. qonuş. hal. qasnaq. şərayit. vəziyyət. ***1***. qasnaq. şərayit. ***1***. tutum. **- ad**

tutumu, **durumu**: adın halı. çəkim əki almış adın, aldığı biçim, şəkil. ***1***. yakıc. yaxıc. yaxış. yapıc. yapış. yaxşıq. tapış. tərz. biçiş. biçim. biçik. ***1***. ərişim. vəziyyət. hal. qonuş. dalqa. ***1***. iş. hal. vəziyyət. **- işim** çox ilərləmiş. ***1***. valıq. **- durumu**, **valığı iyiləşmək**: çulu düzəlmək. ***1***. **durqu. duruş. türük. türkü.** sanı. qonuş. əhval. hal. iş. hal. xisus.

- duyuş durumu: ruhi halət.

- qırılacaq, **gərgin durum**: qırız. qırış. kıriz. böhran.

- qapalı, çıxılmaz bir yerdən, durumdan çalınan, açılan yol: çalım. çaluq. çalıq. **-** bataqlığı qurutmaq üçü **çalım vuruldu**. **-** düşdük elə bir çalıya, çıxılmağa yox güman **çalım.**

- nərsənin ilkin, **ibtidayi şəkli**, **durumu**, **halı**: qanağ. qanav. qanava. qanata. taslaq. düzənəc. düzənək. tərh. tasa.taslaq. çeşit. tip. tasar. pılan. tora. nəqşə. dazlaq. nəxşə. tasarı. pılan.

- bu qapdalda, **yağdayda**, **durumda**, **şərayitdə**, **halda**: buncalayın. **- bu qapdalda**, **yağdayda**, **durumda**, **şərayitdə**, **halda**: buncalayın. **- cıdam durum**. arxalı durum. qəvam dəvam. **- güc durum**: güclük. girivə.zorluq. **- güc**, **zor durum**: çəlşik. çəlişik. açmaz.

- durum dəğişmək: düşmək. **-** dal qola **düşmək**: dallı budaqlanmaq.

- güc durumda qalmaq: qalıqlamaq. qalaqlamaq. qalaqalmaq. **-** qaranlıq düşdü, **qalaqaldıq**.

- olduğu durumdan başqasına (başqa duruma) düşürmək, **salmaq**: itmək. **-** o məni, yamandan yamana **itdi**.

- tədirginsiz, **üzüntüsüz**, **üzünsüz**, **sıxıntısız durum**. sakin. uyqun. diş **<** dinc. dinənc. dinəc. dinəş. dinək. dinğlik. dinlik. arsat. tınlıq. tınğlıq. tınma. tınış. tınıc. tınıq. tınaq.

- açılması, **anlaşılması çətin**, **işgilli duyu**, **düşünü**, **soru**, **məsələ**, **durum**: qarmaşıq. **- aşağlıq qarmaşığı**: kiçiklik duyusu. xod kəm bini. **-** yönətim, dolandırma **qarmaşığı**. **-** evlənmə **qarmaşığı**. **-** toplum **qarmaşıqları**.

- qurqu oyandıran durum: iş. quşqu. **-** bu **işin** içində bir **iş** var.

- çox sıxıntılı durum, **çağ**: qara qış.

- durumu dağnaqmaq, **pisəlmək**: işi duman olmaq.

- gerçək bir olumu, durumu başqa yola yozmaq, **çevirmək**: işi **-ə (**nəyi nəyə**)** vurmaq **- işi** alaya **vurmaq**. **-** içidar yoxsul, özün bəyliyə vurur.

- görülən işdən, **olduğu durumdan yoxsun**, **məhrum durma**: qaldı **-** hamı yedi, **qaldı** sən.

- gün durumu: günəşin uzaqlığının ən çox olduğu gün.

- hərgələ, sanasız sayasız, kimkiməlik, başsız ayaqsız, buzlaq duzlaq, hesab kitabsız durum, yer: qabanlıq. kimin könlü buz istər, kimin könlü duz istəlik.

- iş dəğişib, **başqa biçimə**, **duruma çevirşmək**: iş işə töküşmək. **- iş** piçağa **töküşdü**, aradan ölü çıxdı. **-** ağız qavqası, yaxalaşmaya **töküşdü**. **-** xəsdə iyiləşməkdənsə, kötüləşməyə **töküşdü**. **-** nədəndi sevgilər, belə soğuqluğa **töküşür**.

